**Maarif Xalıqov**

# ÖMRÜN AĞLI-QARALI ZOLAQLARI

*Tarixi – etnoqrafik – sənədli povest*

- 21766 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı - "Təknur" - 2018**

84(5Ace)+63.3(5Ace)6-8+63.5(5Ace)
X 23

Redaktoru: Çapar Fərid Kazımlı

Korrektoru: Pərvin Mətləbqızı

Rəssamı: İlahə Əlişqızı

Operatoru: Gülər Əliyeva

**Maarif Xalıqov. Ömrün ağlı-qaralı zolaqları (Tarixi – etnoqrafik – sənədli povest). Bakı - "Təknur" nəşriyyatı - 2018. 128 səh.**

Kitabda bir azərbaycanlı qadının ömrünün ağlı-qaralı zolaqları bədii müstəvidə vərəqlənir və bu məramı, niyyəti dupduru ananın mübarizliyinin, səbrinin, dözümünün, mətanətinin, dəyanətinin oxucuya gözəl örnək və nümunə təsiri bağışlayacağına şübhə etmirik.

**ISBN: 978-9952-445-16-7**

**© Maarif Xalıqov, 2018**

## GÜLLƏLƏNMİŞ GÜLÜŞLƏR

Tarix üzrə fəlsəfə doktoru Maarif Xalıqovu 25 ildən çoxdur ki, böyük vətəndaş, cəsarətli yurdsevər, millətimizin qeyrətli bir təəssübkeşi, böyük əqidə və dönməz inam sahibi, vəfalı dost və qardaş kimi tanıyır, onun geniş ürəyinə, müdrik düşüncələrinə həsəd aparmışam. Alimliyinə də söz ola bilməz, maarifpərvərliyinə də. Azərbaycan tarixinin qaranlıq səhifələri ilə bağlı qələmə aldığı çoxlu sayda elmi məqalələri ilə geniş oxucu kütləsinin rəğbətini qazanan və uzunmüddətli pedaqoji fəaliyyəti dövründə saysız-hesabsız vətəndaş-ziyalılar yetişdirən bu gözəl şəxsiyyətin sən demə, yazıçılıq qabiliyyəti və istedadı da varmış. Əlbəttə, onunla dəfələrlə ədəbi söhbətlərimizdən də bunu duymuşdum və hansısa bir bədii əsər üzərində işlədiyini də hiss etmişdim. Bu günlərdə mənə uzun illər üzərində işlədiyi "Ömrün ağlı-qaralı zolaqları" adlı sənədli povestinin əlyazmasını redaktə etmək üçün təqdim edəndə zənnimdə yanılmadığımı düşündüm, əsəri birnəfəsə oxudum, sanki su kimi içdim, az qala korrektə və redaktəsini unutdum və beləliklə də povest mənim olduqca böyük maraq dairəmə daxil oldu və mən istər-istəməz qələmi götürüb düşüncələrimi ağ vərəq üzərinə səpələməli oldum. Povestin leytmotivini böyük hərflərlə yazılacaq Ana dərdi, Ana nisgili, Ana yanğısı, Ana sızıltısı, Ana naləsi, Ana fəryadı, Ana göynərtisi təşkil edir və Maarif Xalıqovun bədii təqdimatından belə məlum olur ki, 83 illik bir yaşam dövrünün 60-ını əsərin əsas qəhrəmanı Ünzülə ana

göz yaşları içərisində keçirib. Povestin təhkiyəçisi, yəni əsərdə cərəyan edən hadisələrin nəqli İsmayıl tərəfindən söylənilir və Ünzülə ananın başına gətirilən müsibətlərin və bəlaların şahidlik rolunu məhz bu obraz oynayır. O, Ünzülə ananın həyat salnaməsini elə ustalıq və peşəkarlıqla vərəqləyir ki, oxucu əsərdə müəllifin şit bəlağətdən, ah-ufdan, patetikadan uzaq olduğu qənaətinə gəlir və müqəddəs Ana dərdinin real tərəflərini, görümlü həqiqətlərini açıq-aydın dərk edə bilir.

Əsərin bəzi yerləri bədii-publisistik, bəzi məqamları lirik-psixoloji aspektdə qələmə alınsa da, müəllifin məramı və məqsədi aydındır: zəhmətkeş, övladcanlı, əzmkar, səbrli və təmkinli, bir sözlə, cəfakeş və müqəddəs bir Ana obrazı yaratmaq və bugünkü qadınlarımıza və qızlarımıza örnək və nümunə göstərmək.

Və bir daha da qeyd edək ki, dərd motivi povestin ana xəttini təşkil edir və bu motivin mərkəzində Ünzülə ana dayanır, sanki bu müqəddəs məxluqun ömür yollarında dərd ondan əl çəkmir, onunla yol yoldaşı olur və Maarif Xalıqov bütün bunları kəlmə-kəlmə, söz-söz ilmələyir, bədii dona salır, dərd sindromunun poetik obrazını yaradır. Povestin bir bədii etüdündə müəllif İsmayılın bir bulaq başında oturub həmin bulaqdan axan su ilə anası Ünzülənin göz yaşlarını aşağıdakı şəkildə müqayisə edir: " İsmayıl da kəndə gələndə çox vaxt buradakı bulaqların başında oturub xəyal dünyası ilə baş-başa qalır, dərdlərini bulaqlarla bölüşür. Adəti üzrə İsmayıl bir gün yenə də bulaq başına gəldi. Bulağın buz kimi, dişgöynədən suyundan içdi. Əl-üzünü yudu. Sulu əllərini



ağlı-qaralı saçlarında gəzdirdi. Bulağın başında oturub təbiətin nadir mənzərələrinə xeyli tamaşa etdi. Gözləri mamırlı yaşıl tavanın gözəgörünməz dar qatlarından süzülüb üzə çıxan damlalara sataşdı. Təpənin dar damarlarından göz-göz üzə çıxan damlalar sanki onun anasının talesizlikdən axıtdığı göz yaşlarını xatırladırdı".

Povestin, demək olar ki, əksər səhifələrində Ünzülə ananın talesizlikdən axan göz yaşlarını görürür və müəllifin bütün bu bədii təfsilatlarını yüksək dəyərləndirirəm. Təbiət etibarilə obyektiv və təmənnasız bir qələm sahibi olan Maarif müəllimin əsər boyu belə bədii etüdlərini oxuduqca gözlərim önündə onun yaratdığı körpə obrazları da canlanır: İsmayılın, Məhsətinin, Hənifənin və digərlərinin obrazları. Povestin hər sətirindən, hər abzasından, hər səhifəsindən bu obrazlar boylanır və müəllif bunları yaratmaqla demək istəyir ki, əziz atalar və analar, ehtiyatlı olun, sizin müəyyən bir səhviniz ucbatından körpələrin də qəlbi çilik-çilik olur, bənizləri solur, üzlərində gülüşləri də yoxa çıxır. Maarif müəllim bu uşaq obrazlarını yaradarkən sanki özünün uşaqlıq günlərinin hiss və həyəcanlarını ortaya çəkir və bununla da oxucu hiss və həyəcanını da riqqətə və təlatümə gətirmiş olur. Budur, hələ sümükləri tam bərkiməmiş, özündən ağır yükü güc-bəla ilə darta-darta bazara aparan, çörək pulu qazanmaq həvəsi ilə özünü oda-közə atan İsmayılın bazarda qarşılaşdığı mənzərə olduqca tükürpədicidir. Əziz oxucu, təsəvvür edin ki, körpə İsmayıl tum və qatıq satır, ailəni yavan çörəklə təmin etmək istəyir, ata isə yeməkxanada əyləşib, araq şüşəsi qarşısında doğma övladının

çəkdiyi bu ağır və dözülməz mənzərəni ləzzətlə seyr edir. Bütün bunları daha konkret bir şəkildə təsəvvür etmək üçün əsərdən aşağıdakı böyük bir parçaya diqqət yetirək:

"Vəziyyətləri çox ağır idi. 1957-ci ilin noyabr ayında bir körpə də dünyaya göz açdı. Adını ata babasının şərəfinə Hənifə qoydular. Ünzülə südəmər uşaq olan övladı Hənifəni evdə qoyub işləyə bilməzdi. Bəs nə etməli? Ana üç körpə övladı ilə – İsmayıl, Məhsəti və Hənifə ilə köməksiz qalmışdı. Qərara gəldilər ki, anaları qonşudan süd alıb qatıq çalacaq, İsmayıl da dərsdən sonrakı vaxtlarında onları bir vedrədə aparıb rayonun mərkəzindəki yeməkxananın – pavilyonun qabağında stəkanın birini on qəpiyə satacaq. Vedrənin ağır olmasına baxmayaraq İsmayıl onu həvəslə aparıb satırdı. Qatıqları satdıqdan sonra fəxrlə evə gəlir və qazandığı pulları anasına verirdi. Bəzən də anasından icazə alaraq baçısı üçün hədiyyə, onun sevdiyi kuklanı alıb gətirirdi.

Körpə Hənifənin gülüşləri Ünzülənin əzablı günlərinə sevinc gətirmişdi. Bir anlıq hər şeyi, hətta özlərini də unudur, onunla oynayır, körpənin ehtiyacını ödəmək üçün hər bir ağır işlə məşğul olmağa hazır idilər.

İsmayıl bir gün yeməkxananın qabağında qatıq satarkən üzləşdiyi ağır dəqiqələri anasına danışdı:

– Ana! Qatıq satırdım. Uzaqdan qara xron çəkmə geymiş və başında qara papağı olan yaraşıqlı bir kişi mənim yanımdan keçərək yeməkxanaya daxil oldu. Yanımdan keçərkən mənə göz ucu baxdı. İçəri keçib küçəyə baxan pəncərənin qarşısında əyləşdi. Yemək sifariş etdı. Stolun üzərində araq şüşəsi də var idi. Ona



xidmət edən yemək paylayan bayıra çıxaraq məndən bir stəkan qatıq aldı. Bu zaman məndən soruşdu ki, bilirsən, kimin üçün alıram? Təbii ki, mən bilmədiyimi dedim. Pəncərənin qabağında əyləşən müştərisini göstərdi və dedi ki, onun üçün alıram, sənin atan Yasəfdir.

Ana, sanki məni göyün yeddi bir qatına qaldıraraq oradan yerə çırpdılar. Bir anlıq hər şeyə nifrət etdim. Bu həyatdan köçmək qorxusu ilə yaşadığım uşaq xülyası məni tərk etdi. Tezliklə ölməyi, içkili, nəşəli həyatını övladlarından üstün tutan, xəcalət çəkmədən yeyib-içən, hərdən məni gülə-gülə, təbii ki qəmli gülüşlərlə seyr edən, dünənki doğma, bu gün isə yad bir insanın gözlərindən əbədi uzaq olmaq istədim. İsmayılı dinləyən anası ağlamağa başladı. İsmayıl bu hadisəni ona danışdığı üçün peşman oldu, o da anasına qoşulub doyunca ağladı. Ana və oğul düşdükləri acınacaqlı zamanın məngənəsində sanki boğulurdular. Əslində, bu, zamanın məngənəsində çırpınan bir azəri anasının və onun övladının tale yazısı idi. Ananın aldanışları, sevgiləri, övlad istəyi, atanın yaramazlıqları bu ailədə məhəbbət və müsibət məngənələrini formalaşdırmışdı. Ana əzab, əziyyət, müsibət içərisində övladlarını böyüdür, körpə uşaq qatıq satır, ata isə tükürpədici bu mənzərəni beyinləri və ürəkləri iflic edən şərabı qəbul edə-edə seyr edirdi."

Belə bədii-lirik-psixoloji etüdlər əsərdə olduqca çoxluq təşkil edir ki, bunlar da heç şübhəsiz ki, povestin oxunaqlığını təmin edir və müəllifin həyati müşahidə qabiliyyətinin yüksək bir səviyyədə olduğunu göstərir. Povestdəki hadisələr bir ailə fonunda cərəyan etsə də, bəzi məqam-

larda bu fon şaxələnir ki, bunlar da hadisələrin açılmasına təkan verir. Bəzən oxucuya elə gəlir ki, povestin süjet xətti dağınıqdır və əslində isə belə deyil. Həssas oxucu İsmayılın ağlı kəsəndən 60-na qədərki yaş xronikasını izləsə bu fikirdən vaz keçər, yəni əsərin süjet xətti İsmayılın yaş senzinə uyğun olaraq qurulmuşdur.

Əsərin əsas qəhrəmanı Ünzülə anadır və onun həyatda heç bir düşməni yoxdur. Onun taleyi elə gətirib ki, o iki dəfə ailə qurmalı olur. Müəllifin bədii təqdimatından belə məlum olur ki, Ünzülə nə birinci əri Yasəfə, nə də ikinci həyat yoldaşı İsgəndərə düşmən gözündə baxmır. Hətta Yasəfin ali təhsilə yiyələnməsinə də yaxından köməklik göstərir və hər şey də buradan başlanır. Yasəf Kirovabadda (Gəncədə) ali təhsilə yiyələnərkən nankorluq edir, Ünzüləyə sədaqətsizlik, vəfasızlıq göstərərək tələbə yoldaşı olan qızlardan biri ilə ailə həyatı qurur, Ünzülə körpə balası ilə küçəyə atılır. İkinci əri İsgəndər isə qadın düşkünü deyil, xroniki alkoqoldur, davakar bir adamdır. Bəzən biri-birinə əxlaq, tərbiyə dərsi keçəndə belə bir el arasında geniş yayılmış məsəli də xatırlatmalı olur: Kişinin evini üç şey yıxar: 1) qadın düşkünlüyü; 2) şəraba vurğunluq; 3) qumara qurşanmaq. İstər Yasəfin, İstərsə də İsgəndərin həyatında qumarbazlıq olmayıb. Birincisinin qadın düşgünlüyü, ikincisinin isə arağa aludəçiliyi onları dərin uçuruma yuvarlandırır və bütün bunlar povestin ayrı-ayrı hissələrində ustalıqla və yüksək bir bədii formada şərh edilir.

Maarif Xalıqov səbrli, təmkinli, dözümlü, igid, mərd, cəngavər, cəsarətli, qoçaq, ən başlıcası isə namuslu bir



ananın obrazını olduqca yüksək bir səviyyədə yarada bilmişdir. Maraqlı cəhət budur ki, əsər boyu davam edən "göz yaşları" motivikasiyası və ya dərd sindromu povestin sonunda öləziyir və sevinc notları bu motivləri üstələyir və belə aydınlaşır ki, Ünzülə ana min bir dərdə qatlaşaraq övladlarının əlini çörəyə çatdırır, onlardan üçünə ali təhsil verir və İsmayıl alim və respublikamızda çox gözəl tanınan pedaqoqlardan biri olur. Əsərin ümumiləşdirmə hissəsi müasir ailə quran gənclərimiz üçün sözün əsil mənasında əxlaq kodeksinə çevrilir. Mən bu yazıma sərlövhə seçərkən və beynimdən süzülüb gələn düşüncələrimi qələmə alarkən yaradıcılığını sevə-sevə oxuduğum şair-publisist Əli Mahmudun yaddaşıma həkk olunmuş bir poetik örnəyini xatırlamalı oldum:

*Bir körpə görmüşəm,*
*Gözlərində*
*Yaş giləlnmişdi.*
*Elə bil körpənin*
*Gülüşü güllələnmişdi.*

Bəli, həyatda körpə gülüşünün güllələnməsindən dəhşətli, faciəli heç bir şey ola bilməz və onu da düşünürəm ki, güllələrdəki qəlpələri insan bədənindən vaxtında çıxarmaqla onu yaşatmaq olar və Ünzülə analar kimi ...

***Çapar Fərid Kazımlı***
*Müstəqil araşdırıcı*

## Proloq yerinə və yaxud ritorik sualların məngənəsində

İnsan ömrün müəyyən mərhələsinə çatanda istər-istəməz özü-özünə hesabat verməli olur:

– Nə etmişəm? Nə etməliydim? Nəyi etməmişəm? Nələri etsəydim, daha yaxşı olardı?

Bu sualları cavablandıranda istər-istəməz onun içindən gizli bir titrəyiş keçir, o an ürək vəcdə və təlatümə gəlir. Evdə oturub şaxtalı bir gündə pəncərədən bayıra baxanda adama elə gəlir ki, çöldə bahardır, yazdır. Lakin pəncərəni açan və havanın şaxtası üzünü qarsan kimi onu bağlayırsan, təbiətin bahar, yaz cağı olması fikrindən daşınırsan. İnsan düşüncələri, yaddaş və xatirələri də belədir. Mənalı günlərini, aylarını, illərini xatırlayanda qəlbin iftixar, fərəh hissələri ilə dolur, pis günlər yada düşəndə isə o günlərin ağrı-acıları qəlbini, ürəyini şaxta kimi qarsır, didim-didim, parça-parça edir. "Keçmiş" mücərrəd məfhum olsa da, o, İsmayıl üçün ən böyük müdriklik simvoludur. Ömrün ağlı-qaralı zolaqlarını o bəxş edib İsmayıla. Keçmiş onun üçün tərbiyə məktəbi olub, əxlaq dərsi keçib. Ulularımız əbəs yerə deməyiblər ki, keçmişinə xor baxan gələcəyinə kor baxar.

13 gün bundan əvvəl İsmayılın 60 yaşı tamam oldu. O, 13 gündür ki, 60 illik ömrünün yadda qalan səhifələrini vərəqləməyə, həyatının mənalı və unudulmaz, şərəfli və mənasız anlarını yada salmağa çalışır. Qəlbinin ən dərin qatlarından bir səs gəlir: – Bəsdir özünə qapılmağın!... Bəsdir özündə olmayan qəbahətləri, insanlığa yaraşmayan naqislikləri axtarmağın! Bir anlıq özünü unut, ətrafında baş verən hadisələri seyr et, onları bir tamaşaçı kimi deyil, bir iştirakçı kimi təhlil et! Yalnız bundan sonra sən bu dünyada bir zərrəcik olduğunu dərk edəcək, necə həyat sürdüyünü anlayacaqsan.



İsmayıl tez-tez özü-özünə sual edirdi: – Yaşadığın ömür başqalarına nümunə ola bilərmi?

Əslində bu sualın cavabını o, özündə deyil, onu əhatə edən, günlərini onunla və onsuz yaşayan yaxınlarının, dostlarının, qonşularının, onunla bir yerdə işləmiş iş yoldaşlarının, onunla təmasda olmuş insanların yaddaşında axtarırdı.

Əziz oxucum, bu kitabı yazmaqda məqsədim səni mübariz olmağa, həyatın ağrılı-acılı anlarını mərdliklə yaşamağa, çətinliklərdən qorxmadan onları dəf etməyə hazır olmağa çağırmaqdır. Mənim qəhrəmanımın keçdiyi həyat yolunu vərəqlədikcə sən bir daha əmin olacaqsan ki, hər şey insanın özündən, əməlindən, yaşadığı həyat tərzindən asılıdır. Sonda mən sənə belə bir sual verəcəyəm:

– O, mənalımı yaşadı? Sən onun yerinə olsaydın nə edərdin, hansı həyat yolunu seçərdin?

## Qış günündə dünyaya gələn bir körpə ...

1949-cu il dekabr ayının 9-da İsmayıllı rayonunun doğum evində bir körpə dünyaya gəldi. Bütün körpələr kimi o da ağlayırdı. Amma bu ağlayışlarda, bu göz yaşlarında gələcək həyatının məşəqqətli, daşlı-kəsəkli olaca-

ğının sızıltıları var idi. Ünzülə sevinclə körpəsinə baxır, fəryad qoparan bu hıçqırıqların mənasını anlamağa, başa düşməyə çalışırdı.

Həkimlər də mat qalmışdılar. Yüzlərlə körpəni dünyaya gətirən Kəmalə həkim özünü itirmişdi. Bir neçə ildən sonra həkim bu gecənin sızıltılarının, göz yaşlarının, körpə fəryadının nə demək olduğunun sirlərini, dünyaya göz açan bu körpə oğlan uşağının nə üçün belə iniltiylə ağlamasının səbəbini başa düşəcək, özü də bilmədən tənha anlarında həmin gecənin təsiri altında göz yaşları axıdacaq.

Çox qəribədir. XX əsrin 60-cı illərində çəkilmiş "Onu bağışlamaq olarmı?" filmindəki Kəmalə həkim orta məktəb şagirdi olan İsmayılın ən sevimli qadın obrazı olmuşdu. İsmayıl XX əsrin 80-cı illərində anadan olmuş qızına da Kəmalə adını qoymuşdu.

İsmayıl və Kəmalə ayrı-ayrı illərdə dünyaya göz açan övladlar idi. Onların dünyaya gəlişləri iki ailəni sevindirmişdi. Deyirlər ki, hər bir insanın ürəyinə, qəlbinə həm sevinc, həm də kədər hissləri cürbəcür duyğularla, yollarla daxil olur. Kimisinin qəlbini xoş, ılıq sözlər vasitəsilə ələ almaq mümkündür. Kimisinin isə bir göz qırpımında nalayiq sözlərlə, vulqar ifadələrlə, sancmalarla qəlbini qırmaq, sındırmaq olar. Xoş, ılıq sözlər, kobud, nalayiq ifadələr bir yana. İstər əziz və istəklin olsun, istərsə də yad bir adam olsun, onların hər birini göz bəbəklərinin dərinliyində olan məhəbbət, qayğı, ılıq, xoş duyğu aşılayan ecazkar baxışlarla da özünə cəlb etmək və həmin insanın qısa zaman kəsiyində hörmət və məhəbbətini qazanmaq olar. Ürəkdə ailəyə, övlada, cəmiyyətə sevgi yoxsa, kim nə deyir-desin, o ürək ətdən deyil, daşdan-dəmirdəndir. Ürək sevmirsə, həyəcan keçirmirsə, hər şeyə biganədirsə bu yaşayış yox, ölümə bərabər bir haldır. Faciə onda başlayır ki, insanın beyninə biganəlik toxumları səpilir. Bu toxumlar beyində cücərdikcə, rişə atdıqca dünyaya gələn hər bir körpənin həyat yolunda qanqala, tikana çevrilir.



İsmayıl körpə yaşlarında nə qədər biganəliklərə tuş olmuşdusa, Kəmalə belə biganəliklərdən uzaq, valideyn qayğısı ilə əhatə olunmuş sevgi və məhəbbətlə böyümüşdü. İsmayıl sazaqlı, şaxtalı bir qış günündə, Kəmalə isə bir xoş rahiyəli, ətirli bahar günündə dünyaya göz açmışdı.

## O da qış günündə dünyaya göz açmışdı

İlin qış fəslini sevənlər də var, sevməyənlər də. Baxır adamına. Bu yerlərə adəti üzrə yanvar qarı yağmışdı. Şaxta adamın sifətini qarsırdı. Yanvar şaxtası sanki dağların başında bezdiyindən üzüaşağı sarı axışır, isinmək üçün insan nəfəsi dəyən yerlərə – evlərə, daxmalara, isti otaqlara hücum çəkmişdi. Qış üçün tədarükü olan evlərdə qorxu yox idi. Amma yoxsulların qapısı şaxta üçün həmişə açıq idi. Lap elə isti sobaları yansa da.

Maçaxı kəndi şaxtalı, boranlı qış günlərindən birini yaşayırdı. Belə bir gündə, 1929-cu il yanvar ayının 4-də Abdul Məmmədovun ailəsində bir övlad dünyaya gəldi. O

gün Abdul və həyat yoldaşı Nazilə həyatlarının ən gözəl, yaddaşlarında əbədi qalacaq dəqiqələrini yaşadılar. İlk övladları anadan olmuşdu. Kəndin yuxarı başında,

Girdiman çayının sol sahilində, ucqar təpənin üstündə tikilmiş evdən körpə səsinin gəlməsi sanki bütün kəndə yayıldı: Qohum-əqrəba, qonşular, bir sözlə bütün kənd əhli, qonşu Tircan kəndindən olan qohumlar, yaxınlar o gün bu həyətə gələrək gənc valideynləri təbrik edir, onların ilk övladlarına xoşbəxtlik və böyük səadətli günlər arzu edirdilər.

Övladları Ramazan ayında anadan olduğu üçün adını Ünzülə qoydular. O illərdə Ramazan ayında anadan olan oğlan uşaqlarına bir çox valideynlər Ramazan, qız uşaqlarına isə Ünzülə adını qoyurdular. Ünzülə adını daşıyan qız övladları çox az idi.

Abdul kişi Maçaxı və Tircan kəndlərində, qonşu obalarda xeyirxah bir insan kimi ad çıxarmış, tanınmışdı. Ağrılı-acılı Böyük Vətən Müharibəsi illərində neçə kimsəsiz ailəyə kömək olmuş, onları işlədiyi dəyirmanın unu ilə təmin etmiş, insanların xeyir-duasını qazanmışdı. Tircan kəndindən Mahmud kişinin qızı olan Nazilə Maçaxı kəndinin ən hörmətli xanımlarından biri idi. Ünzülənin ana nənəsi Mədinə Səlim qızı Maçaxı kəndində vəfat edib. Nazilə xanım həmişə atası Mahmud paşa ilə fəxr edərdi. Tircan kəndindən olan Mahmud kişini "Solaxay Mahmud" deyə çağırardılar. Ünzülənin ata nənəsi Gülarə Kukay qızı idi.



## Kukay məhəlləsi

Hal-hazırda Maçaxı kəndində Rauf həkimin və onun həyat yoldaşı Bəsirə müəllimənin yaşadıqları məhəllə Kukaylı məhəlləsi adlanır. Kukay kişi Ünzülənin ulu babası, yəni atası Abdulun babası olub. Kukay baba vaxtı ilə həmin məhəllənin başında, təpənin üstündə tikdiyi evdə yaşayıb. İndi həmin həyətdə Ünzülənin bacısı Bəsirənin qızı Reyhan xanım yaşayır.

Kukay kişi XIX əsrdə Maçaxı kəndinin yüzbaşısı olub. Onun Pərizad adında arvadı gözəl təndir çörəyi bişirərmiş. Deyilinə görə, Pərizadın və onun bacısı Sənəmin bişirdikləri xörəkləri və təndir çörəyini bu vaxta kimi Maçaxı kəndində yaşayan heç bir qadın bişirə bilməmişdir. Rauf həkim deyir ki, təpənin üstündə olan həyətlərində 6-7 yerdə qədim təndir yerləri aşkar edib. Görünür, bu təndirlər vaxtı ilə Pərizad xanımın çörək bişirməsi üçün həyat yoldaşı Kukay tərəfindən düzəldilmiş təndirlərin qalıqlarıdır.

XIX əsrdə də, bu gün də Maçaxıda təndir çörəyinin bişirilməsi aşağıdakı şəkildə həyata keçirilir:

Bir kq un, Iki xörək qaşığı duz, bir xörək qaşığı droj, hava isti olanda yarım xörək qaşığı droj götürülür.Duzu suda həll edib xəmirin üstünə tökürlər. Xəmiri ılıq su ilə yoğurur, onu yumurlayıb üstünü yağ çəkilmiş salafanla örtürlər. Altdan yuxarı qalın örtük çəkir, üstünə yastıq qoyurlar. Bir saatdan sonra onu yenidən yoğururlar, bu zaman xəmirin yapışmaması üçün əli yağlayırlar. Xəmiri yuxarıda göstərilən şəkildə yenidən bələyir, bir saatdan

sonra yenidən yağlayırlar. Bundan sonra əli yağlayıb xəmiri kündələyirlər. Kündələrin altına və üstünə klyonka qoyub onları dəsmalla örtürlər. Kündəni hazırladıqdan sonra təndiri yandırırlar. Kündə özünə gəldikdən sonra sarıkökü suda isladıb yumurtanın sarısı ilə qarışdırıb onun üstünə çəkirlər. Bundan sonra onu təndirdə bişirirlər. Girdiman çayının sol sahilində, Sayad dağının ətəyində Kukay tərəfindən salınmış bağ olub və indi də həmin sahə Kukay bağı adlanır.

Kukay kişi həyatində cins heyvanlar saxlarmış. Həyatində canavar boğan itləri olmuş və bu itlər mal-qaranı qoruyurmuş. Bir gün Ağsudan gələn Ərəbsəlimbəy onun qonağı olur. Qonaq Kukay kişiyə deyir ki, mən sənin cins heyvanlarını apara bilərəm. Kukay kişi isə bildirir ki, bacarmazsan. Mərc kəsirlər. Sağollaşıb ayrılırlar. Gecə Ərəbsəlimbəyin göndərdiyi oğrular qamışdan düzəltdikləri iri səbətin içərisinə heyvan ciyəri qoyub darvazanın başından içəri salırlar. İtlər səbətin içinə girəndən sonra səbəti qaldırıb yuxarı bağlayır və bir neçə erkək heyvanı aparırlar. Səhər tezdən Kukay kişini qonaq çağırırlar. Stolun üstünə yemək gəlir. Kukay kişiyə bildirirlər ki, sənin heyvanlarının ətidir.

Kukay kişinin Məmməd adlı oğlu olub. Ünzülənin atası Abdul Məmmədin oğludur. Abdul Tircanlı Solaxay Mahmudun qızı Nazilə ilə ailə həyatı qurub. Nazilənin 3 bacısı olub: Çimnaz, Dursun və Qönçə. Nazilənin qardaşı Mahmud müharibəyə gedib, qayıtmayıb. Abdul və Nazilənin 3 övladı olub: Ünzülə, Mənzilə və Əziz. Əziz oxucum, gördüyün kimi, əsərimin qəhrəmanı xoş-



bəxt bir ailədə dünyaya göz açmış, təminatlı bir ailə həyatı yaşamışdı. 1931-ci ildə anadan olmuş qardaşı Əziz də ailənin, elin-obanın, qohumların, dostlarının əzizi, yaxını, doğması idi. Yazmağa başladığı şerləri ilə hamının hörmətini qazanmışdı. Körpə bacıları Mənzilə ailənin sevimli incisi idi.

## Maçaxı kəndinin tarixi

*Kim bilir neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır.*
*Hər saxsı parçası, hər məzar daşı,*
*Nəsildən-nəsilə bir yadigardır.*

***(Səməd Vurğun)***

Maçaxı kəndi indi İsmayıllı rayonunun Tircan kənd nümayəndəliyinin ərazisində yerləşir. Bu kənd dəniz səviyyəsindən 800 m hündürlükdə, Böyük Qafqaz sıra dağlarının cənub-şərq ətəklərində, Girdiman çayının sol sahilində yerləşir.

Deyilənə görə, Girdiman çayının adı onun sahillərində yaşayan eyni adlı tayfanın adından götürülmüşdür. Digər bir fikrə görə isə, bu toponim orta əsrlərdə mövcud olmuş Albaniyanın (Qafqaz) "Girdiman" tarixi vilayətinin adı ilə bağlıdır. Bəzi tədqiqatçılar bu toponimin İran mənşəli "karta" (qala) sözündən və məkan bidirən " man" şəkilçisindən ibarət olduğunu söyləyirlər. Vilayət öz adını orada mövcud olmuş "Girdiman" qalasının adından almışdır. Həmin qalanın Talıstan kəndinin (İsmayıllı rayonu) yaxınlığında, Ağçayın sahilində, sıldırım qaya



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

üzərində yerləşən Cavanşir qalasının olması ehtimal edilir. Görkəmli Azərbaycan şairi Fələki Şirvani (XII əsr) şerlərinin birində "Girdiman" toponiminin adını çəkmişdir.



*Macaxı kəndinin görünüşü*

Girdiman çayı Böyük Qafqazın cənub ətəklərindən başlayır və Kür çayına tökülür. Uzunluğu 88 km-dir. Başlanğıcını 2900 m hündürlükdə olan Babadağ aşırımının yüksəkliyindən götürür.

Maçaxının bol suları, bulaqları, coxlu meyvə bağları və çəməngahları insanları həmişə məftun edib. Vaxtı ilə qalın meşələrini, geniş ormanlarını və dağ ətəklərini gəzdiyim və dolandığım bu kənddə 300-dən çox ev olub. XIX əsrin əvvəllərində isə Maçaxıda səksənə qədər ev olub. 2004-cü ildə Maçaxı kəndində 33 ailə yaşayırdı, əhalisinin sayı 150 nəfər idi.



Maçaxıda ən xoşa gəlimli işlərdən biri oğurluq və qarətin olmamasıdır. Bu kənddə heç bir əmanətə xəyanət ola bilməz və bu kəndin sakinləri verdikləri sözə əməl etməyi özlərinə borc bilərlər.

İsmayıl bəy Qutqaşınlı "Səfərnamə" əsərində yazır: "Maçaxı qəryəsi Qasanı mahalının bəyləri oturan kənddir. Müqəddəm abadan və gur kənd imiş. İmdi həştada qədər ev həmin olur. Özünün yaxşı bol suları və qabağından cari olan Girdiman adlı çay və ətrafında yaxşı bulaqları və ziyadə meyvə bağları və çəməngahları vardır. Şamaxı ilə bu kəndin arası altı ağac yoldur." Bir ağac yol 7 km-dir.

Macaxı kəndi XVIII əsrdə Şamaxı xanlığının, XIX əsrdə isə Şamaxı qəzasının Qasanı mahalında yerləşirdi. Qasanı mahalına Macaxı, Quşyengicə və Vəndam arasındakı ərazilər daxil idi. Mahalın adı bəzi kitablarda "Qasanlı" yazılıb. Qasanı dağı İsmayıllı rayonunun Talıstan kəndindədir. Qasanı dağının arxasında isə Güyüm kəndi yerləşir. A.A.Bakıxanov "Gülüstanı-İrəm " əsərində Qasanı mahalı haqqında aşağıdakı məlumatı verir: " Hicri 1191-ci (=1767) ildə Fətəli xan

Şəki xanı Hüseyn xanla birlikdə iki tərəfdən gəlib Məhəmmədsəid və Ağası xanın yenidən abad etdikləri Şamaxı şəhərini mühasirəyə aldılar... Ölkəni iki hissəyə böldülər.Sədarı və Qəsani mahalları Hüseyn xana, Şirvanın qalan hissəsi isə Fətəli xana çatdı."

Adıgözəl Vəlbinəli "Maçaxı – qədim yurd yerimiz" kitabında Maçaxı kəndinin adı ilə bağlı aşağıdakıları yazır: " Fikrimizcə bu yer adı A.A.Bakıxanovun "Gülüstani-İrəm"ində dəfələrlə yad etdiyi Mıçıqıç tayfasının adı

ilə bağlıdır... Bizcə "Mıçıqıç" massaget mənasında "maşağı", "maçaçet", "massaçı" variantlarından yaranmışdır... Massagetlər isə Maştağa və Maçaxı etnonimlərinin yaranmasına səbəb olmuşdur."

Digər mənbələrdə isə Maçaxı mayeu-cari-su bolluğu mənasında işlədilir. Fikrimizcə, ikinci etimologiya özünü doğrultmur. "Azərbaycan toponimləri. Ensiklopedik lüğəti"ndə də qeyd edilir ki, Maçaxı oykonimi "massaget" sözünün təhrif olunmuş, yerli şivə variantına uyğunlaşdırılmış formasıdır. Deməli, bu kəndin tarixi eramızdan əvvəllərə gedib çıxır.

Tarixi mənbələrə əsasən deyə bilərik ki, eramızın əvvəllərində Qafqaz Albaniyasının şimal-şərqində (Girdiman zonası) məskunlaşmış maskutlar, masqatlar, massagetlər Azərbaycan xalqının etnogenizində çox mühüm rol oynamışlar.

Bu gün əlimizdə yazılı mənbələrin az olmasına baxmayaraq Maçaxı kəndi haqqında ən böyük tarixi bu yaşayış məntəqəsinin qəbirstanlığı danışır. İsmayıl anası Ünzülənin və eyni zamanda əbədi yuxuya dalmış ulu baba-nənələrimizin ruhuna ehtiram əlaməti olaraq bu qəbirstanlıqda tez-tez olur, bu məzarlar qarşısında baş əyir və onlara Ulu Tanrıdan rəhmət diləyir. Qəbirstanlıqda olan müddətdə əzəlimizdən xəbər verən bu daş abidələri maraqla seyrə dalır. Xəyal onu tarixin qaranlıq səhifələrinə aparır. Qədim qəbirlərin üstündəki sinə və başdaşılarının əksəriyyəti bütöv qaya parçalarından yonulub. Müxtəlif biçimdə olan bu sehrli başdaşılarının üstündə yağışdan-qardan su qalmaq üçün cam boyda



cülyələr oyulub. Bu da şübhəsiz suya sitayişlə bağlıdır. Axı, bu məzarıstanda uyuyan ulu soydaşlarımız da vaxtılə "Su aydınlıqdır", "Su duruluqdur", "Su həyatdır" kimi müdrik kəlamları yaratmış və bizlərə ərmağan göndərmişlər. Ulularımız aydınlığı, duruluğu, şəffaflığı, saflığı suda tapıblar, suyu müqəddəs sanıblar. Görünür elə buna görə də qəbirlərinin başında suya yer veriblər. Sular bütün canlılara can verdiyi kimi, başdaşından damcı-damcı süzülərək ulu əcdadlarımızın ruhuna da can vermiş, qida vermiş və onların ruhuna daima dirilik bəxş etmişdir...

## Maçaxı bəyləri

Maçaxı oymağının (XX əsrdən əvvəllər "kənd" coğrafi termini " oymaq" kimi işlənirdi. -M.X.) varlı bəyləri və torpaq mülkiyyətçiləri haqqında zəngin məlumatlara 1590-cı və 1728-ci ildə Osmanlı türkləri tərəfindən tərtib edilmiş "Gəncə - Qarabağın müfəssəl dəftəri" adlı mənbələrdə də rast gəlirik. Bundan əlavə, XIX əsrin əvvəllərindən - XX əsrin əvvəllərinə kimi rus məmurlarının tərtib etdikləri kameral siyahıya almalarda da Maçaxı kəndinin əhalisi və torpaq sahibləri haqqında bəzi məlumatlar vardır və onlar hal-hazırda Respublika Milli Arxiv Fondunda saxlanılmaqdadır.

Bəylik kəndi kimi tanınan Maçaxıda yaşayanların çoxu bəy tituluna XIX əsrdə yiyələniblər. XIX əsrdə kənddə aşağıdakı bəy nəsilləri olub:

1.Əhməd bəy nəsli
2.Murad bəy nəsli

3.Qocabəyli nəsli
4. Hacalı bəy nəsli
5. Cavad bəy nəsli
6. Osman bəy nəsli
7. Teymur bəy nəsli
8. Şükür bəy nəsli

Maçaxı bəylərinin alicənablığı haqqında 70-80 il bundan əvvəl çoxlu rəvayətlər söyləyirdilər. Lahıc, Həftəso, Brovdal dağ adamları söhbət edirdilər ki, bizim taxılımız qurtaranda Maçaxı bəylərinə müraciət edərdik. O bəylər də bizə taxıl köməkliyi edərdilər və biz də ailəmizi ərzaq çətinliyindən çıxarardıq. Belə kişilərdən – Lahıcdan Seyid Razi, Kərbəlayi Həbib, Brovdaldan – Məşədi Ayət, Həftəso, Əhəndən və başqa dağ kəndlərindən onlarla başqaları Maçaxı bəylərinin kasıblara, açlara əl tutmasından, səxavətindən danışardılar. Karvansara sahibi olan Molla Məhəmməd taxılı olmayanlara taxıl, pulu olmayanlara sələmsiz pul verərdi, atının arpası qurtaranlara təmənnasız yem və sair köməkliklər göstərərdi. Bu səbəbdən də dağ kəndlərinin (28 kənd) adamları Maçaxı kəndinin adamlarının, bəylərinin xatirəsini həmişə yad edər, onların xeyirxah əməllərindən şirin-şirin danışmaqdan doymazdılar.

## Onlar Maçaxıda olmuşlar

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Bakı şəhərini tərk edən M.Ə.Rəsulzadə Basqala gəlir. Basqallı İbrahim yüzbaşının oğlu Misir M.Ə.Rəsulzadəni



Macaxıya gətirir. Bu işdə basqallı Hacı Cəfərlinin nəslindən olan Məşədi Səttar böyük rol oynayır.

M.Ə.Rəsulzadə üç gün Maçaxıda qalır. Üç gündən sonra Maçaxılı Hüseynağa, Sərdarlı Şiralı və onun qardaşı Əjdər bəyin və Molla Məhəmmədin köməyi ilə Rəsulzadəni Maçaxıdan Sərdahara aparırlar. M.Ə.Rəsulzadə oradan Lahıca aparılır. Lahıcdan qayıdan M.Ə.Rəsulzadə bir neçə gün Macaxıda və Nügədidə qalır.

1825-ci il dekabrın 14-də Rusiyada baş verən üsyan məğlubiyyətlə nəticələndikdən sonra həbs olunan dekabristlərin bir hissəsi Cənubi Qafqaza sürgün olunurlar. Onların bir hissəsi Azərbaycana göndərilir. Azərbaycanda olan dekabristlərin bir hissəsi Tircanda və Maçaxıda yerləşdirilir. Burada yaşayan dekabristlər yerli əhaliyə mal-qaranı saxlamaqda kömək edirdilər. Yerli əhali də dekabristlərə qayğı göstərir, onlara maddi kömək edirdi.

Fransız yazıçısı Aleksandr Düma 1858-1859-cu illərdə Azərbaycanda olarkən Maçaxıya da səyahət edir. Aleksandr Düma Maçaxı səfəri haqqında yazırdı: "Üstündə gecələyəcəyimiz Girdiman çayına çatmaq üçün gün batmamış nəhəng bir dağ aşırımını keçməli, 30 kilometr yol qətt etməliyik.

Axşam saat 8 radələrində Girdimançay poçt məntəqəsinə çatdıq (camaat arasında poçt deyirlər). Poçt sahibinin çarpayısının üstündən asılmış xalça marağımıza səbəb oldu. Gecəni orada qaldıq (Bu dəyərli məlumatlar Adıgözəl Vəlbinəlinin "Maçaxı – qədim yurd yerimiz" kitabından götürülmüşdür).

## Maçaxının təsərrüfat həyatı

Əhalinin əsas məşğuliyyəti maldarlıq, əkinçilik və bağçılıqdır. İlin bütün fəsilləri bu yerlər olduqca əsrarəngsiz və gözəldir. Əlalxüsus da yaz fəsli. Bu fəsil əkin-biçinin ən qaynar vaxtı olur. Yaz fəslinin qürub çağı insanların yaddaşına daha çox hopub. Zərrin şəfəqlərə boyanan pəmbə, topa buludlar günəşin ətrafında oynaşdıqca göyün üzü sanki qovlu-quzeydən əlvan don geyinəndə adama ləzzət verir. Kainatın ən böyük çırağı olan günəş dağların arxasına doğru getdikcə, üfüqdəki qızartı yavaş-yavaş öləzidikcə bu yerlərin təsərrüfat, əmək, zəhmət adamları sahələrdən evlərinə qayıdar, özləri üçün xoş istirahət qurardılar.

Maçaxıda dənli və texniki bitkilərlə yanaşı çəltik də becərilirdi. Çəltikçilik Maçaxıda ən geniş yayılmış təsərrüfat sahələrindən biri idi. Maçaxı zonasında çəltik biçini xır, zəmi, biçar adlanırdı. Əkinə qulluq edən usta çəltikçiyə isə xırçı, zəmiçi, biçarçı deyilirdi. Maçaxıda çəltikçilikdə "dol qayıt" suvarma qaydasından istifadə olunurdu. Çəltik növlərinin çoxu 120 günə yetişdiyinə görə belə bir atalar məsəli də vardır: " Qırxında yaş, qırxında baş, qırxında aş".

XVII əsrin 70-ci illərində Azərbaycanda olmuş Hollandiya dənizçisi-səyyahı Yan Streys Dərbənddən Şamaxıya gedərkən Maçaxıda yüksək keyfiyyətli düyüyə rast gəldiyini və bu düyünün ucuz satıldığını qeyd edirdi.

Şamaxı qəzasının Maçaxı kəndində yetişdirilən yüksək keyfiyyətli çəltik növləri beynəlxalq, o cümlədən



Rusiyada keçirilən sərgilərdə dəfələrlə mükafata layiq görülmüşdü. Şamaxı qəzasının Maçaxı kəndinin sakini Zülfüqar bəy İsgəndəroğlunun Maçaxıda yetişdirdiyi düyü 1849-cu ildə Londonda diplom və medalla mükafatlandırılmışdı. 1851-ci ildə Londonda kənd təsərrüfatı malları üzrə təşkil olunan beynəlxalq sərgidə Zülfüqar bəy İsgəndər oğlunun yetişdirdiyi çəltik yenə də mükafata layiq görülmüşdü. Zülfüqar bəy İsgəndər oğlunun Maçaxıda yetişdirdiyi düyü 1852-ci ildə Moskvada keçirilən Ümumrusiya Kənd Təsərrüfatı sərgisində "Bürünc medala" layiq görülmüşdü.

Azərbaycanın çəltik ustaları becərdikləri çəltik növlərinin məhsuldarlığına və keyfiyyətinə görə Ümumdünya London sərgisində (1862-ci il), Xarkov sərgisində (1887-ci il), Tiflisdə keçirilən Qafqaz sərgisində (1889-cu il) mükafata və fərqlənmə diplomlarına layiq görülmüşdülər.

Maçaxıda 1960-cı illərə qədər çəltik becərilmişdir.

## Meyvə bağları

Maçaxıya bahar gələndə dağların, dərələrin ətəyi boyunca təbiət al-yaşıl dona bürünür, əlvan gül-çiçəklər yaşıl xalını xatırladır. Torpağın isti nəfəsi gündən-günə çölü-çəməni cana gətirir, insanlar kəndin müxtəlif təsərrüfatlarında həvəslə işləməyə başlayırlar. Yaz aylarında kənd camaatı dəstə-dəstə təbiətin qoynuna axışır.

Maçaxının zəngin meyvə bağları olub. Həmin bağlar da növbəti yaz fəslini bol çiçəklərlə qarşılayırdı. Bu kənd-

də vaxtilə 48 növ meyvə – alma, armud yetişirdi. Kənddə aşağıdakı armud növləri olub: gülərzeyi, bildirçin budu, uzunboğaz, mollaşabı, xırmanarmudu, quşarmudu, göy armud, qorxmazı, mələsini, daş sini, candəri, bosdam, heyranqulu, Məmmədalı, ciraxanı, Lahıcı, çaqqalboğan, ağ zəhri, qırmızı zəhri, lətənz, kürdükü, nararmudu və s. Məhz bu meyvələr və onların qaxı 1939-1945-ci illərdə İsmayıllı rayonunda adamların karına gəlmişdi. Əfsuslar olsun ki, həmin armud növlərinin çoxu qalmayıb, meyvə bağları tamamilə məhv edilib. Maçaxı gənclərinin əksəriyyəti yuxarıdakı armud növlərini tanımırlar.

## Maçaxı bulaqları

Maçaxıda bütün həyətlərdə içməli su olub və bu gün də var. Vaxtı ilə bu sular Maçaxı bəyləri tərəfindən çəkilib. Conralar bu kürəbəndlər dağılmış və yenidən Qoşabulağın mənbəyindən dəmir borularla həyətlərə su çəkilmişdir. Qoşabulaq böyük diametrli bir vələs ağacının altından çıxaraq axmağa başlayır. Bu gün Maçaxı kəndinin sakinləri Qoşabulağın suyundan istifadə edirlər. Deyilənə görə, Qoşabulaq 7 ildən bir quruyar və onun üstündəki vələs ağaçının dibində qurban kəsilərdi. Əgər bulaq quruyan vaxtı qurban kəsilməsə, su axmazdı. Ona görə də hər 7 ildən bir bu bulağın başında qurban mərasimi yerinə yetirilirdi.

Qoşa bulaqdan göz yaşı kimi dupduru, almaz dənəcikləri kimi şəffaf su axırdı. Bu bulağın başında daima həzin meh əsərdi. Həzin meh yaşıl yarpaqlar pıçıldaşan



quşlar kimi səs-səsə verərdilər. Buradan Maçaxı kəndinə geniş mənzərə açılırdı. Bu bulaqların hamısı Ünzüləyə doğma, əziz, məlhəm idi. Bu yerlərin hər daşında, torpağında, bulağında Ünzülənin izi vardı. Ünzülə, qardaşı Əziz və bacısı Mənzilə nağıllarda eşitdikləri, oxuduqları kimi bu yerləri, bu bulaqları özlərinin behişti hesab edirdilər.

İsmayıl da kəndə gələndə çox vaxt buradakı bulaqların başında oturub xəyal dünyası ilə baş-başa qalır, dərdlərini bulaqlarla bölüşür. Adəti üzrə İsmayıl bir gün yenə də bulaq başına gəldi. Bulağın buz kimi, dişgöynədən suyundan içdi. Əl-üzünü yudu. Sulu əllərini ağlı-qaralı saçlarında gəzdirdi. Bulağın başında oturub təbiətin nadir mənzərəsinə xeyli tamaşa etdi. Gözləri mamırlı yaşıl tavanın gözəgörünməz dar qatlarından süzülüb üzə çıxan damlalara sataşdı. Təpənin dar damarlarından göz-göz üzə çıxan damlalar sanki onun anasının talesizlikdən axıtdığı göz yaşlarını xatırladırdı... Maçaxıda "İsitmə", "Mancılıq", "Hacıbulaq", "Mollabulağı", "Eyvaz bulağı" adlı hidronimlər də var. Maçaxı xanımları nehrə çalxayanda adəti üzrə "Hacıbulaq" suyundan istifadə edirdilər.

## Maçaxının su dəyirmanları

Maçaxıda çoxlu su dəyirmanları var idi və u dəyirmanlar onu inşa edənlərin adları ilə çağrılıb: Məmiş dəyirmanı, Kamil oğlunun dəyirmanı, İsaqulu dəyirmanı, Molla dəyirmanı, Orta dəyirman, Xocalı və Kələmeşə dəyirmanları. Ünzülənin atası Abdul Maçaxı dəyirmanında işləyib. Təəssüflər olsun ki, hal-hazırda həmin dəyirmanların

heç biri mövcud deyil.

## Maçaxı karvansarası

İndi Lahıca gedən yollar o vaxtlar belə səliqə-sahmanlı olmayıb. Ağsu, Kürdəmir, Şamaxı, Qarabağdan gələn insanlar əksər vaxtlar Macaxı ərazisindən keçirmişlər. Gədəbəydə mis yüklənmiş dəvə karvanları Maçaxıya gələr, sonra isə Girdiman cayının içi ilə Lahıca yollanarmışlar. Tiflisdən Kürdəmirə gətirilən malları, əsasən, mis və başqa metal məmulatlarını da arabaçılar Maçaxıya daşıyırdılar. Buradan isə Lahıca aparırdılar. Maçaxıda adı tarix səhnəsindən silinmiş neçə-neçə karvansa olmuşdur.

Girdiman çayının sol sahilində yerləşən qədim karvansaraların ətrafı müxtəlif səmtlərdə zoğal, dağdağan ağacları, itburnu, moruq, böyürtkən, gərməşov kolları ilə əhatə olunmuşdu. Bu karvansaralar ulu əcdadlarımızın – sakların nişangahları, canlı tarixi idi. Burada neçə-neçə ulu əcdadımız qanlı-qadalı illərdə gecələmiş, Şərqdən – Qərbə, Qərbdən – Şərqə gedən dəvə karvanları dinclərini almışlar. Kim bilir, bu yerlərdə, əzəmətli Lahıc dağlarının qucağında insanlığın neçə-neçə nəsli yaşamışdır.

Girdiman çayının sol sahilində, Maçaxı kəndinin çaya yaxın olan ərazisində Molla Məhəmmədin karvansarası olmuşdur. Tacirlər mallarını karvansarada saxlayardılar. Satış mallarını buradan atlarla Lahıca aparardılar. Mis emal olunduqdan sonra yenidən Maçaxı karvansarasına gələrdilər. Emal olunmuş mis məmulatlarını buradan Tiflisə və Rusiyanın şəhərlərinə göndərərdilər.



Karvansaranın qabağında, Lahıca və Qubaya gedən ipək yolunun üstündə Maçaxıda ilk məscid tikilmişdi. Həmin məscid 1918-ci ildə ermənilər tərəfindən yandırılmışdır.

## Bazar meydanı

1918-ci ilə qədər Maçaxıda, Girdiman çayının sol sahilində, Karvansaranın yaxınlığında böyük bazar var idi. Onu "Bazar meydanı" adlandırırdılar. O vaxtlar bu tipli bazar Göyçay və Şamaxıda olmuşdur. Həftənin üçüncü günü Şamaxıdan və ətraf kəndlərdən gələn tacirlər burada alver edərdilər. Həftənin beşinci günü isə Vəndam bazarına gedərdilər. 1918-ci ildə ermənilər həmin bazarı da yandırdılar.

## Maçaxı kəndində poçt yeri

Keçmiş zamanlarda məktubları, teleqramları, xəbərləri çatdırmaq üçün müəyyən yerlərdə hökumətin poçt məntəqələri açılırdı. Tiflisdən Şamaxıya qədər olan ərazidə bir neçə yerdə dövlətin poçt məntəqəsi olmuşdur. Bu poçt məntəqələrindən biri də Maçaxı kəndində idi. Həmin poçt məntəqəsi 1914-cü ildən 1917-ci ilə kimi fəaliyyət göstərmişdir. İndi də həmin yeri kənd camaatı "Poçt yeri" adlandırırlar.

Bu poçtlara rəhbərlik edənlərin böyük əksəriyyəti ruslar olub. Maçaxı poçtunda 12 adam işləyib və onların da sürətlə qaçan 12 atı olub.

## Ermənilərin Maçaxı kəndində törətdikləri vəhşiliklər

**Rauf həkimin dedikləri:**

Ermənilərin 1918-ci ilin mart ayında Maçaxı kəndində törətdikləri insanlığa sığmayan vəhşilikləri haqqında Rauf həkimin atası Mustafa ona danışıb. O zaman Mustafanın 10 yaşı var idi. 1918-ci ilin Novruz bayramına az qalmış erməni quldurları kəndə soxuldular. Günorta namazı vaxtı idi. Kənd əhli kəndin mərkəzindəki böyük məsciddə idi. Ermənilər məscidi yandırdılar. Demək olar ki, bir nəfər də bayıra çıxa bilmədi, içəridə olanların hamısı yanaraq külə döndü. Məscid 1889-cu ildə tikilmişdi.

Ermənilər daha sonra Girdiman çayının sol sahilindəki məscidi də yandırıb yerlə yeksan etdilər. Məscidin yaxınlığında olan Bazar meydanı da ermənilər tərəfindən yandırıldı.





*Maçaxı kəndindəki dağıdılmlş məscidin yeri*

Təpədən dırnağa kimi silahlanmış erməni quldurları dinc əhaliyə, qadınlara, uşaqlara, qocalara işgəncələr verir, evlərini və əmlaklarını darmadağın edirdilər.

Maçaxıda Şirin baba və onun arvadının yaşadıqları qazmanı odlayıb yandırdılar. Əsir tutduqları ata və ananı övladlarının gözü qarşısında balta ilə doğradılar, övladlarını isə bu "mənzərəyə" baxmağa məcbur etdilər.

Həmin hadisələrin şahidi olan atası Mustafa Raufa söhbətedərdiki, ermənilər kəndə daxil olduqdan sonra heçkim məsciddən çıxa bilməyib. Əhalinin bir hissəsi Girdiman çayının sağ sahilində olan "Dərəlax" deyilən yerdə gizlənib. 1918-ci ilin mart qırğınları zamanı Tircan kəndi və onun qonşulu-ğunda olan Maçaxı kəndinin sakinlərindən 60 nəfər qətlə yetirilmişdi. Bunlardan 40 nəfəri qadın, 20 nəfəri uşaq olmuşdur.

## Məktəb

Ta qədimdən Maçaxı kəndində çox güclü ruhani məktəbi fəaliyyət göstərmişdir. Sovet quruluşu yaradılana kimi dini təhsil alan gənclərə kənd məscidində və varlı adamların evlərində fəaliyyət göstərən şəxsi məktəblərdə dərslər keçirilirdi. Kənd ruhani məktəbini bitirənlər sonrakı təhsillərini Şərq ölkələrində (daha çox İranda) davam etdirirdilər.

Maçaxıda sovet tipli ilk ibtidai məktəb 1935-ci ildə fəaliyyətə başlayıb. İlk müəllimi Müsü kəndinin sakini Qərib Müslümov olub. Sonrakı illərdə məktəbdə Göy-

çaydan gəlmiş Ağasəlim müəllim, Abdulla müəllim və başqaları da dərs deyiblər. Yəqin ki, balaca Ünzülənin də ilk müəllimləri onlar olublar. Keçən əsrin 60-cı illərində Macaxı kənd məktəbində müəllim işləmiş Əhmədov Oruc Səftər oğlunun səyi nəticəsində 1966-cı ildə Maçaxıda yeni məktəb binası tikilmişdi.

1929-1933-cü illərdə Tircanda yeddiillik məktəb fəaliyyət göstərilib. 1939-40-cı tədris ilindən Tircan məktəbi onillik təhsil sisteminə keçmişdir. Maçaxı kənd məktəbində ibtidai təhsilini başa vuran Ünzülə və qardaşı Əziz, o cümlədən sinif yoldaşları sonrakı təhsillərini Tircan kənd orta məktəbində davam etdirmişlər.

Ünzülə və Əziz həvəslə Tircan kəndindəki orta məktəbə gedirdilər. Payızın gur yağışları, qışın dizə qədər çıxan qarı da onları qorxutmur, daim məktəbdə olur, yaxşı oxuyurdular. Yüksək qayğı ilə, naz-nemətlə böyüyürdülər, tərbiyə alırdılar. Hamı onlara qibtə edir, xöşbəxtlərin xöşbəxti hesab edirdi. Amma, atalar doğru deyıb: – "Sən saydığını say, gör fələk nə sayır".

## Maçaxı kənd əhalisi Böyük Vətən Müharibəsi illərində

1941-ci il iyun ayının 22-də Böyük Cahan savaşı başlandı. Maçaxı kəndinin əli silah tuta bilən, demək olar ki, bütün cavanları müharibəyə yollandı. Kənd sanki qara libasa bürünmüşdü. Gözü oğul yolu gözləyən analar, cavan ərinə qovuşmaq istəyi ilə yaşayan gəlinlər qollarını çırmayıb var qüvvələri, gücləri ilə arxa cəbhədə çalışır,



qələbəyə böyük ümidlərlə baxırdılar.

Böyük Vətən Müharıbəsi illərində Macaxı kəndindən olan çoxsaylı gənclər, kişilər cəbhədə düşmənə qarşı amansızcasına mübarizə aparırdılar. Ön cəbhədə düşmənə qarşı aparılan döyüşlərdə aşağıda adları göstərilən maçaxılılar və digərləri həlak olmuş və itkin düşmüşlər:

- Ələkbərov Ələkbər Sərkər oğlu, Xəlilov Baba Məhəmməd oğlu,
- Vahabov Mikayıl Cəbrayıl oğlu, Əhmədov Səfər Məhəmməd oğlu,
- Əliyev Mehdi Fətəli oğlu, Yusifov Əlif Behbud oğlu, Mustafayev Alış
- Şükür oğlu, Cəlilov Əli Cabbar oğlu və s. Ünzülənin atası Abdul kişi hər iki dizindən əlil olduğu üçün müharıbəyə aparılmamışdı.

2017-cı il iyul ayının 30-da 79 yaşlı Rauf həkim Maçaxı kənd sakinlərinin Böyük Vətən Müharibəsi illəri dövründəki yaşayışı, zəhməti haqqında aşağıdakıları söylədi:

– Müharibə başlandıqdan sonra əli silah tutan kişiləri səfərbərliyə alıb ön cəbhəyə apardılar. Bütün təsərrüfatda əkin, biçin, şum işlərini qadınlar və uşaqlar görməyə başladılar. Buğda, arpa, darı, noxud, lərgə əkilirdi. Qadınlar üçün ən ağır iş çəltiyin əkilməsi idi. Kənd əhalisinin maddi vəziyyəti həddindən artıq ağır idi. Yetişdirilən bütün məhsulu cəbhəyə göndərilmək üçün qadın və uşaqlar tərəfindən arabalarla Kürdəmirə aparılırdı. Kənd əhalisi isə biçindən sonra yerə tökülmüş başşaqla, yəni arpa və buğdanın, çəltiyin yerə tökülmüş qırıntıları ilə bir təhər

keçinməli olurdu.

Ətraf kəndlərin, xüsusilə Zərnava, Tircan və digər dağ kəndlərinin əhalisi də köç edərək Maçaxıda yaşayırdılar. Bunun əsas səbəbi isə Maçaxıda zəngin meyvə bağlarının olması idi. Bağlardakı meyvələri yığıb qurudur, eyni zamanda onlardan bəhməz hazırlayırdılar. Maçaxının bol suyu, bərəkətli torpağı Böyük Vətən Müharibəsi illərində nəinki macaxılıların, eyni zamanda Tircan sakinlərinin də sağ-salamat qalmalarına böyük kömək etdi.

1945-ci il qələbə ili, xoşbəxlik ili oldu. Bu qələbə bütün dünyaya, eləcə də Azərbaycana böyük sevinc gətirdi. İkinci Dünya Müharibəsi və Böyük Vətən Müharibəsi sona yetdi. Bəşəriyyətə böyük əzablar gətirmiş hitler ordusu öz beşiyində boğuldu. Faşizmə qarşı dözümlə mübarizə aparmış xalqlar tarixin sınağından üzüağ çıxdılar.

Müharibə illərində min bir köməksiz ailəyə yardım göstərmiş, onları çörəklə, ruzi ilə təmin etmiş, yerli əhali ilə möhkəm tellərlə qaynayıb-qarışmış, kəndin xeyir və şərində başda əyləşən, qədirbilən insan olan, hər kəsə qiymət verməyi bacaran, yaxşı ilə yamanı məharətlə bir-birindən ayırd edən Abdul kişi və onun üç övladı üçün 1945-ci il olduqca ağrılı bir il oldu. Ailənin xanımı Nazilə ağır xəstəlikdən sonra gözlərini əbədi yumdu. Övladlarının toyunu, xoş gününü görmədən dünyasını dəyişdi. İki qız, bir oğul övladı anasız qaldılar. Onların əsl ağır günləri bundan sonra başlandı. Abdul kişi də başını itirmişdi, özünə gələ bilmirdi. Hara baxırdısa Naziləni görür, onun səsini, hənirtisini eşidirdi. Gecə Nazilə yuxusuna girir, ondan uşaqları kimsəsiz, köməksiz, yetim qoy-



mamağı xahiş edirdi. Məhz bu gecə xahişləri, Nazilənin ölməz ruhunun yalvarışları Abdulu ikinci dəfə ailə həyatı qurmağa məcbur etdi.

Yeni ailəsində iki qız övladı da – Bəsirə və Zərnişan anadan oldular.

Abdul kişi təzəcə özünə gəlməyə başlamışdı. Ünzülə isə anasının isti nəfəsini, diqqət və qayğısını qardaşı Əzizdə, bacısı Mənzilədə tapmışdı. Lakin onları daha bir ağır itki gözləyirdi.

## Girdiman faciəsi

1948-ci il may ayının 28-də axşam üstü 6 xala oğlu, o cümlədən Əziz əkin işindən geri qayıdarkən Girdiman çayında sel onları ağuşuna aldı. Həmişə Girdimanın gur selindən qalib çıxan xalaoğlular çox təəssüf ki, bu dəfə məğlub oldular. Onlardan beşinin meyiti tapıldı. Əzizin meyiti isə tapılmadı. Yazıq Ünzülə dünyasını dəyişənə qədər "qardaş, qardaş" – deyib ağladı, onun ölümünə inanmadı, ardaşının yolunu gözlədi. Həmişə deyirdi ki, mən öləndən sonra qardaşım Əziz gələcək və qəbrimi ziyarət edəcək... Ünzülə oğlunu o qədər inandırmışdı ki, İsmayıl 2015-ci ilin mart ayında, Novruz bayramına bir neçə gün qalmış, gecə yuxuda gördü ki, ağ saçlı nurani bir insan anası Ünzülənin məzar daşını qucaqlayaraq ağlayır, tez-tez təşvişlə ətrafa baxır, sanki onu kimsənin görməsini istəmir. Günəş hələ çıxmamışdı. İsmayılın məzarlığa daxil olduğunu görüb qeybə çəkildi.

Səhər tezdən Maçaxıya, xalası Bəsirəyə zəng vuraraq

yuxusu haqqında ona məlumat verdi. Xalası da bildirdi ki, qardaşı Əzizin sağ olması ona da agah olub. Ona deyiblər ki, Əziz sağdır, Ağsu rayonunda bir kənddə yaşayır. Hətta məni birlikdə həmin kəndə getməyə dəvət etdi. Lakin sonradan məlum oldu ki, bu bir xülyadır.

28 may 1948-ci il faciəsini 79 yaşlı Rauf həkim 27 iyun 2017-ci ildə belə xatırlayır:

– O zaman mənim 10 yaşım vardı. Axşam üstü hava qəflətən qaraldı və yağış yağmağa başladı. Birdən briqadir Qurban kişinin həyəcanlı qışqırığını eşitdik:

– Kömək edin!!! Girdiman çayının seli uşaqları ağuşuna aldı!!!

Qurban Abdulun dağın zirvəsində olan həyətindən kənd camaatını köməyə çağırırdı. Bu həyətdə dünyaya göz açan Əziz indi Girdimanda selin ağuşunda ölüm-dirim mübarizəsi ilə çarpışırdı.

Girdiman çayının sağ sahilində, indiki Təzəkəndin ərazisində Maçaxının əkin sahələri var idi. Təzəkənd kəndinin yaxınlığında olan Torpaqqala da vaxtilə Maçaxı bəylərinə məxsus olub. Əkin vaxtı kəndin gəncləri çayı piyada keçərək ora gedər, şumlama işləri görər, axşam da çayı keçərək evə qayıdardılar. Bu gün də 6 nəfər yeniyetmə oğlan uşağı – xalaoğlular işlərini görüb geri qayıdırdılar.

Çayin sol sahilinə keçməyə çox az məsafə qalmışdı. Birdən sol sahildə güclü sel axını onları haqladı. Seldən keçə bilməyən uşaqlar geri qayıtdılar. Bu zaman daha güclü bir sel axını sağ tərəfdən onların yolunu kəsdi. Aradakı qumsallıqda qaldılar. Bu məqamda aralarında ən kişik yaşı olan (14-15 yaşlarında) Şahları kəlin üstünə qoy-



dular ki, kəl onu qarşıdakı sahilə keçirsin. Lakin amansız sel hər ikisini apardı.

Təxminən gecə saat 22 radələrinə kimi uşaqların tük ürpədici qışqırıqları gəlirdi. Sel çox güclü olduğu üçün çayın hər iki sahilində toplaşan adamlar onlara kömək edə bilmədilər, onları selin caynağından almaq mümkün olmadı. Hər iki axın birləşdikdən sonra facıə başa çatdı, uşaqların səsi kəsildi.

Meyitləri bir aydan cox axtardılar. Şahları orta dəyirman deyilən yerdə, çaytikanı kolunun arasından, Əlövsəti dörd gündən sonra Govdaran dəyirmanının qabağından, Məliyi Orta Qəmsə deyilən yerdən – Girdiman çayının ortasındakı kolların içərisindən, Sabiri İsaqulu babanın dəyirmanının yaxınlığındakı su çalasından tapdılar. Girdimanın sağ sahilindən tapılan Günəşin meyiti tanınmaz hala düşmüşdü, paltarından tanıdılar. Nə qədər axtarsalar da Əzizi tapa bilmədilər. Ehtimal olunur ki, o, qum topalarının altında qaldığından və qumla basdırıldığından onun meyitini tapmaq mümkün olmadı.

## Tircan kənd orta məktəbinin əlaçı şagirdi

Tircan Ismayıllının ən qədim yaşayış məntəqələrindən biridir. Dağətəyi ərazidə yerləşən bu kəndin adı mənbələrdə müxtəlif cür izah edilir. Bəzi tədqiqatçılara görə, Tircan monqol dilindəki "tərçən" (alaçıq düzəldənlərin başçısı, keçmişdə saraylarda vəzifə) sözünün təhrif

olunmuş formasıdır. Bu etimologiya özünü doğrultmur. Fikrimizcə, bu söz erkən orta əsrlərdə Sibir ərazisində yaşamış türkdilli qədim "türk, turuk" tayfasının adını özündə əks etdirir. VII-VIII əsrlərdə Yenisey çayı boyunca turkeş tayfaları da yaşamışlar. Bu əsrlərdə türklər – türkeşlər "tulu (dulu)" tayfa ittifaqına daxil idilər. Mənbələrdə qeyd edilir ki, 704-cü ildə Qərbi Türk xaqanlığına son qoyan türkeşlər öz dövlətlərini yaratdılar. VIII əsrdə uyğurlar və karluklar turkeşləri məğlub etdilər. Müasir başqırd və tatarlar arasında "türkəş (turkəş)" tayfa adı qeydə alınmışdır. Dağlıq Altayda "turkəş" adlı etnoqrafik qrup var. IX-X əsr ərəb mənbələrinə görə, xəzərlər (güman ki, onların tərkibində tirkəşlər də olmuşdur) Qəbələ mahalında da yerləşmişdilər. Tirkəşlərin İsmayıllı ərazilərinə də gəlişi bu əsrlərə təsadüf edir. Vaxtilə Tircan kəndinin əsasını qədim türkdilli tirkeşlər qoyduğuna görə kənd belə adlandırılmışdır. Etnotoponimin sonuna "can" komponenti çox sonralar əlavə edilmiş və " tirkeşləri sevənlər" mənasını daşıyır. Azərbaycanda "türk, tirkeş" komponentli yer-yurd adları çoxdur. Buna misal olaraq Zəngilan rayonundakı Tiri, Kəlbəcər rayonundakı Tirşəbəndə, Cəbrayıl rayonundakı qədim Türik, İsmayıllı rayonundakı Tircan yer adlarını göstərə bilərik.

Tircan kəndindəki məktəbin də tarixi olduqca qədimdir. Tircan kənd orta məktəbində dərs əlaçısı olan Ünzülə hamının sevimlisi idi. Müəllimləri onu sinif yoldaşlarına, məktəb şagirdlərinə nümunə göstərirdilər. Valideynlər Abdul kişiyə belə övlad böyütdüyü üçün dəfələrlə minnətdarlıqlarını bildirir, maçaxılı qıza xoşbəxt həyat, uğur-



lu gələcək arzulayırdılar...

Ünzülənin oğlu İsmayıl da 1957-1960-cı illərdə İsmayıllı rayonundakı orta məktəbin ibtidai sinfində oxuyarkən sinif müəllimi Cəlal müəllim onu sinif yoldaşlarına nümunə göstərir, onu zəif oxuyan sinif yoldaşlarının yanında oturdur, onlara kömək etmək lazım olduğunu bildirərdi. İsmayıl da Cəlal müəllimin bu tapşırıqlarını həvəslə yerinə yetirirdi. İsmayıl sonralar yazırdı ki, əslində bundan sonra o özünə qarşı daha tələbkar olmağa başlamışdı. Onda özünə inam güclənmiş, çətin vaxtlarda yaşıdlarına, ətrafındakı adamlara kömək etmək hissi yaranmışdı. Bir sözlə, ibtidai sinif müəllimi Cəlal Rüstəmov İsmayılın bir insan kimi formalaşmasında çox böyük rol oynamışdır.

Orta məktəbi bitirdikdən sonra Ünzülə İsmayıllı rayonunun mərkəzindəki pedaqoyi məktəbə qəbul olundu. Orada da dərs əlaçısı idi. Arzusu müəllim olmaq, anadan olduğu kəndin uşaqlarına dərs demək, onlara elmin çətin sirlərini öyrətmək, vətənin layiqli övladı kimi tərbiyə etmək idi. Çox həyatsevər, çalışqan, elinə-obasına bağlı bir qız idi. Məhz bu əməksevərlik, çalışqanlıq ağır günlərində onun köməyinə çatacaq, yol yoldaşı, xilaskarı olacaq.

## Ünzüləni izləyən kölgə

Son vaxtlar rayonda onu bir kölgə izləyirdi. Addımbaaddım onun ardınca gəlir, dərs qurtardıqdan sonra da bu kölgə ondan əl çəkmirdi. Lakin yaxınlaşmağa da cürət etmirdi. 2009-cu ildə İsmayıl anasından atası ilə necə tanış olduqlarını soruşduqda 80 yaşlı Ünzülə o günləri belə

xatırladı: " Hər gün texnikumdan çıxıb evə gedərkən körpünün üstündə bir cavan oğlanın duraraq qəmli-qəmli mənə baxdığını görürdüm. Bir gün mənə yaxınlaşıb axşam bağ gəzintisinə dəvət etdi. Mən də ona dedim ki, bir şərtlə razı olaram. Sən baçınla gəl. Mən də qardaşım Əzizi gətirəcəyəm. Birlikdə gəzərik. Səhvini başa düşən Yasəf (adını sonradan öyrəndim), pərt halda çıxıb getdi. Məni düz bir il izlədi. Bir ildən sonra ailə qurduq".

Rayonun yuxarı başında yaşamış rəhmətlik Nurəddin kişinin yurduna gəlin köçdü Ünzülə. Min bir arzu, min bir sevinclə. Həyat yoldaşı Yasəf də çox qıvraq, gözəl bir gənc idi. Yasəfin bacısı Sənubər və qardaşı Qaraxan təzə gəlinə hörmət edir, onun hər bir xahişini və arzusunu vaxtında yerinə yetirir, ona "can bacı" deyərək müraciət edirdilər.

Bir gün Yasəf Ünzüləyə müraciət edərək ali təhsilli kənd təsərrüfatı mütəxəssisi olmaq istədiyini bildirdi. Bunun üçün Kirovabad şəhərindəki (Gəncə) Kənd Təsərrüfatı İnstitutunun tələbəsi olmalı idi.

Maddi vəziyyətləri ağır olduğu üçün bəlkə də Ünzülə olmasaydı, onun bu istəyi arzu olaraq qalacaqdı.

Gənc həyat yoldaşının qəmli-qüssəli olduğunu görən Ünzülə ona dedi:

– Əzizim, fikir etmə. İcazə ver, mən rayondakı uşaq baxçasına müəllimə işinə qəbul olunum. Qayınanam da işləyir. Birlikdə çalışarıq. Həm ailənin maddi problemlərini həll edər, həm də səni oxudarıq. Sən təhsilini müvəffəqiyyətlə başa vurub rayona qayıtdıqdan sonra rayonun sayılan kənd təsərrüfatı mütəxəssislərindən biri olacaqsan. Bundan sonra ailəmizin xoş günləri başlayacaq. Eyni



zamanda bacının və qardaşının da problemlərini yoluna qoyarsan. Bu problemlərin həllində mən sənin yaxın köməkçin, silahdaşın olacağam.

## Tələbə Yasəf

Həyat yoldaşının xeyir-duasını alan Yasəf bu barədə anası Gözələ, bacısı Sənubərə və qardaşı Qaraxana xəbər verdi. Onlar da çox sevindilər. Qardaşlarına uğur dilədilər. Anası Gözəl arvad oğluna müraciət edərək onu qeyrətli olmağa, ilk növbədə həyat yoldaşının dayağı, məsləkdaşı olmağa çağırdı:

– Oğul, sənə uğurlar arzulayıram. Qayıdışını səbirsizliklə gözləyirik. Tələbəlik illərini elə yaşa ki, südümü sənə halal edim.

Kirovabad Kənd Təsərrüfatı İnstitutuna qəbul imtahanı verən Yasəf Zootexnika fakultəsinin əyani şöbəsinə qəbul olundu. Ali məktəbin yaxınlığında olan məhəllələrin birində ev kirayə edərək orada yaşamağa başladı. İnstitutda onu yaxşı tələbə kimi tanıyırdılar. Müəllimlərin və tələbə yoldaşlarının hörmətini qazanmışdı. Qız tələbələr isə İsmayıllı rayonundan olan bu göyçək oğlana vurulmuşdular. Onların çoxu Yasəfin ailəli olduğunu bilsələr də özləri ilə mübarizə apara bilmir, onun həyat yoldaşı olmaq arzusu ilə yaşayırdılar. Bəzi qızlar bu hərəkətlərinin gələcəkdə Yasəfin özünə, ailəsinə hansı zərbəni vuracağını, fəlakət gətirəcəyini anlamır, görə bilmir və görmək də istəmirdilər.

İsmayıllı rayonunda həm qonşuları, həm iş yoldaşları, həm də qohumları Ünzülənin işgüzarlığına, zəhmətkeşliyinə heyran qalmışdılar. Səhər tezdən evdə hamıdan tez yuxudan duran Ünzülə yeməyi hazırlayır, bundan sonra qayınanasını, Qaraxanı və Sənubəri yuxudan oyadır, birlikdə səhər naharını etdikdən sonra uşaq baxçasına işə gedirdi. Bu işlərin hamısını 10-15 dəqiqəyə görmək mümkün deyildi və Ünzülə bu işlərinin öhdəsindən layiqincə gəlirdi.

Ünzülə xoruz banlayanda yuxudan qalxar, səhəpsəhər ev-eşiyi yığışdırıb sahmana salar, çörək bişirmək üçün tədarük görərdi. Bunun üçün dağarçıqdan un çıxarıb ələyər, təhnədə xamır yoğurar, taxtın üstünə süfrə sərib kündəni tökərdi. Təndir çörəyini bişirməyin sirlərini rəhmətlik anası Nazilə ona öyrətmişdi. İlin bütün fəsillərində Ünzülənin iş rejimi belə idi. Bəzən yayda havalar bürkü olsa da o, iş rejimini dəyişmədən gününü belə davam etdirirdi.

Bu həyətdə çörək və xörək bişirmək üçün qalanan ağacdan qalxan tüstü topaları bəzən havadan asılı qalar, Ünzülənin gözünə dolardı, onu göz yaşlarına qərq edərdi. Bağçada hamının hörmətini qazanmışdı. Bir amalı, bir məqsədi var idi: "Layiqli həyat yoldaşı olmaq, tələbə Yasəfin maddi çətinlik çəkməsinə imkan verməmək. Eyni zamanda, ata məhəbbətindən, qayğısından məhrum olmuş Sənubər və Qaraxanın qəm-qüssədən uzaq, sevinclə dolu bir həyat yaşamalarını təmin etmək, həyat yoldaşını tez itirmiş Gözəl arvadın layiqli gəlini olmaq".

Artıq hamilə idi. Bir qayğısı da artmışdı. Tezliklə ana



olacaqdı. Bu anı səbirsizliklə gözləyirdi. Gecələr tənha qalan Ünzülə səhərə qədər yatmır, xəyalən Yasəflə, eyni zamanda bətnindəki körpəsi ilə söhbət edir, birlikdə xoşbəxt olacaqlarını düşünür, onları da buna inandırdıqdan sonra dərin yuxuya gedirdi. Şirin yuxuda da birlikdə idilər. Övladları ilə gah Talıstandakı bulağın başında, gah Maçaxıda, gah Quşencədə, gah da Lahıc qəsəbəsidə və İsmayıllı rayonunun digər dilbər guşələrində olur, körpələrini gül-çiçək dəstəsi ilə bəzəyir, Qurbangahlarda ona Qurban kəsirdilər. Bu xəyallarla yaşayan Ünzülə nə qədər də xoşbəxt idi...

Xəyal dünyasının əsiri Ünzülə olduqca gözəl idi. Gözəl olduğu qədər də ağıllı və dərrakəli idi. O öz dövrəsində gözəllik və ağılı məharətlə birləşdirmişdi. Bu mənəvi keyfiyyətlərə malik olan Ünzülə çevrəsinə qeyrət və namusdan elə bir Çin səddi çəkmişdi ki, o səddi heç kəs aşa bilməzdi. Lakin yuxarıda danışdığımız kimi, Yasəf səddi aşmış, qarşılıqlı razılıq nəticəsində onlar ailə qurmuşdular.

Abır, ismət, həya, qeyrət, namus, ar insanın iç dünyasının bəzəyidir. Bu mənəvi keyfiyyətlər unudulanda insan mənəvi baxımdan erroziyaya uğrayır, fəlakətlərə düçar olur, ailə faciəsi ilə üzləşir. Necə ki, Yasəfdə olduğu kimi.

Kirovabadda tələbə olan Yasəf yavaş-yavaş dəyişməyə, dünənki ağrılı, acılı günlərini, eyni zamanda ilk məhəbbətini, həyat yoldaşı Ünzilə ilə keçirdiyi xoş anları unutmağa başlamış, hisslərinin əsirinə, nökərinə çevrilmişdi. Anasını, bacı və qardaşını unudan, Maçaxı gözəli Ünzülənin hənirtisini, gülüşünü qısa bir vaxtda yaddan çıxaran bu zavallı elə bir uçuruma yuvarlanmağa başla-

mışdı ki, tövbə edib ondan uzaqlaşmasa həyatının faciə ilə keçəcəyini və bu dünyadan rəhmət qazanmadan gedəcəyini anlamırdı.

1949-cu il dekabr ayının 9-da bir körpə dünyaya gəldi. Nənəsi Gözəl arvad onun adını İsmayıl qoydu. Sənubər və Qaraxanın sevinci yerə-göyə sığmırdı. Gözəl arvad ilk nəvəsinin gülüşü ilə yaşayırdı. Oğlunun tezliklə gələcəyi və bu xoş anları onunla yaşayacağını arzulayırdı.

Ünzülədəhəmingünühəsrətləgözləyirdi.Onaelə gəlirdi ki, Ağ atlı oğlan gecənin birində göydən yerə enəcək, onu və İsmayılı ata mindirib xoşbəxtlər diyarına aparacaqdır.

Atalar yaxşı deyib: – "Sən saydığını say, gör fələk nə sayır". Yay imtahanını verib rayona gələn Yasəf Ünzülə ilə görüşüb oğlu İsmayılı ağuşuna alıb öpüşlərə qərq etsə də evdəkilər onun bu hərəkətlərinin səmimi olmadığını hiss etdilər. Anası ilə qonşu otağa keçən Yasəf anasına bildirdi ki, Kirovabadda can yoldaşı var, tezliklə Ünzülə və İsmayıl evdən qovulmalıdırlar. O, təzə istədiyi tələbə qızla ailə həyatı quracaq. Əks-təqdirdə o, rayona gəlməyəcək. Gözəl arvadın başına sanki bir qaynar qazan su tökdülər. O, qəm libasına büründü. Onun qəmli çöhrəsi, axan göz yaşları, yanıqlı və qəzəbli səsi evdəkiləri sarsıtdı:

– Ulu Tanrı bunu sənə bağışlamayacaq!!!

Nifrətlə oğluna baxan ana buna imkan verməyəcəyini bildirdi və onu lənətləyərək dedi:

– Ay oğul, bizi el içində biabır eləmə! Bizim ailəmiz heç vaxt pis söz-söhbətə tuş gəlməyib. Bu məsələni el bilsə, böyük bir söz-söhbət yaranacaq. Axı, atalarımız da yaxşı deyib ki, el ağzı çuval ağzıdır. Hər şeyi bir kənara



qoyaq, sənin vicdanın necə yol verir ki, gözəllik və xasiyyətcə tayı-bərabəri olmayan bir həyat yoldaşını atıb, ailəsini, nəslini, kökünü , soyunu tanımadığın bir ailənin qızını onun üstünə gətirirsən. Yox, oğul, ağlını başına topla, Ünzülə kimi bir gözəli kənara ata bilmərik. Sənin bu niyyətin baş tutmayacaq, mən buna yol verməyəcəyəm.

Yay tətili olmasına baxmayaraq bir neçə gün İsmayıllıda qalan Yasəf Kirovabada qayıtdı.

Nə qədər acı, nə qədər ağrılı olsa da İsmayıl o günləri, ağrılı-acılı günləri yenidən yaşamaq istəyirdi. İş otağında ön divarda atası Yasəfin, ürəyinə yaxın sol divarda isə anası Ünzülənin şəkləri asılmışdır. Hər ikisi ona baxır. Sifətlərində bir həzinlik, mehribanlıq, eyni zamanda küskünlük var. Kimdən küskündürlər?

Təbii ki, özlərindən. Yasəf hər şeyi – ilk məhəbbətini, gəncliyini, ailə səadətini hisslərinə qurban verdi. Ünzülə isə onu bağışlamadı, mənliyini qorudu. Nəticədə iki körpəsi atadan yetim qaldılar, ata məhəbbətindən uzaq oldular, həyatlarının ən ağrılı, məşəqqətli günlərini yaşadılar. Nə yaxşı ki, hər şey xoş məramlı günlərlə qurtardı...

## İlk məhəbbətin sonu

Kirovabadda "xoş günlərini" yaşayan Yasəf günlərin birində səhv etdiyini anladı. Lakin artıq gec idi. O, ikinci bir qızın, tələbə yoldaşının sevincini, məhəbbətini qazanmışdı. Geriyə yolu yox idi. Əks-təqdirdə həyatının faciə ilə bitəcəyini bilirdi. Qoç igidlərin yurdu olan İsmayıllıda

dünyaya göz açmış bu qorxaq hər şeyi qurban verdi. Təki Ünzülə onu bağışlasın. Rayona gələrək fikrini ona bildirdi:

– Sən evdən çıxıb gedirsən, mən sənin üçün şərait yaradacağam. Özüm isə təzə həyat yoldaşım ilə gəlib ata evində yaşayacağam.

Ünzülənin başına sanki qaynar qazandan su tökdülər. Ona nifrətlə baxdı. Dünənə qədər qarşısında diz çökən, sonsuz məhəbbətlə onu sevdiyini bildirən Yasəf bu gün nə qədər cılızlaşmışdı. Ünzülə yalnız indi başa düşdü ki, onunla ailə həyatı qurmaqda nə qədər səhv edib. Maçaxıda onu sevən, onun xoşbəxtliyi üçün həyatını qurban verməyə hazır olan nə qədər şir ürəkli gənclər var idi. Hamısı da dağ qeyrətli, saf və ülvi idilər. Hamısına yox dedi. Nəticəsi də bu oldu. Ünzülə indi başa düşdü ki, onun tale qatarı son an kimi, ömür kimi, səadət kimi, dildən çıxan və dodaqdan süzülən söz kimi saxlanılmaz bir ləngərlə uzaqlaşıb getdi. Ünzülənin içinə axan göz yaşları dil açıb danışa bilsəydi, fəryad edərək bütün aldananlara bildirərdi ki, nadana, vəfasıza heç vaxt rast olmayın, onlar ulu Tanrının yer üzünə səpələdiyi şeytanlardır.

O illərdə anasına baxanda İsmayıl elə sanırdı ki, o, bütöv bir qaya parçasından yonulub, ya da içindəki dərd bir anda onu daşa döndərib. Övladlarının körpə ürəyini qırmamaq üçün heç vaxt hönkürtü və sızıltıyla ağlamazdı, çox vaxt göz yaşlarını səssiz-səmirsiz içinə axıdardı. Dünyada isə dərd çəkməyin bundan əzablı yolu ola bilməzdi.

Körpə övladı İsmayılı ağuşuna alan Ünzilə Gözəl arvadın, Sənubər və Qaraxanın yalvarışlarına məhəl qoymadan ər evindən çıxdı, kirayə mənzil tutaraq orada ya-



şamağa başladı. Bundan xəbər tutan Yasəf rayona gələrək onları qohum olduğu Əhməd kişinin evinə apardı. Əhmədin həyətində olan kiçik bir evdə yaşamağa başladılar. Bununla da Yasəf atalıq borcunu bitmiş hesab etdi, vəzifəsinin başa çatmış olduğu qərarına gəldi.

Yaşadıqları məhəllənin xüsusi bir yeri sanki məhəllə arvadlarının məlumat stansiyası, məntəqəsi idi. Məhəllədə nə qədər təzə xəbər olurdusa, hadisə baş verirdisə, hamısı buradan evlərə yayılırdı. Qadınların qeybət yeri olan bu məntəqədən təbii ki, Yasəflə Ünzülənin boşanması barədə xəbərlər də ildırım sürətilə evlərə yayıldı. Boşanmanın səbəbini bilməyənlərin bəziləri Yasəfi, bəziləri isə Ünzüləni qınadılar. Yaxşı deyiblər ki, on arvad bir yerə yığıldı, ora oldu bazar.

Ünzülə körpə övladı ilə evdən çıxarıldıqdan sonra İsmayıllı rayonunda Maşın-Traktor Stansiyasında vəzifədə çalışan və xalası Çimnazın qızı Zöhrənin həyat yoldaşı olan Ehsan Əhmədəli oğlu Məmmədov onun baxçada işlə təmin olunmasına kömək etdi, onlara maddi yardım göstərdi. Yaxşılıq, təmənnasız yardım insan həyatının ən bəzəkli naxışlarındandır. Yaxşılıq da min, bəlkə də milyon ilməli hanaya bənzər. Bu mənəvi sərvət nəsillərdən-nəsillərə ötürülən ən qiymətli və müqəddəs mənəvi nemətdir. Nə yaxşı ki, Ehsan Əhmədəli kimi yaxşılar var və bu gün də dünya bu yaxşılardan xali deyil.

Uşaq baxçasında müəllimə işləyən Ünzülə dan yeri söküləndə yuxudan oyanaraq körpəsi İsmayılı müqəddəs Ana südü ilə doydururdu. Məhz bundan sonra özü də bir tikə şor və şirin çayla səhər yeməyini yeyib İsmayılı quca-

ğına alıb işə gedirdi. Özü də hamilə idi. İstər Əhməd kişinin ailə üzvləri, istər qonşular, istərsə də iş yoldaşları 21 yaşlı bu gənc qadının dözümlülüyünə, səbrli olmasına, min bir zəhmətə qatlaşmasına məətəl qalmışdılar. Öz aralarında danışırdılar ki, Ünzülə bu əzablara dözə bilməyəcək, ya intihar edəcək, ya da ürəyi partlayacaq. Tezliklə bir qız övladı da dünyaya gəldi. Anası onun adını Məhsəti qoydu. Məhz övlad məhəbbəti, onları xoşbəxt böyütmək istəyi Ünzüləni xilas etdi. Həyatının bu ağrılı-acılı günlərini şərəflə yaşadı, min bir əzaba dözməyi bacardı. Onu da deyim ki, analarının onları böyütmək üçün nə qədər əzablı-ağrılı günlər yaşadığının şahidi olan İsmayıl və Məhsəti onun arzularının çin olmasını təmin etdilər. Belə ki, hər ikisi ali təhsil aldılar, ailə həyatı qurdular. İsmayıl elmlər namizədi alimlik dərəcəsini aldı, Məhsəti isə ali təhsilli müəllimə oldu. XX əsrin 50-ci illərində ana və 80-90-cı illərində onun oğlu və qızı Azərbaycanın gələcəyi olan körpələrin tərbiyə almasında, böyüməsində yaxından iştirak etdilər.

## Ünzülə və İsgəndər

1956-cı ildə Ünzülə İsmayıllı rayonunda Mədəniyyət evində işləyirdi. Bakı şəhərində anadan olmuş, Böyük Vətən Müharıbəsində və partizan hərəkatında iştirak etmiş İsgəndər Mədəniyyət evində rəssam işləyirdi. İstedadlı rəssam olan İsgəndər eyni zamanda Mədəniyyət evində səhnələşdirilən tamaşalarda rolla da təmin olu-



nurdu. Elə həmin il İsgəndər Ünzülə ilə ailə həyatı qurmaq istədiyini bildirdi. Altı il iki körpəsini çətinliklə böyüdən, valideynlərini, bacı və qardaşını itirən Ünzülə bu müraciətə tez cavab vermədi. Çünki o, həyatın ağır sınağından çıxmışdı, həyatını ona qurban verməyə hazır olduğunu bildirən Yasəfin xəyanətini görmüşdü. İsmayıllı torpağanın müqəddəs suyunu içən dağlar oğlunun naqisliyini görmüşdü. Təzə tanış olduğu bakılı gəncin onun övladlarına münasıbəti necə olacaq? Görəsən İsgəndər İsmayılı və Məhsətini bir doğma ata kimi sevəcəkmi? Bu suallar Ünzüləni dərindən düşündürməyə bilməzdi. Sonralar onunla birlikdə yaşadıqları illər Ünzülənin nə qədər haqlı olduğunu göstərdi.

Elə həmin il ailə qurdular. İsmayıllı rayonunun aşağı məhəlləsində Ünzülənin kirayə tutduğu həyət evində yaşayırdılar. İsmayıl da 1957-ci ildə rayondakı 2 saylı orta məktəbin birinci sinfinə getdi. Ünzülə oğlu İsmayılın əlaçı şagird olması ilə fəxr edirdi.

Oğlunun dərslərinə müntəzəm hazırlaşdığını görən ana deyirdi:

– Ağıllı balam, ürəyim, beynim mənə diqtə edir ki, sən gələcəkdə istedad sahibi olacaqsan. Qurban olum, yaxşı oxu!

İsmayıl sonralar düşünürdü ki, bu sözləri deyən anasının onun haqqında bir çox və bəlkə də tükənməz arzuları olub. Nə yaxşı ki, onun bu arzuları gözündə, ürəyində qalmadı. Uşaq olsa da İsmayıl bunu da dərk edirdi ki, anası bu sözləri ona elə-belə, havayı yerə demir, indidən qulağını doldurur, ona dərs keçir. Öyüd-nəsihət verir ki,

yekə kişi olanda dünyanın gəliş-gedişindən baş çıxara bilsin, bivec olmasın. Yasəfin, İsgəndərin yolu ilə getməsin. Qoy onu barmaqla göstərsinlər və desinlər ki, bax, atasız böyüyən və ana himayəsində təhsil və tərbiyə alan bu övlad Maçaxılı Abdulun və Tircanlı Nazilənin qızları Ünzülənin yurdundandır.

İlk vaxtlar çox yaxşı yaşayırdılar. İsgəndər kolxoz və sovxozlarla əmək müqaviləsi bağlayaraq onlar üçün rəssamlıq işləri görürdü. Qazandığı pulları səliqə ilə döşəyin altına düzürdülər. Gələcəkdə onları xoş günlərin gözlədiyinə böyük ümidləri var idi. Ünzülə ilk vaxtlar özünü çox xoşbəxt hiss edirdi, ağrılı və çətin günlərin arxada, keçmişdə qaldığını düşünürdü. Əslində isə o, özü də bilmədən məşəqqətli, çovğunlu, min bir fəlakətli, ağrılı günlərin burulğanına düşmüşdü. O, bu burulğandan da qurtula bilmədi, özünü və İsgəndəri xilas edə bilmədi.

Hər ikisi çox ağır, məşəqqətli bir ömür yaşadılar, bir-birlərindən əbədi ayrıla, bir-birlərini unuda bilmədilər. Lazım olan məqamda bir-birlərini bağışlaya bilmədilər. Həyatlarının son günlərini ağır, sağalmaz xəstəliklə yaşadılar. Uzun müddət yataq xəstəsi oldular və bu vəziyyətdə dünyalarını dəyişdilər.

Böyük Vətən Müharibəsində döyüşlərin birində əsir düşmüş İsgəndər faşist düşərgəsindən qaçaraq İtaliyada partizan hərəkatında iştirak etmişdi. Müharibə qurtardıqdan sonra Vətənə qayıdan keçmiş hərbi əsirlər təhlükəsizlik orqanlarında çox ağır yoxlamalardan keçmişdilər. Bir ilə yaxın davam etmiş bu yoxlamalar gənc İsgəndərin əsəblərini tamam pozmuşdu. Yeganə xilasını



içkidə tapan İsgəndər onun əsirinə çevrilmişdi. Bu isə son nəticədə onu və ikinci dəfə ailə qurduğu Ünzüləni məhv etdi, yaşadıqları illərdə dünyaya gətirdikləri dörd körpəyə də böyük məşəqqətlər gətirdi.

Ailə qurduqları bir neçə aydan sonra İsgəndərin xarakterindəki mənfi hallar üzə çıxdı. Tez-tez evə sərxoş gəlir, iki uşağı və həyat yoldaşını təhqir edirdi. Yazıq Ünzülə xəlvəti bir guşəyə çəkilir, Ulu Tanrıdan bu əzablı günlərinə son qoymasını acizanə yalvarışlarla xahiş edirdi. Lakin heç nə dəyişmirdi.

Ünzülə yenə də təskinliyini göz yaşlarında tapırdı. Göz yaşları dərdli, kədərli insanların əzablarının təskinlik yeridir. Tale və ailə uğursuzluğundan, yaşayışdan bezmiş, özünə ölüm hökmü oxumuşların da yaxın sirdaşıdır bu göz yaşları. Ünzülə kimi insanları bəlkə də yaşadan, ölüm pəncəsindən də alan da onun göz yaşları olub. Bu göz yaşları ona diqtə edib ki, gözəl-göyçək övladların var, gücünü topla, özünü ələ al, onların qayğısına qal, böyüt. Digər tərəfdən isə onun ömür yollarında qəm, kədər simvoluna çevrilib bu göz yaşları. Göz yaşları Ünzülənin kədərli, qəmli emosiyalarının rəmzi olub. Bu, övlad canlı, cəfakeş ananın büllur rəngli göz yaşları axdıqca o, özündə güc, qüvvə tapdı və düşündü ki, həyat adlı bir baxça təkcə güldən, çiçəkdən ibarət deyil, bu baxçanın güllərinin iri tikanları da var. Onu da düşündü ki, mənasından, səbəbindən asılı olmayaraq göz yaşları axıtmayanlar həyatda manqurtlardır, onlar yaşayışın, həyatın, övladların qədrini bilməzlər, mənasız həyat tərzi keçirərlər. Bəli, Ünzülə göz yaşları içində çapalaya-çapalaya ağlının, kamalının gücündən istifadə edərək daxi-

li hisslərini ələ aldı, özündə hərtərəfli inam, ümid oyatdı. İsmayılla dərdləşən Ünzülə bir gün onu qucaqlayaraq dedi:

– Ay oğul, əsəb, gərginlik insan sağlamlığının düşmənidir, qənimidir. İşdə boş vaxtlarımda ailə həyatımın uğursuzluqları barədə tez-tez düşünürəm. Bir gün daxili əsəbim məni üstələdi. Gözlərim qaraldı. Bircə anın içində dünya başıma fırlandı. Ürəyim üzülmüş bir halda yerə sərildim. Huşumu itirdim. Özümə gələndə bildim ki, üzümə, sinəmə su çiləyib, alnıma yaş dəsmal qoyublar. Rəngim dümağ ağarmışdı. Dodaqlarım soyuq vurmuş payız alması kimi bürüşmüşdü. Nitqim qurumuşdu, ağır-ağır nəfəs alırdım. Hiss edirdim ki, iş yoldaşlarımın çoxu mənim ailə taleyimə acıyır. Heç kimə evimizin sirrini açıb söyləməyən və sinəsi dərdli, niskinli sözlərlə dolu olan bu anaya bu bəlaları da İsgəndər bəxş etmişdir.

1957-ci ilin payızında İsmayıllı rayonunun Talıstan kəndində mədəniyyət evinin tikintisi başlandı. Bu işə kolxozla əmək müqaviləsi imzalayan İsgəndər rəhbərlik edirdi. O, eyni zamanda mədəniyyət evinin tikintisi zamanı rəngsazlıq işlərini də görürüdü. Kəndin girəcəyində, mərkəzi yolun sağında, armud bağına gedən yolda bir ev kirayə etmişdilər. Birinci sinifdə oxuyan İsmayıl hər gün səhər tezdən fermanın yanından keçərək çay qırağı daşlıq yolla rayonun mərkəzində olan məktəbə gedirdi. Dərsləri səhər saat 8-də başlayırdı. Anası səhər tezdən onun yeməyini verir, arxasınca su atır, min bir qorxu və həyəcanla oğlunu yola salırdı. İsmayıl isə dərsə gecikməmək üçün evdən bir saat tez çıxırdı.



## Talıstan kəndində İsmayılın əyləncə yerləri

Talıstan kəndi də İsmayıllının cənnət, dilbər guşələrindən biridir. Bu yaşayış məntəqəsi Şirəxanı dağının ətəyində, Qasanı və Dik dağın əhatə etdiyi ərazidə yerləşir. 60 yaşlarında olan İsmayıl bu gün də vaxtaşırı İsmayıllı rayonuna gedəndə yolun sağ tərəfində, meşənin ortasında, tala hissəsində yerləşən bu kəndə tamaşa etməkdən doymur, uşaqlıq illərinin xatirə selinə düşür.

Uşaq vaxtı Talıstan sözünün mənasını anlamayan İsmayıl bir qədər yaşa dolandan sonra öyrəndi ki, bu kənd meşənin tala hissəsində yerləşdiyinə, salındığına görə belə adlandırılmışdır. "Tala" meşədə açıq sahə, "stan" isə yer, məkan deməkdir. Talada olan yaşayış məskəni mənasını bildirir.

İsmayıl həmyaşıdları ilə hər bazar günü Talıstanda kirayədə yaşadıqları evin yaxınlığında yerləşən armud bağına gedərdi. Bura onların əyləncə yeri idi. Onlar pəl-pəl, futbol oynayır, quşların cəh-cəh vuran səslərinə qulaq asır, musiqili və xoşovqatlı səslərini dinləyirdilər. Sanki nağıllar aləmində olurdular. Aralarında quşların səslərini ifa edə bilən Qafar sanki onlarla söhbət edirdi. Hələ Rafiqi demirəm. Fitlə ifa etdiyi musiqi avazlarına nəinki yoldaşları, hətta quşlar da səslərini kəsərək diqqətlə qulaq asardılar. İsmayıl isə Rafiqin bu bacarığına qibtə edirdi. Ömrünün axırına kimi o, fitlə heç bir mahnı və ya nəğmə ifa edə bilmədi.

Bu bağda onların diqqətini ən çox ağacdələnlər cəlb

edirdi. Onların ağacda oyuq açmaq üçün gördükləri işin tıqqıltılı səsi Lahıc qəsəbəsində misgərin misi döyərkən çəkicin zərbəsindən alınan səsi xatırladırdı.

Ən çox maraqlarında olan işlərdən biri də armud ağacında yuva salmış ağacdələni tutmaq istəyi idi. Lakin daha ehtiyatli olan quşlar onların arzularının həyata keçməsinə heç vaxt imkan vermirdilər.

Əslində, uşaqların bu bağa gəlməkdə bir məqsədi də orada olan armuddan doyunca yemək idi. Armudun da əsil yeməli vaxtı payız fəslində olurdu. Bazar günləri havanın necə olmasından asılı olmayaraq onlar bağa gedirdilər. Çox təəssüflər olsun ki, o zaman armud bağlarında olan ləzzətli armud növlərinin coxu qorunub saxlanılmadı. Noyabr ayı idi. Həmişə olduğu kimi bir bazar günü də günortadan sonra yağış yağmağa başladı. Uşaqlar armud ağacının altında duraraq soyuqdan tir-tir əsir, yağışın kəsməsini gözləyirdilər. Bundan sonra evə gedəcəkdilər. Bu zaman eşitdikləri insan hayqırığından dik atıldılar.

Yuxarıda, meşəyə gedən yolun dağ hissəsindən insanları köməyə çağıran qışqırıq səsləri eşitdilər:

– Aman, ölürəm, tez gəlin, tez gəlin!

Əllərində olan armud bağlamalarını yerə atıb həmin istiqamətdə qaçmağa başladılar. Yer palçıqlı olduğu üçün tez-tez sürüşərək yıxılır, lakin ayağa durub irəli gedirdilər. Meşə yolunun yamacında bir traktor aşmışdı, gənc sürücü isə traktordan çıxa bilmirdi. Traktorun arxasında ölmüş bir mal cəsədi var idi.

Bu zaman aşağıdan köməyə gələn kənd camaatının səsi eşidildi:



– Bala, qorxmayın, biz çatırıq...

Uşaqlar gözlərinə inanmadılar. Gənc traktorçunun fəryadlı səsini eşidən hər bir kənd əhli onların arasında idi. İsmayılın anası Ünzülə də ayaqyalın, dizə qədər palçığa batmış vəziyyətdə, yıxıla-dura hadisə yerinə çatmaqda idi. O, İsmayılı qucaqlayıb ağlamağa başladı, kəkələyə kəkələyə dedi:

– İsmayıl! Biz qonşular elə bildik ki, sizə nəsə olub, canavar sürüsünün hücumuna məruz qalmısınız, çox qorxmuşuq. Allaha min şükür olcun ki, siz uşaqlara bir xətər dəyməyib.

Cavanlar köməkləşib sürüçünü traktorun altından çıxartdılar. Ayağı sınmışdı. Məlum oldu ki, surücü ölmüş dananı meşəyə aparırmış ki, vəhşi heyvanlara yem olsun. Əks təqdirdə malın cəsədi kənd arasında qalıb xəstəlik yarada bilərdi.

O zamanlar belə insanlar var idi. Evində olan bir tikə ilə kifayətlənər, evinə haram çörək aparmaz, naqis hərəkətlərdən uzaq olardılar. Bu gün isə tamaşaçılar hərdən televizorda gördüklərinə, eşitdiklərinə inanmaq istəmirlər. Ölmüş inək, dana, at və hətta eşşək ətlərini maşına yükləyərək qazanc məqsədilə Bakı şəhərinə gətirirlər. Nə yaxşı ki, hüquq-mühafizə orqanlarının əməkdaşları bu hərəkətlərin coxunun qarşısını vaxtında ala bilirlər. Talıstan kəndindən rayona gedən əsas yola çıxmaq üçün çəkilmiş asfalt yolun sol tərəfində taxıl zəmiləri var idi. Kəndin uşaqları yaz fəslində həmin sahəyə gedər, həvəslə turşəng yeyər, zənbillərini bu yeməli bitki ilə doldurub evlərinə aparardılar.

Çox qəribədir ki, keçən əsrin 50-ci illərində həmin sahədə olan turşənglərin tamını İsmayıl heç bir yerdə dadmamış, o zoğda olan ləzzəti heç bir yerdə görməmişdi. İsmayıl bu gün də Bakıdan İsmayıllı rayonu na gedərkən hər dəfə Talıstan kəndinə çatanda kənd yolunun sağında olan əkin sahəsinə baxır, burada keçirdiyi uşaqlıq illərini xatırlayır, bir anlıq maşından düşüb həmin əkin sahəsinə girib turşəng yemək istəyir.

Talıstan haqqında nə qədər xoş sözlər deyilsə də, böyük şair Səməd Vurğunun "Talıstan" poemasında bu oymaq haqqındakı poetik söyləmələrindən bir qarış da irəli gedə bilmərik.

## Ünzülənin ağır günləri

1957-ci ilin oktyabr ayı idi. Isgəndərin qardaşı Əsgər ailəsi ilə onlara qonaq gəlmişdi. Qohumlar şən günlərini yaşayırdılar. Lakin belə şən günləri çox davam etmədi. Bir neçə gündən sonra evlərində pul qurtardı. Hətta çörək də almağa belə pulları qalmamışdı. İsgəndər kolxoz idarəsinə gedərək əmək haqqının bir hissəsini vermələrini xahiş etdi. Müsbət cavab almayan İsgəndər onlarla dalaşdı, həbs olundu və rayon məhkəməsi tərəfindən iki il həbs cəzasına məhkum edildi.

Ünzülənin əsil ağır günləri bundan sonra başlandı. Ailə rayona qayıdaraq Mican kəndində çayın qırağında bir evdə kirayədə yaşamağa başladı.

Belə ağır günlər Ünzülənin həyatında birinci dəfə deyildi ki?! O, analıq qüruruna və emosiyasına prinsipiallıq verəndə özünü danlayır, özünə ölüm arzulayır və tale yazan Tanrıdan qətiyyən gileylənmirdi.



Az-çox təhsil görmüş bu ananın özünəməxsus düşüncələri var idi. Taleyindən gileylənərdi, lakin Ulu Tanrıya inamını itirməzdi və deyərdi:

– Gərək bir çox düşüncələri, həyata, yaşayışa müəyyən dünya görüşlə, analizlə baxmağı Allah-taala mənə verməyəydi. Nə çox kütbeyinlər, hissiyyatsızlar var. Onlardan biri də mən olaydım.

Göz yaşını silən Ünzülə barmaqlarını üzündə gəzdirərdi. Həyat yoldaşının dönüklüyü onu tez-tez çarəsizləşdirirdi. Dərdini danışmağa, ürəyini boşaltmağa yeri də yox idi. Vəziyyətləri çox ağır idi. 1957-ci ilin noyabr ayında bir körpə də dünyaya göz açdı. Adını ata babasının şərəfinə Hənifə qoydular. Ünzülə südəmər uşaq olan övladı Hənifəni evdə qoyub işləyə bilməzdi. Bəs nə etməli? Ana üç körpə övladı ilə – İsmayıl, Məhsəti və Hənifə ilə birlikdə – köməksiz qalmışdı. Qərara gəldilər ki, anaları qonşudan süd alıb qatıq çalacaq, İsmayıl da dərsdən sonrakı vaxtlarında onları bir vedrədə aparıb rayonun mərkəzindəki yeməkxananın – pavilyonun qabağında stəkanın birini on qəpiyə satacaq. Vedrənin ağır olmasına baxmayaraq İsmayıl onu həvəslə aparıb satırdı. Qatıqları satdıqdan sonra fəxrlə evə gəlir və qazandığı pulları anasına verirdi. Bəzən də anasından icazə alaraq bacısı üçün hədiyyə, onun sevdiyi kuklanı alıb gətirirdi.

Körpə Hənifənin gülüşləri Ünzülənin əzablı günlərinə sevinc gətirmişdi. Bir anlıq hər şeyi, hətta özlərini

də unudur, onunla oynayır, körpənin ehtiyacını ödəmək üçün hər bir ağır işlə məşğul olmağa hazır idilər.

İsmayıl bir gün yeməkxananın qabağında qatıq satarkən üzləşdiyi ağır dəqiqələri anasına danışdı:

– Ana! Qatıq satırdım. Uzaqdan qara xron çəkmə geymiş və başında qara papağı olan yaraşıqlı bir kişi mənim yanımdan keçərək yeməkxanaya daxil oldu. Yanımdan keçərkən mənə göz ucu baxdı. İçəri keçib küçəyə baxan pəncərənin qarşısında əyləşdi. Yemək sifariş etdı. Stolun üzərində araq şüşəsi də var idi. Ona xidmət edən və yemək paylayan işçi bayıra çıxaraq məndən bir stəkan qatıq aldı. Bu zaman məndən soruşdu ki, bilirsən, kimin üçün alıram? Təbii ki, mən bilmədiyimi dedim. Pəncərənin qabağında əyləşən müştərisini göstərdi və dedi ki, onun üçün alıram, sənin atan Yasəfdir.

Ana, sanki məni göyün yeddi bir qatına qaldıraraq oradan yerə çırpdılar. Bir anlıq hər şeyə nifrət etdim. Bu həyatdan köçmək qorxusu ilə yaşadığım uşaq xülyası məni tərk etdi. Tezliklə ölməyi, içkili, nəşəli həyatını övladlarından üstün tutan, xəcalət çəkmədən yeyib-içən, hərdən mənı gülə-gülə, təbii ki, qəmli güllüşlərlə seyr edən, dünənki doğma, bu gün isə yad bir insanın gözlərindən əbədi uzaq olmaq istədim.

İsmayılı dinləyən anası ağlamağa başladı. İsmayıl bu hadısəni ona danışdığı üçün peşman oldu, o da anasına qoşulub doyunca ağladı. Ana və oğul düşdükləri acınacaqlı zamanın məngənəsində sanki boğulurdular. Əslində, bu, zamanın məngənəsində çırpınan bir azəri anasının və onun övladının tale yazısı idi. Ananın aldanışları, sevgiləri, övlad istəyi, atanın yaramazlıqları bu ailədə məhəbbət və müsibət məngənələrini formalaşdırmışdı. Ana əzab, əziyyət, müsibət içərisində övladlarını böyüdür, körpə uşaq qatıq satır, ata isə tükürpədici bu mənzərəni beyinləri və ürəkləri iflic edən şərabı qəbul edə-edə seyr edirdi.



Bu yazılar ola bilsin ki, bir qədər tarixi xronika təsiri bağışlaya bilər, hiss və həyəcanların təsviri də ola bilər. Ancaq fakt faktlığında qalır və bu İsmayılın müsibətlərlə dolu olan uşaqlıq və yeniyetməlik həyatının bir anı idi və yaddaşından silinməyən bir anı. Zamanın məngənəsində nə qədər sıxılsa da, əzilsə də böyük hərflərlə yazılacaq Ana ünvanını müqəddəs sanmış, onun əzab və əziyyətləri İsmayılın ömrümün ayrılmaz bir tərkib hissəsinə çevrilmişdi.

İsmayıl həmişə belə hesab edib ki, Yasəf və İsgəndər kimi insanların mənəvi dünyası yoxdur, yaxud varsa da uçub dağılmışdır. Belələri mənəvi cəhətdən canlı ölülərdir. Belələrini heç nə xilas edə bilməz. Belələrində müsibət törədəcək bəlanın bütün cücərtiləri daima görünməkdədir və bu, sağalmaz xəstəlik viruslarına bənzəyir. Bu viruslar belələrinin daxili, mənəvi dünyasına həmişə hakim kəsilir və heç vaxt onları tərk etmir. Belələri insan xarakterini bərkidə, onu dözümlülüyə sövq etdirə bilir.

İsmayıl tez-tez anasının dizinin dibində çöküb onun çəkdiyi dərdlərə məlhəm olmağa çalışırdı. Demək olar ki, məktəbdən evə döndüyü vaxtlarda tez-tez anasından soruşurdu:

– Əziz anam! Çox qüssəli, gərgin, kədərli görünürsən, axı bu çox davam edə bilməz, axı sən bizə çox lazım ola-

caqsan, unut getsin bu ağır günləri...

Anası isə onun telinə sığal çəkib kədərli bir təbəssümlə deyərdi:

– Əziz oğlum, özümdən asılı olmayaraq daxilən çox əsəbiləşirəm. Sizin atanız ola-ola atasızlığınız məni üzür. Bu ən ağır, dözülməz bir bəladır. İstər doğma, istərsə də ögey atanızın hərəkətləri ürəyimə iynə kimi sancılır. Eh, oğlum, qurbanı olduğum Allah-taala elə bil ki, məni dərd çəkmək üçün yaradıb, mənim çəkdiklərimi heç kəs çəkə bilməz.

– Elə demə, ana! Dünyada azmıdır dərd çəkənlər? Dünyada dərdsiz insan varmı? Məktəbdə müəllimlərimiz ata sevgisindən, ata müqəddəsliyindən, ata ucalığından danışanda mən başımı aşağı dikirəm.

Anası deyərdi:

– Eşit, oğlum, müəlliminin sənə öyrətdiyi ata anlayışı yasəflər, isgəndərlər deyillər, onlar ideal səviyyəli ata obrazlarıdır. Yasəflər, isgəndərlər isə mənəvi xəstədirlər. Belələrinin damarlarından xəstə qanlar axır və axan bu qanlar mənim ürəyimi göynədir, qəlbimi sızladır, ruhumu yandırır, ömrümü şam kimi əridir.

– Ana, sən danışdıqca yanıb yaxılırsan, özünü bu qədər üzmə!

– Yox, İsmayıl, yox, bala, danışanda az da olsa, yüngülləşirəm. Danışmasam, daha çətin olur.

Ana yana-yana danışmağını davam etdirirdi:

– İsmayıl, bu mənim tale yazımdır. Onsuz da mənim siz övladlara qarşı sevgim tükənməzdir və mən inanıram ki, tükənməz olduğu üçün də barlı-bəhərli olacaq, gələcəkdə hər birinizə sevinc, xoşbəxtlik gətirəcək. Mənim



bu yaşayışım nə qədər kədərlilik, qəmginlik, uğursuzluq üzərində qurulsa da və bunlar içimdə ömrüm boyu nə qədər qaynasa da təki siz sağlam olun, yaşayın, yaradın, Allah verən ömür illərini oğul-qız övladlarınızla, nəvələrinizlə, nəticələrinizlə sevinin. Bəli, mənim taleyim belə yazılıbmış. Mən inanıram ki, Tanrı ən insaflı, xoş baxışlarını sizə – övladlarıma tərəf çevirəcək, ya qismət... – deyə Ünzülə əlini İsmayılın saçlarında gəzdirdi, özünün və oğlunun göz çuxurlarında giləlenmiş göz yaşlarını kiçik dəsmalı ilə sildi, qayğı ilə qurutdu.

Ünzülənin belə anlarda sanki nəfəsi çatışmırdı. O, gah ağlayırdı, gah titrəyirdi, gah da hönkürürdü. Ağlayırdı, titrəyirdi, hönkürürdü ki, başına gələn dözülməz bəlalar, ailə uğursuzluğu bir daha püskürməsin, onu həyatın şaxtasında, soyuğunda, qasırğasında bir daha fırlatmasın. Ağlayırdı, titrəyirdi, hönkürürdü ona görə ki, bu ağrıacıları elə ürəyindəcə dəfn eləsin.

Şübhəsiz ki, anasının keçirdiyi bu hissləri İsmayıl o vaxt dərindən duya bilməsə də, bu gün Maçaxı qəbristanlığında anasının məzarının yanında əyləşib ürək hisslərini, beyin ifadələrini, bu ifadələrdən süzülən göz yaşlarını leysan yağışı kimi azğınlaşmış, öz ölçüsü, etalonu ilə heç kimə, heç nəyə tabe olmayan daxili qasırğasını Anasının ruhu ilə vaxtaşırı bölüşür. Gözləri qarşısında anasının çəkdiyi dərdləri içi tikələnə-tikələnə, onu mənən yaşatmaq üçün ağlayır. Dərdləşir ki, heç olmasa anasının ruhu şad olsun, onun ruhu daima təmiz dağ havası ilə dolu olsun! İnanır ki, bu müqəddəs ruh həmişə onunladır.

İsmayıl hətta iş otağında olarkən də fikirləşir ki, anası-

nın ruhu buradadır, onun yanındadır. Otaqda kitab rəfinin üstündə yaşa dolmuş bir müqəddəs varlıq, Anası ona baxır. İsmayıl hər gün anasına hesabat verir, onunla dərdləşir, onun bu qədər mübariz olmasına heyran qaldığını bildirir. O, isə mənalı baxışları ilə İsmayılı süzür və dinləyir...

## Rauf həkimin dediklərindən...

79 yaşlı Rauf həkim 2017-ci il iyul ayının 30-da Maçaxı kəndindəki evlərində İsmayılla etdiyi söhbət zamanı onun çətin uşaqlıq günləri haqqında danışarkən aşağıdakı faktı xatırladı:

– Keçən əsrin 50-ci illərinin sonu idi. Əmim oğlu Səlim müəllimlə rayonun mərkəzindəki yeməkxanaya çatarkən bayırda, giriş qapısının qarşısında bir oğlan uşağının yerdə oturub qatıq satdığını gördüm. Qatıq vedrəsinin yanında bir tum torbası da vardı. İçəri keçib yemək sifariş etdik. Bu zaman bayırda cavan bir kişi oturduğumuz yeməkxanaya yaxınlaşdı. Ayağında xrom çəkmə, əlində qara qamçı var idi. Sərt hərəkətlə qatıq satan uşağın yanından keçib yeməkxanaya daxil oldu. Pəncərənin qabağındakı stolda oturaraq yemək və araq sifariş etdi. Çox böyük həvəslə və iştahla nahar etməyə başladı.

Səlim əmim mənə dedi:

– Rauf, oğul! Bu soyuq havada bayırda oturub qatıq və tum satan o uşaq isti salonda iştahla nahar edən bu gəncin övladıdır. Görürsən? Necə iştahla nahar edir, yeyir-içir. Çox gözəl bilir ki, o bayırda soyuqda əsə-əsə qatıq və tum satan uşaq onun övladıdır.



Yaşının bu vaxtında Rauf həkimin bu xatırlamasından sonra İsmayılın vücudu titrədi. İndi birdən-birə Rauf həkimin "İştahla çörək yeyən, araq içənin oğludur" – deməsi onun uşaqlıq həyatında gözə görünməyən və təsəvvürə gəlməyən nə qədər açılmamış vərəqlər olduğuna bir işarə idi.

## İsmayıllı bazarında keçən günləri xatırlarkən...

Keçən əsrin 50-ci illərinin sonlarında kolxoz bazarı rayonun mərkəzində, indiki 2 saylı məktəbin yaxınlığında yerləşirdi. İsmayıl bu gün də həmin bazarda keçirdiyi günləri xatırlayır. Anası kəndlilərdən alma, armud, üzüm, pomidor, badımcan və digər kənd təsərrüfatı məhsullarını alır və oğlu İsmayılla birlikdə onları satır, axşam üstü sevinə-sevinə uşaq baxçasına gedərək Məhsəti və Hənifəni götürüb evə gəlirdilər. İsmayıl mal satarkən keçirdiyi qəribə hissləri indi də yaşayır, o günlərin sevinci İsmayıllı rayon bazarında olarkən onu daim izləyir. Piştaxta arxasında gah anasını, gah da özünü görür, satıcı qadınlara xüsusi diqqət və ehtiram göstərir. Bəzən bazarda anasını görmək arzusu ilə gözlərini yumub açır, həsrətlə piştaxtalara baxır...

Bəzən isə İsmayıl bazarın sağ tərəfində və ətəyi yaşıl, başı göylərə ucalan, bir-birini qucmuş halda mürgü vu-

ran və bu dünyanın gəl-gedişinə, qəribə-qəribə işlərinə mat-mat tamaşa edən qoca çinarların altında yerləşən çayxanada çay içə-içə xəyallara dalır: - "Elə o dəhşətli günlərimizdə də, bu gün xoşbəxt və firavan yaşadığım anlarda da qüdrətli və əzəmətli çinarlar yenə də həmin gözləri ilə mənə baxır. Mənim bazarda keçirdiyim o ağır günləri bəlkə də ən çox çinarlar yaddaşına həkk edib. Bu çinarlar böyüdükləri gündən mərdi də, qorxağı da, kasıbı da, yoxsulu da, ərbabı, şahı, gədanı da himayəsi altına alıb, onları yayın istisindən qoruyub. Di gəl ki, Yasəf və İsgəndər kimilərində çinar qədər xeyirxahlıq, vüqar, əzəmət olmayıb. Dilsiz-ağızsız bir ağacın insanlara bəxş etdiyi xeyirxahlığa baxın, öz doğma övladlarını çarəsiz bir ananın ümidinə buraxan yasəflərə, isgəndərlərə baxın!... Bundan dəhşətli insan əməli ola bilərmi? Əlbəttə ki, olmaz!...

Altmış yaşlarında olan İsmayıl bu gün də İsmayıllı rayonunda olarkən bu çinarları sonsuz məhəbbət hissləri ilə seyr edir, onların ucalığı qarşısında baş əyir. Bu gün onlar da qocalıb, belləri əyilib, amma yerin daha dərin qatlarına kök atdıqları üçün yaşayırlar! Ömürləri uzun olsun! Nə yaxşı ki, bu ağacları əkiblər, onlara qulluq edərək yaşadıblar. Eşq olsun dünyadan köçmüş o insanlara, ruhları şad olsun!

İsgəndər azadlıqdadır

Günləri, həftələri, ayları beləcə davam etməkdə idi. Bütün varlıq Yerin öz oxu ətrafında və Günəşin ətrafında dövr etməsinin təsiri altında yaşamaqda, dünyasını dəyişməkdə və yenidən yaşam haqqı qazanmaqda idi. İsgəndərsiz iki illəri beləcə başa çatdı. İki ildən sonra yaşadıqları mənzilin qapısının həyəcanla döyülməsi onları yuxudan ayıltdı. Ünzülə "gələn atanızdır" – deyə uşaqları durğuzdu. Dar otaqda qapıya qaçaraq onu açdı. O idi, İsgəndər idi. Hamı onu qucaqlayaraq ağlamağa başladı. Sevinc göz yaşlarının nə qədər gözəl olduğunu İsmayıl ilk dəfə onda anladı. Səhər tezdən ev sahibi, qonşular Ünzüləyə göz-aydınlığı verməyə gəldilər. Çay süfrəsi arxasında onlar İsgəndərə onsuz keçən iki il ərzində gənc həyat yoldaşının üç körpəsinin yaşaması, onların ehtiyaclarını ödəmək üçün min bir əziyyətə necə qatlaşması haqqında ətraflı məlumat verdilər. Eyni zamanda üçüncü sinif şagirdi olan İsmayılın da anasına necə dayaq olması haqqında da danışdılar. Bu söhbətlərə qulaq asan, göz yaşlarını saxlaya bilməyən, hönkürə-hönkürə ağlayan İsgəndər bildirdi ki, artıq o da dəyişib, ailəsinin keçirdiyi ağır günlərdən xəbərdardır. Bundan sonra bütün diqqəti ailəsində olacaq, onların xoşbəx yaşayışını təmin edəcək. Hamı sevindi...

Lakin heç bir ay keçməmiş İsgəndər yenidən içməyə, evə sərxoş vəziyyətdə gələrək Ünzüləni döyüb təhqir etməyə, yetimlərini evdən qovmasını tələb etməyə başladı. Bu təhqirlərə ən çox məruz qalanlardan biri də İsmayıl idi. İsgəndər sözün əsl mənasında xroniki alkoqol xəstəliyinə tutulmuşdu. Bu xəstəlik elədir ki, insanın intelekt və emosiya sferasını zəbt edir. İş qabiliyyətini əlindən alır, ictimai fəaliyyətini tamamilə zəiflədir, özünətənqidin yox olmasına, öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmağa gətirib çıxarır. Bu ailə başçısının içkili vəziyyətlərindən aşkar şəkildə görünürdü ki, o, insani keyfiyyətlərini itirməkdədir. Tez-tez əsəbiləşən İsgəndər

çox vaxt danışığını bilmir, Ünzüləni, daha çox da İsmayılı təhqir edirdi. Bəzən də eyforik halda özünü öyür, xidmətlərini şişirdilmiş halda təsvir etməyə çalışırdı. Onun xroniki alkoqola tutulması ailənin vəziyyətini günbəgün ağırlaşdırırdı.

Nə qədər ağır duruma düşsələr də analarının bənövşə, qızılgül ətirli öpüşləri uşaqlarına bir məlhəm idi. İsgəndər sərxoş olduğu məqamlarda uşaqlar analarının qucağına sığınar, onun yanıqlı ürəyinin, qəlbinin sızıltılarını, çırpıntılarını açıq-aydın eşidərdilər. Bu iztirablı ürək səsi də sanki onlara dəhşətli layla oxuyardı. Ürəyi sökən, beyni darmadağın edən bir layla.

İsgəndərin sərxoş vəziyyətdəki qəddar baxışlarına tab gətirmək asan iş deyildi. Onun bəbəklərindən həm Ünzülənin, həm də İsmayılın, Məhsətinin, Hənifənin ürəklərinə, qəlblərinə zəhərli qan axırdı. Ünzülə bu tale yazısının girdabında elə hey çapalayırdı və öz-özünə gileylənirdi:

– Kaş taleyin bu yazısına aldanmayaydım, bu oyuna düçar olmayaydım. Aldanışım məni puç etdi. Bəli, Ünzülə bu adi həyatdan, bu adi, fani dünyadan uçub getmək, İsgəndərin qəddar hərəkətlərindən xilas olmaq istəyirdi. Ancaq övladlarının gələcək taleyini gözləri qarçısına gətirəndə bu fikrindən daşınardı, yan keçərdi.

İsgəndər sərxoş olmayan anlarda çox səmimi idi. Yaxşı səsi var idi. Muğamatı çox sevirdi. Bazar günləri saat 14-də radioda "Muğam saatı" adlı konsert başlayar və saat 15-ə qədər davam edərdi. Bu konsert o dövrdə bütün Azərbaycanda hamının, xüsusilə orta və yaşlı nəslin



ən çox sevdiyi və dinlədiyi bir veriliş idi. Bazar günləri yaşlılar saat ikiyə kimi bütün işlərini qurtarıb çay süfrəsi ətrafında əyləşər, Muğamatı dinləyər, sonra isə bir neçə saat yatardılar. Bununla da bütün fiziki və əqli yorğunluqları canlarından çıxar, ruhları təzələnər, bir gün sonra isə yeni enerji və qüvvə ilə işə başlayardılar.

O illərdə "Belomor" markalı siqaret çoxlarının çəkmək istədiyi və xüsusi diqqət çəlb edən bir siqaret idi. Təbii ki, baha olduğu üçün ondan yalnız imkanlılar, pulu olanlar istifadə edərdilər. "Belomor"u həvəslə çəkənlərdən biri də İsgəndər idi. "Belomor"u çəkmək üçün onun özünəməxsus hazırlıq işləri olurdu. Belə ki, "Belomor" dənəsini paçkadan çıxaran İsgəndər onun tütün olan hissəsini barmaqları ilə əzib yumşaldır, onun arxa tərəfini ovcunun içinə vuraraq təmizləyir, bundan sonra kibritlə alışdırıb tüstüsünü ürəklə sinəsinə çəkməyə başlayırdı. Dərindən qullab vururdu, onun tüstüsü isə tədricən içindən qayıdıb bayıra çıxır, havada burularaq yox olurdu. Bu bir səhnə, bir tamaşa idi. İsgəndər onun bu anlarını çox diqqətlə izləyərdi. Müğənni cümləni tamamladıqdan sonra tarın simlərinin ecazkar səslərini dinləyən İsgəndər züm-zümə edər, bəzən də göz yaşlarını saxlaya bilməz, hönkür-hönkür ağlayardı. İsmayılın dəfələrlə olan xahiş və yalvarışlarına baxmayaraq bunun səbəbini deməzdi. Yalnız keçən əsrin 70-ci illərində Qırğızıstanda həbsxanada olarkən görüş zamanı İsmayıla bunun əsl səbəbini bir cümlə ilə belə ifadə etdi:

– İkinci Dünya Müharibəsi bütün sağlam əqidəli insanları, o cümlədən məni məhv etdi.

## Ailə yeni mənzildə

Qonşuların bir müddət davam edən xahiş və tələblərindən sonra ailə evi dəyişmək məcburiyyəti qarşısında qaldı. Rayonun mərkəzində, Əhməd kişinin evindən təxminən iki-üç yüz metr aşağıda hökumət evi var idi. Ailəyə bir otaqlı mənzil verildi. Darısqal olca da, 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində belə bir mənzilə sahib olmaq böyük xoşbəxtlik idi. İnsanın yaşaması üçün doyunca çörəyi , başının üstündə tavanı olmalıdır. O dövrdə bütün rayonlarda, o cümlədən İsmayılllı rayonunda hər tərəfli imkanı, saray evi olan ailələr çox az idi. Onlar da günlərini, həftələrini, aylarını və illərini qorxu içərisində yaşayır, həyətlərinin bayır qapıları bərkdən döyülərkən qorxa-qorxa qapıya gedər, onu açarkən təhlükə olmadığını gördükdən sonra özlərinə gələr, qapını bu şəkildə döyənə acıqlanar, bəzən nə qədər qorxulu olsa da hətta onu təhqir də edərdilər.

## İsmayılın naşılığı

Həyətdə yaşıdları ilə oynamaq İsmayıl üçün sevimli bir məşğuliyyət idi. Təbii ki, Ünzülə də təzə qonşuları ilə ünsiyyət yaratmışdı. Lakin daha ağır günləri hələ qabaqda idi. İsgəndərin tez-tez sərxoş vəziyyətdə evə gələrək ailəsini təhqir etməsindən qonşular da cana doymuşdular. Son nəticədə qonşuluqda olan həyətdə kirayə ev tutaraq orada yaşamağa başladılar. Ev sahibi başqa yerdə yaşayırdı. Böyük həyət idi. Meyvə ağacları da var idi. Günlərin bir günü İsgəndər iki baş quzu alıb gətirdi. İsmayıl, demək olar ki, hər gün onları rayonun aşağı başındakı otlağa aparırdı. Bu anlarda hər şeyi unudur, bütün diqqətini qoyunların doyunca ot yeməsinə verirdi.



İsmayıl nağılvarı günlərini yaşayırdı. Bir neçə aydan sonra quzular böyümüş, kökəlmişdilər. Bütün ailə üzvləri həsrətlə Novruz bayramının intizarında idilər. Məqsədləri qoyunlardan birini satmaq, digərini isə kəsib bayramlarını keçirmək idi.

İsmayılı bəzən xəyallar ağuşuna alırdı. Düşünürdü ki, niyə əksər ailələrdə atalar həddini aşmır, övladlarına qayğı ilə yanaşır, çox vaxt onların nazı ilə oynayır, onların istək və arzularını elə yerindəcə yerinə yetirirlər. Onların ataları isə onlara gün verir, işıq vermir. Analarının çöhrəsindəki müsəlman qadınlarına xas olan cilvələnən işıq şüalarını da məhv edib. Anaları üçün İsgəndərin dedikləri həmişə qanun olub. Uşaq olsalar da hamı öz yerini, həddini, oturuşunu, duruşunu, danışığını bilib. Bir gün İsmayıl bilmədən quzulara çoxlu arpa verdi, onlar onu görməmişcəsinə yedilər, üstündən də su içdilər. Axşam üstü onları otlağa apara bilmədi. Bütün cəhdlərinə baxmayaraq qoyunları xilas edə bilmədilər.

İsmayıl özünə gələ bilmirdi. Bir tərəfdən naşılığı nəticəsində iki canlının, yəni qoyunların ölümünə bais olmuşdu. Ailəyə ağır maddi ziyan vurmuşdu. Digər tərəfdən isə İsgəndər onu doyunca təhqir etdi.

Yalvarışlarına məhəl qoymadı. Həyatından bezən İsmayıl intihar etmək səviyyəsinə gəlib çatmışdı. İsgəndər,

dəmək olar ki, hər axşam evə sərxoş vəziyyətdə gəlir, İsmayılın evdən getməsini tələb edirdi.

Yazıq və bədbəxt Ünzülə də gecə-gündüz ağlamaqdan əldən düşmüşdü. Ölüm səviyyəsinə gəlib çıxmış bu bədbəxt ana üç övladını yaşatmaq, xilas etmək üçün yollar arayır, lakin çıxış yolunu tapa bilmirdi. Tez-tez İsmayılla evin bir küncünə çəkilərək onu əzizləyir, ana-bala doyunca ağlayırdılar.

– İsmayıl, mən nə edim? Sizi yaşatmalıyam, sizin toyunuzu etməliyəm. Lakin artıq dözə bilmirəm, hər şeydən, o cümlədən həyatımdan bezmişəm. Sən artıq böyümüsən, on yaşın var, az olsa da həyat yolu keçmisən, çətin anlarında vəziyyətdən çıxa biləcəksən. Məhsəti bacını, körpə Hənifəni böyütmək lazımdır, onların ana məhəbbətinə, ana qayğısına böyük ehtiyacları var. Onları yaşatmaq üçün anaları yanlarında olmalıdır. Oğlum, çıxış yolunu tapmaqda mənə kömək et.

Ana-bala çıxılmaz vəziyyətə düşmüşdülər. Ünzülə yumaq kimi bükülmüşdü. Bir tərəfdən İsgəndərin hərəkətləri, digər tərəfdən övladlarının ağır duruma düşməsi onu əldən salmışdı. Ağır fikirlərin ağrısı Ünzülənin yuxusunu ərşə çəkmişdi.

Belə məqamlarda İsmayıl hərdən köksünü ötürür, bir an ətraf aləmi süzür, daxilində götür-qoy edirdi. İsmayıl öz-özünə toxtaqlıq verirmiş kimi pıçıldadı: " Hər necə olsa da Yasəf atamdır, bəlkə insafa gəldi, məni yanında saxladı". Fikrini çulğalayan bu xoş istək Yasəfi birdən-birə onun gözündə əzizləşdirdi, doğmalaşdırdı.



## İsmayıl çıxış yolu axtarır

Bu söhbətdən sonra İsmayıl düz bir həftə düşündü, çıxış yolu axtardı. Nəhayət belə qərara gəldi ki, yeganə yol, nə qədər ağır olsa da, atası Yasəfin evinə gedərək onlarla yaşamaqdır. Hansı ki, Yasəf bu on ildə onu yalnız bir dəfə, qatıq satarkən görmüşdü, heç səsini də eşitməmişdi.

Bəs, bu qərarını anasına necə desin? Bu qərarı eşidəcək anasının ürəyinin partlayacağından qorxurdu, bacı və qardaşının anasız qalacaqlarından, yetimlik həyatı yaşayacaqlarından qorxurdu. Ötən günləri, dünənini xatırlayan, bu gün evlərində yenidən baş verən savaşı görən, İsgəndərin onun evdən getməsini bir daha hayqıraraq tələb etməsinin şahidi olan İsmayıl həlledici anın catdığını hiss etdi. Anası Ünzülə üç yaşlı Hənifəni bağrına basaraq ağlayır, qorxa-qorxa qapıya baxırdı.

İsgəndər Ünzülənin parlaq gündüzünü zülmət, qaranlıq bir gecəyə döndərmişdi. Çarəsiz qalan ana batmaqda olan günəş kimi saralıb solurdu. Ananın düşdüyü bu acınacaqlı, dözülməz vəziyyət İsmayılın beynini didib parçalayırdı, onun başında qasırğa kimi fırlanırdı. Yasəfin yanına getməyin təsiri altında o, bir qədər özünü donmuş adamlar kimi hiss etdi. Onun gözləri yerə dikilmişdi. Gözlərini yerdən ayırıb diqqətlə anasına baxdı və onu qucaqladı:

– Ana, məni bağışla, sən mənim həyatım, bu günüm və gələcəyimsən. Bilirəm ki, sən bu işgəncələrə dözə bilməyəcək, ürəyin tab gətirməyəcək, üç balan yetim qalacaq. Gəl belə edək. Əgər razı olsan, mən "atam" Yasəfin

evinə gedib onlarla yaşayım. Ola bilsin ki, bir müddətdən sonra İsgəndər dəyişər, ondan sonra mən sənin yanına qayıdaram. Ana! Başqa çıxış yolumuz yoxdur. Xeyir-duanı ver, mən gedim.

Təbii ki, Ünzülə eşitdiklərinə inanmaq istəmədi. İlk övladı, ağır dəqiqələrini onunla yaşayan İsmayılın bu sözləri ananın qəlbinə bir ağır zərbə vurdu:

– Əziz oğlum, sən nə deyirsən. Mən bir dəfə ən böyük səhvə yol verib səni və bacını atalıqla yaşamağa məcbur etmişəm. Hər ikiniz onun acısını yaşayırsınız. İndi isə səni analıq yanına göndərim? Ulu Tanrı heç vaxt bunu mənə bağışlamaz. Əgər getsən mənim bundan sonrakı ömrüm göz yaşları ilə keçəcək.

İsmayılın uzun yalvarışlarından sonra anası onun getməsinə razılıq verdi. Səhər bu haqda Yasəfə məlumat verdilər. O da düşünmək üçün vaxt istədi. Bir neçə gündən sonra razılığını bildirdi. İlk növbədə notariusa getməli idilər. Ünzülə bunu edə bilməyəcəyini qəti bildirdi. İsgəndər Ünzülədən razılıq kağızını alaraq İsmayılla birlikdə notariusa getdilər.

Notariusun binası rayonunn mərkəzində, Mədəniyyət evinin arxasındakı küçədə yerləşirdi. Yasəf onları gözləyirdi. Burada sənədləri qaydaya saldıqdan sonra İsmayılın əlindən tutaraq rayonun yuxarı məhəlləsində yerləşən evinə apardı. İsmayıl indi də həmin günləri həyəcanla xatırlayır. Demək olar ki, yaddaşında çox az anlar qalıb.

İsmayıl o anlardan birini belə xatırlayır:

– Anamdan ayrılmaq mənə olduqca çətin idi. Əllərimi



göyə qaldırdım, Allaha yalvardım ki, anama ömür versin, onun dərdlərini azaltsın, acı göz yaşlarına son qoysun. Gözlərim göylərin əlçatmazənginliklərinə zillənmişdi. Quzeydən sallana-sallana gələn buludlar göy üzündə gözümü zillədiyim nöqtədə topalanıb durmuşdular. Havada boğucu bürkü var idi. Bir az keçməmiş yağış yağdı da, kəsdi də. Öz-özlüyümdə düşündüm ki, qısa müddətli və leysan xarakterli bu yağış anamın acı göz yaşlarıdır...

Ünzülə bundan sonrakı illərdə o axşam yaşadıqlarını heç vaxt unutmayacaq. İki gün heç nə yemədi, süfrə arxasında əyləşmədi. Günlərinin yoldaşı göz yaşları, hənirti, ağlamaq oldu. O gecə yata bilmədi, səhərə qədər İsmayılım, – deyə ağladı. Hər dəfə qapının ən kiçik səsinə yerindən dik qalxaraq qaça-qaça onu açır, hönkürtü ilə ağlayaraq geri qayıdırdı. Bu xəbər tezliklə qonşular arasında da yayılmışdı. Ünzülə indi küçəyə də çıxa bilmir, ev dustağına çevrilmişdi.

Ünzülə tək-tənha otaqda tez-tez xəyallara dalır, gah İsgəndər ilə, gah da dünən yola saldığı oğlu İsmayılla söhbət edirdi. Yasəfdən də təvəqqələri çox idi. Belə anlarda Ünzülə elə oturduğu yerdə yuxuya gedirdi. Sonralar anası yuxularının birini İsmayıla belə nəql elədi:

– Oğlum, İsmayıl, yuxuda gördüm ki, müqəddəs Baba dağının zirvəsindəyəm. Sən də yanımdasan. Sənə deyirəm ki, ciyərim susuzluqdan yanır, mənim əlim çatmır, sən əlini at, o zirvədən mənə bir az qar ver, sinəmə od düşüb, o odu söndürmək istəyirəm. Sən əl atırsan, sənin də əlin çatmır.

– Bir də, bir də – deyirəm. Nədənsə, Məhsəti və Hə-

nifə yanımızda yoxdur. Birdən susuzluğum dayanır, dağın başında qulaqlarıma "Ruhani" havasının sədaları gəlir. Qollarımı qaldırıb oynamağa başlayıram. Yox, deyəsən, mən oynamırdım. Baba Dağdan qartal kimi havalanıb Maçaxı kəndinin üzərində süzmək istəyirdim...

Çox sonralar danışdığı bu yuxunun yozmasını anası oğlu İsmayıla söyləmədi. Keçmişin acı, məşəqqətli olayları Ünzülənin beyninə, ağlına bulanıq fikirlər ələyirdi.

Təxminən bir aydan sonra bu qəribə həyata dözə bilməyən İsmayıl geri qayıtdı. Ünzülə yenə ağlayırdı. Bu, sevincdən gələn göz yaşları idi. Hamı sevinirdi. Məhsəti qardaşının boynunu qucaqlayıb ağlamağa başladı. Dörd yaşında olan Hənifə isə "ana, qaqaşım gəldi" – deyərək yüyürüb onu qucaqladı. İsmayıl məhz indi hiss etdi ki, getməkdə nə qədər böyük səhv edib. Axşam İsgəndər də gəldi. İsmayılla görüşdü. Bir ay davam etmiş ayrılıqdan sonra hamı bir süfrənin arxasında əyləşib şam etdi.

### Nadirin xatirə yazısı

O günləri İsmayılın qardaşlığı Nadir "Hər kəsə nümunə olacaq insan" adlı yazısında belə xatırlayır: "Həyat təzadlarla doludur. İstəsən də, istəməsən də. Allahın sənə qismət etdiyi ömür payını yaşamalısan. Odun, alovun icində qovrula-qovrula, yana-yana, qışın şaxtasında dona-dona, qapaz altında, təpik altında, göynəyə-göynəyə, dərdini içində çəkə-çəkə, bir öynəsi aç, bir öynəsi yalavac.



Harınların, haramların acı baxışlarından qısıla-qısıla yayınıb xısın-xısın içində ağlayasan. Əzizlərin ola, amma səni qəbul etməyələr... O küncdə, bu küncdə ömürdən düşən günlərini sayasan... Bu da ömürdümü? Bilmirəm! Bir onu bilirəm ki, böyüklərin səhvinin dəhşətlərini onların günahsız, ancaq yaşamağa haqqı olan, hələ dünyanın min bir oyununda oyuncağa çevrilə biləcəklərindən xəbərsiz olan övladları yaşayır. Buna da yaşamaq demək olarsa...

Ötən əsrin altmışıncı illəri, daha doğrusu 1961-ci il idi. Üçüncü sinifdə oxuyurdum. Dərsdən evə gələndə evimizdə elə özüm boyda və mənə oxşayan bir oğlan gördüm. Baxışları elə indi də xatirimdədir. Bir az utancaq, bir az da ürkək. Rəhmətlik anam mənə yaxınlaşıb cantanı əlimdən alıb dedi:

– Qardaşındır. Görüşün, özü də elə-belə yox. Öpüşün! Biz də əl-ələ verib görüşüb-öpüşdük. Anam bizi qayğılı süzüb yaxınlaşdı. Hər ikimizin çiynindən tutub və mənə baxaraq dedi:

– Sənin böyük qardaşındır, adı İsmayıldır. Bizimlə qalacaq. Bir-birinizdən muğayat olun, dalaşmayın. Qardaşını incitsən, döyəcəm səni!

Anamın uşaq döyməsinə, möhkəm çimdik götürməsinə, istədiyi üsullarla bizi cəzalandırmağına bələd olduğum üçün dinmədim. Onda evdə bir bacı, dörd qardaş idik. İsmayıl gələndən sonra beş olduq.

Anam ciddi qadın idi. Baytar həkim idi. İşgüzar, səliqəli, hər şeyin yerini bilən, dəyərləndirən idi. Əliaçıq qadın idi. Bütün qonşu qadınlar tez-tez bizdə olduğundan onların uşaqları da bizim həyətə gələrdilər. Ona görə

də həyatimizdə həmişə bir qələbəlik, səs-küy olardı. Bizi küçəyə çıxmağa qoymazdılar. Ona görə də həyətdə qonşu uşaqları ilə oynayardıq.

İsmayıl gələndən sonra o da bizə qoşulub oynayardı. Ancaq dərslərinə çox vaxt ayırardı. Dördüncü sinifdə oxuyurdu. Müəllimi də Cəlal Rüstəmov idi. Mən birinci növbədə, İsmayıl isə ikinci növbədə oxuyurdu.

Bir-birimizə tez isinişdik. Onun "ögey qardaş" olduğu yadımıza da düşmürdü. O vaxtlar rayonda hamı inək-camış saxlayırdı. Bizim də "Zarya" adında bir inəyimiz var idi. Qardaşımla hər gün tövləni təmizləyər, mallara ot verərdik. Günlərimiz beləcə keçirdi.

Bir gün eyvanda olanda bir otaqlı evimizdə atamla anamın mübahisə etdiklərini eşitdim. Qorxdum. Çünki belə mübahisələrin sonu atamın davası və təhqirləri ilə bitirdi. Xöşbəxtlikdən hər şey yaxşı oldu. İndinin sözü ilə desək "Atəşkəs" oldu. Ürəklənib qapını döydüm. Evin ortasında bir uşaq ayaqqabısı və bir dəst də uşaq kostyumu var idi. Dəqiq yadıma sala bilmirəm. Alınmışların hansının mənə, hansının isə İsmayıla veriləcəyini ayırd edə bilmədim. Bir onu anladım ki, anam atama başa salırdı ki, ya ayaqqabını qaytarsın, ya da kostyumu. Atam isə hər ikisini saxlamaq istəyirdi. Anam isə təkid edirdi ki, Nadirin paltarı və ayaqqabıları var. İsmayılın ayaqqabısı isə köhnədir. İsmayıl ayaqqabısını geysin. Köhnələndə Nadir onun ayaqqabılarını geyinər. O vaxtlar adət idi – böyük qardaşın köhnələrini balacasına geyindirərdilər.

Hər şey öz axarınca gedirdi. İsmayılın anasıgil S.Vurğun küçəsində, gəndovlu Məmmədrza kişinin evində ki-



rayədə qalırdılar. İsmayılla anasıgilə getdik. Bir az onların evində oturub sonra bir yerdə evə gəldik.

Soyuq qış günlərindən biri idi. İsmayılla tövlədə eşələnib qalmışdıq.

O, dərsə gedəcəkdi. Tövlənin qapısını örtəndə necə oldusa İsmayıl bərk ağladı. İndi də xatırlaya bilmirəm: əlimi, ya ayağımı qapının arasında qalmışdı? Onun səsinə həyətə çıxan anam İsmayılı sakitləşdirib üstümə cumdu. Nə yemisən, turşulu sıyıq. Anam şillə, qapaz, çimdikdən qurtarıb, maşanı götürdü. Məni o qədər döydü ki, özü də haldan düşdü, mən də. İsmayıl çantasını götürüb aradan çıxmışdı.

Məni evin küncünə qısan anam maşanı yerə çırpa-çırpa deyirdi:

– Sənə deməmişəm, İsmayılla işin olmasın. Onu niyə itələyib yıxmısan. O sənin böyük qardaşındır. Sonra qıraqdan deyəcəklər ki, ögey ana İsmayılı yola vermir, incidir. Çox tənbehdən sonra məndən əl çəkib getdi. Mən isə elə döyüldüyüm yerdə hıçqıra-hıçqıra oturmuşdum. Vallah, elə indinin özündə də onda niyə döyüldüyümü anlaya bilmirəm. Hər dəfə o anları xatırlayanda deyirəm:

– İsmayıl, 1:0 sənin xeyrinə!

Sən demə əsil mərəkə qabaqdadı. Atam işdən tez qayıtmışdı. Onsuz da evdə dava salmağa bəhanə axtaran atam mənim niyə küncdə oturduğumu soruşanda anam:

– Özündən soruş. Özündən böyük qardaşını döyüb göndərdi məktəbə.

Atamı elə bil cır arı sancdı. Üstümə necə atıldısa xəbərim olmadı. Anamın döyməyi toy-bayram imiş. Ayağın-

dakı xrom çəkmələrin ucu ilə məni elə vurdu ki, girdim dəmir çarpayının altına. Əyilib məni dartıb çarpayının altından çıxarıb xeyli döyəndən sonra dincəldi.

Axşama yaxın idi. Məni məcbur edib İsmayılın qabağına göndərdilər. Hava tez qaraldığı üçün qardaşımı qabaqlamağa getdim.

Günlərin bir günü İsmayıl yoxa çıxdı. Çox axtarandan sonra məlum oldu ki, anasının yanına gedib. Dəqiq yadımda deyil. Bir aymı, iki aymı bizimlə birlikdə yaşadı. Bu müddətdə o, hansı hissləri yaşadı, bilmirəm. Ancaq, bir onu bilirəm ki, anam da, atam da onun bizimlə qalmasını istəyirdilər. Qalmadı, getdi. Özü də lap birdəfəlik. Mənə böyük qardaşın köhnəsini geyinməyi qoymadı."

## İsmayılın qayıdışı

Bu qayıdışdan sonra ailədə hər şey yaxşıya doğru dəyişmişdi. İsgəndər müsbət mənada başqa bir adam olmuşdu. Hər axşam evə gələrkən ilk növbədə İsmayılı qucaqlayıb öpür, bundan sonra ailənin digər üzvləri ilə görüşürdü. Tez-tez kabab bişirər, samovar çayı içər, şənlənərdilər.

Lakin belə bir xoşbəxt günlər uzun müddət davam etmədi. İsgəndər iş dalınca Göyçaya getmişdi. Qayıtdıqdan sonra bildirdi ki, maddi vəziyyətimiz ağırdır. Mən isə uşaqların geyim, ərzaq problemlərini təmin edə bilmirəm. Göyçayda "Səməd Vurğun" adına 11 saylı internat məktəbi var. Şagirdləri pulsuz yataq, yemək və təhsillə təmin edirlər. İsmayılla Məhsətini həmin məktəbə qəbul etdirək, vəziyyətimiz Yaxşılaşdıqdan sonra geri qaytarariq.



Ünzülə eşitdiklərinə inanmadı. Belə çıxırdı ki, İsgəndər ögey övladlarını evdən qovur, doğma oğlu Hənifəni isə evdə saxlayırdı.

Hər üç övladı Ünzülə üçün doğma və əziz idi. Lakin İsmayıl və Məhsətinin evdən getməsi ilə barışmaq istəmirdi. Bir neçə ay bundan əvvəl İsmayılın analıq evinə getməsinə nail olan İsgəndər, sən demə, onun geriyə qayıtması ilə barışmamış, yeni planlar üzərində işləmişdi. Həmin variantın müsbət nəticə verəcəyinə inandığı üçün bu yolu seçmişdi. On günə yaxın Ünzüləni inandırmağa çalışdı ki, doğrudan da bu yeganə çıxış yoludur. Ünzülə də bu on gün ərzində İsgəndər ilə yaşadığı günləri bir daha təhlil etdi. Əgər belə davam edərsə övladlarının gələcək həyatlarının daha acınacaqlı və ağır olacağını gördü. Son qərarı belə oldu ki, hər iki övladı internat mətəbində təhsil alarsa gələcək həyatları xoşbəxt ola bilər. Uşaqlar hər gün şahidi olduqları savaşlardan, ailə münaqişəsindən uzaq olar, doyunca yemək yeyər, səliqəli və təzə paltar geyər, yaxşı təhsil alarlar. Məhz buna görə də on gündən sonra öz razılığını bildirdi.

Zaman göstərdi ki, Ünzülə səhv etməyib. İnternat məktəbində aldıqları tərbiyə onun övladlarının xoşbəxt həyat qurmaları üçün möhkəm zəmin yaratdı.

Bir daha Göyçaya gedən İsgəndər geri qayıdıb bildirdi ki, yalnız Məhsətinin məktəbə qəbul olunmasına razılıq alıb. Ünzülə isə qəti bildirdi ki, İsmayılı da qəbul etməsələr Məhsətinin getməsinə razılıq verməyəcək. Əvvəlcə Məhsətini qəbul etdilər. Ünzülə qız övladından,

onun "anam" deyən doğma səsindən məhrum olmuşdu. Gecələr səhərə qədər yata bilmir, qızının hörüklərini nizama saldığı anlar yadına düşür, heç kim xəbər tutmasın deyə mışım-mışım göz yaşı tökürdü.

## Göyçay rayonuna köç

Bir neçə aydan sonra ailəliklə Göyçay rayonuna köçdülər. Ailə köç edərkən Ismayılın gözləri yerin köksündən tüğyan edib göylərə qalxan ulu İsmayıllı dağlarına, qayalarına dikilmişdi. Bu ulu dağlar, qayalar qədim abidələr kimi heykəlləşib bir-birinin ardınca məğrur dayanmışdılar.

Füsunkar, möcüzəli İsmayıllı dağlarının başında karvan-karvan keçən buludlar əyləşib gah başlarına çalma, gah da bellərinə qurşaq bağlayırdı.

Təbiətin bu əsrarəngiz, füsunkar, dilbər guşəsində düşünən canlılardan tutmuş cansız dağlara, qayalara, dərələrə, təpələrə, bulaqlaradək nə vardısa, hamısında bir saflıq, sadəlik, ecazkarlıq duyulurdu. Di gəl ki, belə saf diyardan ayrılmaq İsmayıl üçün çox çətin idi, lakin onlar köçməli idilər. Nə isə...

Göyçayın mərkəzində, Sabir bağının sağ tərəfindən aşağı düşərkən yolun sağında ikimərtəbəli bir ev var idi. Onun ikinci mərtəbəsində kirayə bir otaq tutub yaşamağa başladılar. İsgəndər rayonun kolxoz və sovxozları ilə müqavilə bağlayaraq onlar üçün rəssamlıq işləri görür, ailəsini dolandırırdı.Yenidən içməyə, sərxoş vəziyyətdə evə gələrək ailə üzvlərini təhqir etməyə, Ünzüləyə əzablar verməyə başlamışdı.



Göyçaydan Ağdaşa gedən yolun sol tərəfində yerləşən kolxoz üçün tikinti işləri görürdü. Bakıdan ustalar gətirmişdi. Bir axşam gecə işi başa vurub qayıdarkən İsmayılın evə tək getməsini tələb etdi, özü isə iş yoldaşı ilə qaldı. Gecə evə sərxoş vəziyyətdə qayıdan İsgəndər onları öldürmək istədi. Ünzülə onu qabaqlayaraq İsmayılı və dörd yaşlı Hənifəni binanın zirzəmisində gizlədə bildi. Kiçik Hənifə qorxudan ağlayır, Ünzülə onu bağrına basaraq ağlamamasını xahiş edirdi.

Qorxudan əsən İsmayıl da Hənifəyə yalvarırdı ki, ağlamasın. İsgəndər isə gecə saat 12-də – Ünzülə, Ünzülə – deyərək qışqırır, qonşulardan isə bir kimsə qorxusundan köməyə gəlmirdi.

Kolxozda tikinti işlərinin aparıldığı günlərdə İsgəndər İsmayılın məktəbə getməsinə imkan vermirdi. Artıq bir neçə ay idi belə bir vəziyyət davam etməkdə idi. Məktəbləri Lunaçarcki kücəsində, Sabir bağından aşağıda, kolxoz bazarına gedən yolun solunda yerləşirdi. Sinif rəhbəri Maral müəllimə idi. Maral müəllimənin dəfələrlə olan tələblərindən sonra İsgəndər İsmayılın məktəbə getməsinə razılıq verdi. Ayaqqabısı həddən artıq dağılmış olduğu üçün dördüncü sinif şagirdi İsmayıl anasından xəlvət bir neçə dəfə məktəbə ayaqyalın getdi.

Bundan xəbər tutan Maral müəllimə İsmayıla ayaqqabı aldı. Hər gün oğlunu köhnə ayaqqabı ilə yola salan anası bu ayaqqabını necə əldə etdiyini soruşduqda İsmayıl ona yalan dedi:

– Atam alıb.

Bəli, İsmayıl yalan danışırdı. Bu yalan ziyanlı yalan deyildi, ana ürəyini qırmamaq üçün ruh kimi təmiz olan bir körpənin yalanı idi. Hər gün evə sərxoş gələn İsgəndərdə insan təbiətinə xas olan şeylərin xırdaca bir hissəsi də qalmamışdı. Viktor Hüqo yazırdı ki, düşünən adamlar xoşbəxtlər və bədbəxtlər ifadəsindən az istifadə edirlər.

Ünzülə hərtərəfli düşüncə sahibi olduğundan heç vaxt deməzdi ki, mən bədbəxtəm. Bunun da əsas səbəbi o idi ki, övladları qəm, kədərə qərq olmasınlar, ürəkli-ciyərli böyüsünlər. O istəyirdi ki, nəinki onun ailəsində, bütövlükdə yaşadığı mühitdə cahillərin sayı azalsın, maariflənmişlərin miqdarı çoxalsın. Gələcəkdə onun övladları da elm, təhsil, maarif işığını, ziyasını yandırmağı bacarsınlar. Anası yaşa dolduqca İsmayıl onu tez-tez danışdırmağı xoşlayır, keçmişin acı xatirələrini dilə gətirməsini xahiş edirdi. Anası danışdıqca İsmayıl hiss edirdi ki, əzablı ağır günlərin yorğunluğu hələ də onun canından çıxmayıb. O, yenə xəyalında aranı dağa, dağı arana daşıyırdı.

Daşqın çayı andıran xəyalları əzablı günlərdən bu günə kimi heç cürə uyuşa bilmədiyi bu zəmanədən nigaran idi. Zəmanə onu döyüşdürmüş, vuruşdurmuş, ahıllaşdırmış və nağıllaşdırmışdı...

## İnternat məktəbində

Bir neçə aydan sonra İsmayıl da İnternat məktəbinin şagirdi oldu.

1961-ci ilin mart ayı idi. İsmayılı qəbul edərkən məktəbin dərs hissə müdiri Zeynəb müəllimə onu məktəbə



şərti qəbul etdiklərini, yaxşı oxumazsa, nizam-intizamı pozarsa geri qaytaracaqlarını bildirdi. İsmayıl da söz verdi ki, nizam-intizamlı və dərs əlaçısı olacaq.

İsmayıl da evdən getdi. İsgəndər istədiyinə nail oldu. Məhsəti ikinci sinifdə, İsmayıl isə dördüncü sinifdə oxuyurdu. İnternat məktəbində şagirdlər həftədə bir dəfə evə gedə bilərdilər. Belə ki, həftənin altıncı günü nahardan sonra arzu edən valideyn məktəbə gələrək uşağını evə aparır, bazar günü axşam və ya həftənin birinci günü səhər tezdən onu məktəbə gətirib təhvil verirdi.

Övladı internat məktəbində oxuyan bütün analar, o cümlədən Ünzülə də o günü səbirsizliklə gözləyirdilər. Evdən küçəyə çıxan belə analar həftə arası valideynlərinin əlindən tutaraq yaxınlıqdakı məktəbə gedən, yol boyu onları qucaqlayıb öpən, saçlarını tumarlayıb sığallayan analara qibtə ilə baxır, dərindən ah çəkərək sızıldaya-sızıldaya işlərinin arxasınca gedərdilər. Ünzülə də belə analardan biri idi. İyirmi yaşından bəri taleyi onu o qədər ağır imtahanlara çəkmişdi ki, artıq göz yaşları da qurumuşdu. İndi yalnız taleyinə şükür edirdi ki, atadan yetim qalmış, ögey atanın təhqirlərinə məruz qalmış iki övladı nə yaxşı ki, dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Bir də onda təskinlik tapırdı ki, körpə Hənifəni də böyütmək üçün onun qüvvəsi çatacaq.

Övladlarının həftədə bir dəfə evə gəlmələri onun üçün bayrama çevrilirdi. Bu günü həsrətlə gözləyir, xüsusi hazırlıq işləri görürdü. Evin bir küncündə gizlətdiyi şirniləri, konfet və peçenini qoltuğuna qoyub onları məktəbə aparırdı. Bu şirnilərdən yoldaşlarına da vermələri-

ni xahiş edirdı. Vaxtı ilə rəhmətlik atası Abdul kişi, mərhum anası Nazilə xanım da öz xeyirxahlıqları ilə Maçaxı kəndində ad qazanmış, Tircan Sovetliyinin ən hörmətli sakinlərindən biri olmuşdular. Böyük Vətən Müharibəsi illərində maddi vəziyyəti ağır olanlara göstərdikləri köməkdən hamı ağızdolusu danışırdı.

İsmayıl və Məhsəti evdə yatdıqları zaman bir küncə çəkilən Ünzülə zar-zar ağlar, övladları üçün ürəyi istəyən paltarı alıb onlara geyindirə bilməməsindən, qızını bəzəyib onun arzuladığı donu, kuklanı ala bilməməsindən özü-özünə şikayətlənərdi. Bu zaman anadan olduğu, ayaq tutub yeridiyi Maçaxı kəndi gözlərinin qabağına gəlirdi. Körpə yaşlarında anası Nazilənin Ünzüləni, qardaşı Əzizi və bacıları Mənziləni bəzəkli paltarlarla geyindirib həyat yoldaşı Abdul ilə əllərindən tutub kəndin daşlı yolu ilə necə sevinə-sevinə, fəxrlə qonaq getdiklərini xatırlayırdı. Bu yolla hər ikisi, bacı və qardaş Tircan kəndindəki orta məktəbə də getmişdilər. Onların hər ikisi Tircan kənd orta məktəbinin ən yaxşı oxuyan, bütün müəllimlərin ən çox sevdikləri şagirdi idilər. Qardaşı Əziz eyni zamanda şer yazır, kaman musiqi alətində xalq mahnılarını çalırdı.

Ünzülə həyatının bu xoş günləri haqqında xatirələrini 80 yaşında, 22 mart 2009-cu uldə 60 yaşlı oğlu İsmayıl ondan müsahibə götürərkən bir daha yada salmışdı...

Beləcə, günlər arxada qalır, uşaqlar böyüyürdülər. 1960-cı ildə bir övladları da oldu, adını Azad qoydular. Amma Ünzüləni qabaqda həyatın daha ağır sınaqları gözləyirdi.

Bir müddətdən sonra kirayədə yaşadıqları evləri-



ni dəyişdilər. Rayonun mərkəzində, köhnə dəyirmanın yanında, yanğınsöndürmə məntəqəsinin yanında bir ev kirayə edərək yaşamağa başladılar. Bir övladının da dünyaya gəlməsinə baxmayaraq İsgəndər köhnə adətini dəyişməmişdi. Sərxoşlu günlər, evdəkilərin təhqir olunması adi hala çevrilmişdi.

İsmayılla Məhsəti internat məktəbində doyunca yemək yedikləri, təmiz paltar geydikləri bir vaxtda Hənifə və Azad bunlardan məhrum olmuşdular. Ünzülə bir neçə dəfə vəziyyətlərinin dözülməz olması haqqında həyat yoldaşına desə də müsbət cavab ala bilməmişdi. Hətta evin kirayə haqqını da ödəyə bilmirdilər. Vəziyyətdən yeganə çıxış yolu Ünzülənin işləməsi idi. İsgəndər sərxoş olarkən onun bütün sənədlərini, o cümlədən pedaqoji məktəbi bitirməsi haqqında diplomunu yandırmışdı. Yeganə işi süpürgəçılık ola bilərdi. Ünzülə 1961-ci ildə Göyçay rayonunun mərkəzində olan Cabir bağındakı yeməkxanada süpürgəçı işləməyə başladı. Körpə balalarını isə uşaq baxçasına qoydu.

Ünzülə işə girdikdən sonra həyat yoldaşı daha dözulməz olmuşdu. Qazandığı pulları içkiyə xərcləyən İsgəndər indi Ünzüləni iş yerindəki oturacaq stollarına da qısqanırdı. Bu işgəncələrə dözə bilməyən qonşuları da bir neçə dəfə polis şöbəsinə müraciət etmişdilər. İsgəndərin Böyük Vətən Müharibəsi illərində partizan hərəkatında iştirak etməsi, eyni zamanda yaxşı rəssam olması onun köməyinə çatırdı. Onu polis şöbəsinə çağırır, dilindən şifahi izahat alıb, xəbərdarlıq edib evə buraxırdılar.

Ünzülənin də ona ürəyi ağrıyırdı. Bu zavallı insana

yazığı gəlir, onu xilas etməyə çalışırdı. Tənha anlarında zar-zar ağlayar, özünü səbirli olmağa çağırardı: – Nə edim? Mənim də qismətim budur, – deyərdi.

İsmayıl da evdə olduğu iki gün ərzində, yəni həftənin altıncı və bazar günləri anasının xəbəri olmadan tum sataraq ona kömək etməyə çalışırdı. Bundan xəbər tutan anası onu danlasa da başqa köməyinin olmadığını bilirdi. Məhz buna görə də yay tətili günlərində bazardan aldığı tumu qovuraraq İsmayıla verər, o isə onu apararaq axşamlar rayonun mərkəzində, dördyolun yaxınlığında olan kinoteatrın qarşısında satardı. Bu zaman çalışardı ki, internat məktəbinin müəllimlərindən heç kim onu görməsin. Qəribə vəziyyətə düşürdi. Onun yaşıdlarından olan bir neçə nəfər də burada tum satardı. Hamısı da çalışardı ki, vedrədəki bütün tumu satıb evlərinə getsinlər. Bunun üçün müştərinin qabağına qaçmaq, onu səsləmək lazım idi. İsmayıl isə müəllimləri, oxuduğu məktəbin şagirdləri onu görməsin deyə bunları edə bilmirdi. Məhz buna görə də çox zaman satmağa apardığı tumun yarısını evə gətirərdi.

Ünzülə də, İsmayıl da çox vaxt daxili aləmlərinə qapılardılar. Onlar kədər, qəm sindromları ilə yükləndikcə yorulub əldən düşürdülər. Belə vaxtlarda həyat onlar üçün öz gözəlliyini, cazibədarlığını itirir, mənasızlaşırdı. Ana və bala öz dərdli ürəkləri, qəmli taleləri ilə çox vaxt baş-başa qalırdılar.

Maddi vəziyyətləri ağırlaşdığı üçün internat məktəbinin aylıq pulunu ödəyə bilmirdilər. İsmayıllı rayonunda baş zootexnik işləyən Yasəf isə məhkəmə tərəfindən



təyin olunmuş aliment pulunu vaxtlı-vaxtında vermirdi. Yüksək vəzifədə çalışmasına, nəinki rayonun, hətta respublikanın tanınmış kənd təsərrüfatı mütəxəssislərindən biri olmasına baxmayaraq o da içkiyə qurşanmışdı. Həm ailəsində, həm də rayonda nüfuzdan düşməyə başlamışdı. Bir neçə ay idi ki, aliment pulunu ödəmirdi. Anası məktəbdən icazə alıb oğlunu İsmayıllı rayonuna göndərdi. Onda İsmayıl altıncı sinifdə oxuyurdu. İsmayıllı rayonuna gələn İsmayıl Sənubər bibisigilə getdi. Onun həyat yoldaşı Abduləli İsmayılı gördükdə çox sevindi. Axşam süfrəsinə kabab hazırladılar, qonaqlıq süfrəsi təşkil olundu. Nahara Yasəfi də dəvət etdilər. İsmayılın gəlməsi haqqında Yasəfə məlumat vermədilər. Otağa daxil olan Yasəf karıxdı, bir anlıq özünü itirdi. Hamı ilə, o cümlədən İsmayılla görüşüb əyləşdi. Abduləli söhbət əsnasında Yasəfə bildirdi ki, belə olmaz. İki övladını yetim qoymusan, heç olmasa onların alimentini vaxtında ver. Dediklərimi də sırğa et, qulaqlarında əbədi saxla. Vaxt gələçək, ən ağır günlərində sən İsmayıldan gömək umacaqsan. Elə et ki, o məqamda utanmadan İsmayıla müraciət edə biləsən, o da tərəddüd etmədən sənə kömək etsin.

Allah Abduləli kişiyə rəhmət eləsin. 60-cı illərin əvvəllərində Avduləli kişinin dediyi bu sözlər 90-cı illəidə həyata vəsiqə qazandı. İsmayıl da hər şeyi unudaraq ona diqqət və qayğı ilə yanaşdı. Lakin Yasəf yenidən böyük səhv etdiyi üçün aralarında sərinlik yarandı.

Ayrılarkən Yasəf Abduləliyə dedi ki, bir neçə gündən sonra pulu poçtla Göyçaya göndərərəm, gedib poçtdan alarlar. O, hətta çibindən pul çıxarıb oğlu İsmayıla bir

qara quruş da vermədi. Sağollaşmadan ayrıldılar.

Səhər tezdən İsmayıl bibisigillə vidalaşıb avtobusla Göyçaya qayıtdı. Qapını açıb evə girərkən gözlərinə inanmadı.Anası yerə uzanıb hönkür-hönkür ağlayırdı.

– Ay İsmayıl, axşam İsgəndər səni soruşdu, qorxumdan hara getdiyini demədim. Məni döydükdən sonra Hənifə və Azadı özü ilə apardı. Dedi ki, onların hər ikisini öldürəcək və sənə ağır zərbə vuracağam. İndiyə qədər geri qayıtmayıblar. Bəlkə, doğrudan da onları öldürüb? Axı, Azadın cəmisi iki yaşı var. O, bu qədər anasız qala bilməz.

Vəziyyətdən xəbərdar olan qonşular Ünzüləyə məsləhət gördülər ki, polis şöbəsinə müraciət etsin. O, yox dedi. Bilirdi ki, İsgəndər bu dəfə həbs olunacaq, uzun müddətli həbs cəzasına məhkum ediləcək. İsmayıl da də bunu istəmirdi. Çünki 1957-ci ildə İsgəndər İsmayıllı rayonunda həbs olunduğu gün, axşam saatlarında polis şöbəsinin həyətindəki təcridxananın qabağında keçirdiyi ağır dəqiqələri, axıtdığı göz yaşlarını unutmamışdı, o ağır anları bir daha yaşamaq istəmirdi. Beləcə, səhərə qədər ilan vuran yatdı, ana-bala yata bilmədilər.

Səhər günorta saatlarında polis idarəsinə getdilər. Gec müraciət etdikləri üçün onları tənbeh etdilər. Axtarış başlandı. Gecə saat 11-ə yaxın onları Polis idarəsinə çağırdılar. Bildirdilər ki, uşaqların hansı kənddə olması haqqında onlara məlumat veriblər. Polis maşınına minib məlumat verilən kəndə yola düşdülər. Onlar kəndə çatdıqları zaman bütün kənd əhli yatmış, əksər evlərin işığı söndürülmüşdü. Yalnız bir neçə həyətdə işıq yanırdı.Kəndə maşın gəldiyini görən kənd itləri səs-səs verib



hürməyə başladılar. Kəndin sakit həyatı pozuldu. Səs-küydən qorxuya düşən kənd sakinləri yerdən səksəkəli qalxaraq otaqlarının işıqlarını yandırdılar. Hətta bir neçə nəfər də küçəyə çıxdı. Polis işçiləri maşından düşərək nə üçün gəldiklərini bildirdilər. Onlara məlumat verilmiş evin sahibini, onun evinin yerini soruşdular. Sakinlər bildirdilər ki, bu yalan xəbərdir. Belə bir hadisə olsaydı, indi bütün kənd əhli bundan xəbərdar olardı. Çünki hamı bir-birilə qohumdur. Buna baxmayaraq bir neçə nəfəri də maşına mindirib həmin evə getdilər. Evin sakini andaman etdi ki, bu böyük bir yalandır. Kəndə böyük ümıdlə gedən Ünzülə və İsmayıl ağlaya-ağlaya geri qayıtdılar.

İsmayıl bir neçə gün məktəbə də getmədi. Polis şöbəsinin axtarışları müsbət nəticə vermədi. Ünzülə polis əməkdaşlarına bildirdi ki, Lənkəranla əlaqə saxlasınlar, Lənkəranda İsgəndərin bacısı yaşayır. Bəlkə uşaqları ora aparıb. Bu müraciətin böyük köməyi oldu. İsgəndəri və uşaqları Lənkərandan Göyçaya gətirdilər. Uşaqları analarına təhvil verdilər. İsgəndər isə dörd illik həbs cəzasına məhkum olundu. Ünzülənin ağır günləri başlandı. İki övladı internat məktəbində, iki kicik yaşlı övladı isə yanında idi. İnternatda oxuyan uşaqlarının promlemlərini həll etməli idi, onların aylıq pullarını ödəməli, həftədə bir dəfə onları evə gətirməli, bu zaman onları yeməklə təmin etməli, bazar günü bazara gedib onlar üçün istədikləri meyvəni, arzuladıqları hər hansı bir əşyanı almalı idi. Evdəki iki körpənin isə diqqət və qayğıya daha çox ehtiyacları var idi.

## Qeybdən gələn səs

Tək yaşamaq məcburiyyəti qarşısında qalan Ünzülə təmiz adını, namusunu qorumalı idi. Elə yaşamalı idi ki, üç oğul övladı gələcəkdə fəxrlə başlarını dik tutub gəzə bilsinlər. Elə yaşamalı idi ki, sabah evinə nişan gətirib qızını gəlin aparsınlar. Qərib bir rayonda tənha qalmış Ünzülənin Ulu Tanrıdan başqa heç bir köməyi yox idi. Gecələr səhərə qədər yatmayıb Ulu Yaradandan kömək diləyirdi.

Gecələrin birində qulağına röyadan bir səs gəldi:

– Qızım, sən ağır sınaq qarşısındasan, gələcək həyatının necə olacağı, övladlarının xoşbəxtliyi sənin özündən asılıdır. Səndə olan dözüm və səbr, zəhmət, övladlarına olan ana məhəbbəti səni bu mübarizədən qalib çıxaracaq. Mən buna tam inanıram!...

Yerindən dik atıldı. İşığı yandırıb ətrafına baxdı. Heç kim yox idi, heç bir hənirti gəlmirdi. Sanki dünyaya yenidən göz açdı, qollarına qüvvət, dizlərinə taqət gəldi. Mışıl-mışıl yatan iki körpəsini qucaqlayıb ağlamağa başladı. Ulu Tanrıya dua etdi, bu dualar onu xilas etdi.

Səhər tezdən işə, yəni Sabir bağındakı yeməkxanaya gələrkən eşitdiyi xəbərə inanmadı.Yeməkxananın sahibi bütün işçiləri otağına çağıraraq kollektivin üzvü olan Ünzülənin ailə faciəsi haqqında bir daha onları məlumatlandırdı. Bildirdi ki, bu gündən Ünzülə və ailəsi bizim xüsusi diqqət və qayğımız ilə əhatə olunmalıdır. O, bu gündən bizim bacımızdır. Həyat yoldaşı həbsxanadan çıxana kimi biz kömək əlimizi ondan əsirgəməməliyik. Eyni zamanda



Ünzüləyə də bildirdi ki, bütün kollektivin etimadını doğrultmalı, təmiz adını qoruyub saxlamalıdır.

Elə həmin gün Ünzülənin işini dəyişdilər, xörəkpaylayan vəzifəsinə təyin etdilər. O dövrdə bu, müdiriyyət tərəfindən işçiyə göstərilən böyük etimad idi. Çünki yeməkxananın bütün gəliri xörəkpaylayanın əlindən gəlib keçirdi. Ünzülə də ona olan bu etimadı doğrultdu.

Gündəlik qazancı isə hər axşam müdiriyyətin razılığı əsasında evə gətirdiyi çörək və satılmayıb qalan bişmişin bir hissəsi, ən böyük qazancı isə təmiz adını qoruyub saxlaya bilməsi oldu.

İki ildən sonra İsgəndər amnistiyaya düşdü, həbsxanadan çıxıb evə gəldi. Rayonun mərkəzində, Sabir bağının arxasında ikimərtəbəli ev tikilmişdi. Həmin evin ikinci mərtəbəsində onlara bir otaq verdilər.

Mənzil iki otaqlı idi. Bir otaq onlara, digəri isə başqa ailəyə verilmişdi. Mətbəxləri ümumi idi.

İsgəndər nisbətən düzəlmişdi. İndi az-az icir, evdə də çox səs-küy salmırdı. Tezliklə bir qızları da oldu, adını Mənzurə qoydular.

İsgəndər Göycay rayon Mədəniyyət evində işə düzəldi. Həm rəssam işləyir, həm də tamaşalarda müxtəlif rollarda çıxıç edirdi. Yaxşı rəssam, qabiliyyətli aktyor olmasına, musiqini, xüsusilə muğamatı çox sevməsinə baxmayaraq, əfsuslar olsun ki, icki onu məhv etmişdi.

İsmayılın internat məktəbində oxumasına baxmayaraq İsgəndər 1964-cü ilin yayında onu Mədəniyyət evinə gətirərək onun da uşaq rollarında çıxış etməsinə razılıq aldı. C.Cabbarlının "Sevil" dramında Gündüz rolunda

çıxış etməsi İsmayıla həvalə olundu. İsmayıl həmin ilin yayında qonşu rayonlarda, o cümlədən Ağsu və Zərdab rayonlarında "Sevil" tamaşası göstərilərkən Gündüz rolunu oynadı.

Ünzülə çox sevinirdi. Ağır günlərin arxada qaldığı, bir daha təkrarlanmayacağı haqqında fikirləşirdi. 1965-ci ildə İsmayıl da səkkizinci sinfi əla qiymətlərlə bitirdi, texnikuma getmək istədi. Lakin müəllimləri tələb etdilər ki, o mütləq orta məktəbi bitirib ali təhsil almalıdır. Ünzülə buna çox sevindi, İnternat məktəbinin direktoru Tahir Fərzəliyevin, fizika-riyaziyyat müəllimi İslam müəllimin, sinif rəhbəri Maral müəllimənin İsmayılla bağlı arzularının çin olması uğrunda axıra qədər mübarizə aparacağına söz verdi.

## Əlibayramlıya köç

Yayda İsgəndər iş dalınca Əlibayramlı şəhərinə getmişdi. Geri qayıtdıqdan sonra bildirdi ki, Əlibayramlıda yaxın dostu ilə görüşüblər. Şəhərin yaxınlığında olan təsərrüfatların rəssam işinə böyük ehtiyacı var. Göyçayda iş tapmaq çətinləşib. Qərara gəlib ki, Əlibayramlıya köçsünlər. Axşam əşyalarını yük maşınına yığıb yola düşdülər. İsmayıl o gecə maşında keçirdiyi ağır düşüncələrini, yolun qurtarmaq bilmədən uzandığını, səhərə qədər maşının yük yerində necə soyuqdan əsdiyini heç vaxt unuda bilməyəcək.

Səhər saat 8-də Əlibayramlı şəhərinə çatdılar. Maşın Əlibayramlı şəhərinin mərkəzinə çatdıqdan sonra mehmanxananın yanından sola dönərək irəliyə hərəkət etdi. Təxminən 10 dəqiqədən sonra kirayə tutduqları evə çatdılar. Hamı şokda idi. Göyçay rayonunun mərkəzindən gələrək sanki gözdən uzaq bir məhəlləyə düşmüşdülər. Kirayə tutduqları ev arxın kənarında yerləşirdi. Ev qamışdan və çiy kərpicdən tikilmişdi, iki kiçik otaq və onların qabağındakı şüşəbənddən ibarət idi. Təxminən beş sot sahəsi olan həyətdə, demək olar ki, ağac yox idi. Hasarın dibində bir neçə kiçik nar kolu var idi. Qarşıdakı həyətlə bu həyəti nazik taxta parçalarından məftillə bağlanmış, o qədər də hündür olmayan "hasar " bir-birindən ayırırdı.

İsgəndər uşaqları rayonunun mərkəzində yerləşən orta məktəbə apardı. İsmayılı 9-cu, Məhsətini 7-ci sinfə qəbul etdilər. Ünzülə çox sevinirdi. Hənifə də bu il məktəbə gedə bilərdi. Atasının xahişi ilə onu birinci sinfə qəbul etdilər. Lakin uşaqlıq dünyasından tam ayrılmadığı üçün bir aydan sonra bildirdilər ki, növbəti il gələr.

Əvvəlki illərlə müqayisədə fərqli bir həyat yaşamağa başladılar. Əvvəla, həyət böyük olduğu və tək yaşadıqları üçün sanki azad bir quşa dönmüşdülər. İsgəndərin də işi yaxşı gedirdi. Həm şəhərin idarə və müəssisələrində, həm də Sabirabad və Salyan rayonlarının yaxınlıqda olan kolxoz və sovxozlarda rəssam işinə böyük ehtiyac var idi.

Həyətdə tez-tez kabab bişirər, samovar çayı içərdilər. Cox vaxt Ünzülənin bişirdiyi bozbaşın, küftənin iyi bütün həyətə yayılardı. Hərdən qonşu həyətdə yaşayan qadın ona müraciət edərək bu ləzzətli yeməkdən ona da pay verməsini xahiş edər, Ünzülənin övladlarına səadət və xoşbəxtlik arzu edərdi. Novruz bayramı günlərində isə

Ünzülənin hazırladığı şor çörəyinin tamına bütün qonşular vurulmuşdular. İsmayıl bu gün də o tamda olan şor qoğalının həsrətini çəkir. Uzun illərdir ki, onu axtarır, lakin tapa bilmir. Heç vaxt da tapmayacaq.

Əlibayramlıda bir qızları oldu, adını Fidan qoydular. Ünzülənin işi daha da artdı. O, indi həm 6 uşağının, həm də həyat yoldaşının yemək, təmiz geyim və sair problemlərini həll etməli, evini və həyətini təmiz saxlamalı idi. Çox ağır idi. İsgəndər isə şəhərdə bir televizor ustası ilə tanış olduqdan sonra yenidən içməyə başlamışdı. Evə gec gələr, gəldikdən sonra isə dava salardı. Əsas hücum hədəfi İsmayıl idi, onun evdən getməsini tələb edirdi. Yazıq Ünzülə intihar etmək səviyyəsinə gəlib çatmışdı. Sadəcə olaraq üç qız övladının olması onu bu yoldan çəkindirirdi.

1965-ci ilin dekabr ayı idi. Yeni il bayramı yaxınlaşırdı. Axşam evə sərxoş gələn İsgəndər İsmayılı təhqir edərək evdən çıxıb getməsini tələb etdi. Ünzülənin yalvarışlarının heç bir köməyi olmadı. Ona da bir neçə şapalaq ilişdirən İsgəndər İsmayılı evdən çıxarıb qapını içəridən bağladı. Bayırda soyuq külək əsirdi. Hara getsin, kimin qapısını döysün?

Gecə saat 12-yə az qalırdı. Şəhərin mərkəzindəki mehmanxanaya doğru getməyə başladı. Gecə yol getməsini çöl itləri duymasın deyə İsmayıl pəncəsinin burnunda yeriyirdi. Hava tünd qaranlıq idi. Ay doğmamışdı. Göz-gözü görmürdü. Göydəki boz buludlardan şəhərin mərkəzinə bir soyuqluq, bir sakitlik də ələnmişdi. Arabir itlərin hürüşməsindən başqa bu yerin, bu məkanın süqu-



tunu pozan, qəribəsiyini qovan səs-küy yox idi. Səhərə hələ çox vardı.

Məktəbdə xərcləmək üçün valideynlər uşaqlarına hər gün 20 qəpik pul verirdilər. Sinif yoldaşları öz aralarında lotoreya oynayır, pulu bir yerə yığaraq bir nəfərə verirdilər. Bir neçə ay ərzində İsmayıl həftədə bir dəfə ona verilən pulu xərcləməyib saxlamışdı. İndi sevinirdi ki, cibində pulu var. Bakı şəhərinə gedib peşə məktəbinə daxil olar, bir sənətə yiyələnə bilər. Yolun hər iki tərəfi kol hasarlar idi. Qorxa-qorxa irəliləyir, hər bir səsdən az qalırdı ki, ürəyi partlasın. Gündüz vaxtı on dəqiqəyə getdiyi bu məsafəni sanki bir əsrə getdi, qurtarmaq bilmir, bu yol uzandıqca uzanırdı. Ən çox qorxduğu it idi. Fikirləşirdi ki, bu saat bu kolların arasından bir köpək çıxıb onu parçalayacaq.

Nəhayət, şəhərin mərkəzindəki mehmanxanaya çatdı. Hamı yatmışdı. Həyətdə bir yük maşını var idi. Maşının banına çıxıb səhərə kimi üşüyə-üşüyə qaldı. Gözlərini yumsa da yata bilmədi. Xəyalında yalnız anası idi. Çox yaxşı bilirdi ki, anası yatmayıb, onun yolunu gözləyir, "mənim İsmayıl balam" deyə ağlayır. Səhər tezdən avtobusa minib Bakıya yola düşdü...
İsmayılın evə qayıtdığı günə qədər anası Ünzülənin çəkdiyi əzabları, ağrıları qələmə almaq çox çətindir.

– Ünzü, niyə yatmırsan?

İsgəndərin bu sualına Ünzülənin cavabı belə oldu:

– Necə yatım? Səncə üç gündür övladının hara getdiyini, harada qaldığını bilməyən ana yata bilərmi?

– İsmayıl çox ağıllı oğlandır. Mənə elə gəlir ki, o, ya

Göyçaya, ya da İsmayıllıya gedib.

– Yox, ola bilməz. Həmin rayonlarda tanışlarımız var. Belə olsaydı, bizə xəbər verərdilər.

– Bəs, onda hara gedib? Bakıya gedə bilərmi?

– İnanmıram. O, Bakıda cəmisi bir dəfə bizimlə Əsgərgildə olub. Sovetskidə yaşayan Əsgərin evini tapa bilməz. Ürəyimə damıb ki, İsmayıl tezliklə qayıdacaq.

İsmayıl bir həftədən sonra geri qayıtdı. Oğlunu sağ-salamat görən Ünzülə qəş edib sevincdən huşunu itirdi. Təcili yardım maşını vaxtında gəldiyi üçün onu xilas edə bildilər. İsgəndər isə heç nə olmamış kimi laqeyidliklə İsmayılın evdən icazəsiz getdiyi üçün ondan üzr istəməsini tələb etdi. Anasının ağır vəziyyətini görən İsmayılın başqa çıxış yolu yox idi. Atalığının tələbini yerinə yetirmək məcburiyyətində qaldı.

## Ailə Hacıqabula köçür

Ailə Əlibayramlıda bir ilə yaxın qaldıqdan sonra Hacıqabul rayonuna köçdülər. Rayonun mərkəzinə yaxın, polis şöbəsinin təxminən 300 metrliyində yerləşən bir mərtəbəli kommunal tipli evdən onlara iki otaqlı mənzil verdilər. Ismayıl onuncu, Məhsəti səkkizinci, Hənifə isə birinci sinfə qəbul olundular. Azad, Mənzurə və Fidanı isə uşaq bağçasına qoydular. İsgəndər 8 nəfərlik ailənin tələbatını ödəyə bilmədiyi üçün Ünzülə də rayonda olan yeməkxanaların birində işlə təmin olundu.

İsgəndər Haçıqabulun və qonşu rayonların kolxoz və sovxozları, idarə və müəssisələri ilə müqavilə bağlaya-



raq rəssamlıq işləri görürüdü. Buna baxmayaraq ailənin minimum ehtiyaclarını ödəyə bilmirdi. O, yenə də tez-tez içir, Ünzülənin şəxsiyyətini alçaldır, İsmayılın evdən getməsini tələb edirdi.

Son vaxtlar İsmayıl da bu məsələ ilə əlaqədar tez-tez fikirləşməyə başlamışdı. Ona qarşı olan bu düşmən münasibətin səbəbini tapa bilmirdi. Novruz bayramı yaxınlaşırdı. Axşam saat səkkiz radələrində evə sərxoş vəziyyətdə gələn İsgəndər İsmayılın evdən getməsini tələb etməyə, Ünzüləni və İsmayılı təhqir etməyə başladı.

Yaşadıqları evi piyada yolundan təxminən iki metrlik məsafə ayırırdı. İsmayıl paltarını geyib mənzildən çıxmağa hazırlaşırdı. Bu zaman qapı bərkdən döyülməyə başladı. Hamı sakitləşdi. Ünzülə qorxa-qorxa qapını açdı. Sahə müvəkkili idi. İsgəndəri sakit olmağa çağırdı. Sərxoş və özünü idarə edə bilməyən İsgəndər onu təhqir etdi. Sahə müvəkkili polis şöbəsinə zəng vuraraq onları köməyə çağırdı. İsgəndəri polis şöbəsinə apardılar. İsgəndər bu dəfə rayon məhkəməsinin hökmü ilə 5 illik həbs çəzasına məhkum olundu. Atalar yaxşı deyib ki, dağ nə qədər hündür olsa da, bir gün belindən yola düşəcək. Bundan sonra Ünzülənin ağır günləri yenidən başlandı. Çox qəribə bir tale ona qismət olmuşdu.Hər iki-üç ildən bir onun həyatında ağır günlər başlayır, həyat onu sınağa çəkirdi. Özü-özünə aşağıdakı sualı tez-tez verirdi:

– Sən bu günləri necə yaşayacaqsan? Abrını və namusunu qoruya biləcəksənmi? Övladlarını həyatın bu ağır burulğanından xilas edə biləçəksənmi?

Ünzülə bu sınaqlardan nəinki üzüağ çıxa bildi, hətta

üç övladının ali təhsi almasına, altı övladının ailə həyaqtı qurmasına nail oldu.

Orta məktəbi bitirən İsmayıl qəbul imtahanlarında 13 bal toplayıb Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsinin əyani şöbəsinə qəbul olundu.

## Xatirələr sahilində

Tələbə İsmayılın bütün xərclərini, yəni yemək, paltar, nəqliyyat, kirayə haqqını anası Ünzülə ödəyirdi. İsgəndər həbsxanada idi. İsmayıllı rayonunda kolxoz sədri işləyən Yasəf isə aylarla alimenti göndərmirdi.

Birinci kurs tələbəsi olan İsmayıl alimenti almaq üçün İsmayıllı rayonuna getdi. Rayona çatanda öyrəndi ki, Yasəf Təzəkənddə kolxoz sədri işləyir. Lahıc qəsəbəsinə gedən avtobusa minib yola düşdü. Sürücüdən xahiş etdi ki, Təzəkəndə çatanda ona bildirsin.

İsmayıl avtobusdan düşüb ətrafı seyr etməyə başladı. Kənd maşın yolunun solunda, yamaclıq hissədə yerləşirdi. Maşın yolunun sağında isə əkin sahələri var idi. Qabaqda isə Girdiman çayı axırdı. Çay adəti üzrə yenə də bu yerlərə nəğmə oxuyub, layla çalırdı. Vaxtı ilə dayısı Əziz cayın sağ sahilində olan əkin sahəsindən geri qayıdarkən xalası oğlanları ilə bərabər selə düşmüş və həlak olmuşdular. O vaxt Girdiman çayı bu kənd camaatına nəğmə oxuyub layla çalmamışdı, matəm, faciə gətirmişdi. Çox qəribə idi ki, Yasəf indi bu torpaqda yerləşən kolxozun sədri idi.

Yaxınlıqdakı adamlardan kənd idarəsinin yerini soruşdu, istiqamət verdilər. Noyabr ayı idi. Hava yağışlı olduğu üçün idarəyə gedən yol palçıqlı idi. Sürüşüb yıxılmaması üçün İsmayıl yolun kənarındakı ağac parçasını götürüb ondan bir dayaq kimi istifadə etməyə başladı. Qəfildən tindən çıxan bir köpək hürə-hürə ona doğru gəlməyə başladı. Bir anlıq başı fırlandı. Topçu kəndindəki hadisədən sonra itdən bərk qorxurdu. Nə yaxşı ki, itin sahibi vaxtında İsmayılın köməyinə gəldi.

İsmayıl kəndə gedən yolla irəlilədikcə gah yerə, gah irəli, gah da başını qaldırıb göydəki seyrəlmiş buludlara baxırdı. Bəzən baxışları beynindəki fikirləri darmadağın edirdi. Düşünürdü ki, görəsən, atası Yasəf onu necə qarşılayacaq? O, bu düşüncələr axarında olub-keçənləri gözləri önünə gətirir, yolu yeriməsinə baxmayaraq sanki donurdu, daş heykələ bənzəyirdi. Yol boyu təbiətin bu sakit guşələri onun əsəblərinə su səpmək əvəzinə, daxili düşüncələri onu daha da gərginləşdirirdi.

Nəhayət gəlib çatdı. İdarə bir neçə otaqdan ibarət köhnə bir binada yerləşirdi. Otaqlardan birinin qapısını döyüb içəri daxil oldu. Otaqda iki nəfər var idi. Odun peçinin kənarındakı stolun ətrafında oturub pürrəngi çay içirdilər. Kimliyini soruşdular. Adını dedi.Yenə də tanımadılar. Belə olduqda aliment almaq üçün gəldiyini dedi. Məhz bundan sonra onlardan biri dinləndi:

– Ay oğul, sən İsmayılsan?

– Bəli.

– Atan təsərrüfatdadır, tezliklə gələcək.

İsmayıla da bir stəkan çay verdilər. Minnətdarlığını bildirib çox həvəslə içməyə başladı. Daha bir stəkan da

vermələrini xahış etdi. Bu zaman bayırdan at kişnərtisi eşidildi.

– Sədr gəldi – deyərək tez ayağa qalxıb bayıra çıxdılar. İsmayıl da onlarla birlikdə idarənin həyətinə çıxdı. Qara at orta sürətlə idarənin həyətinə daxil oldu. Ayağında qara xrom çəkmə, başında qara papağı olan sədr əlindəki qırmancla atı vurub saxladı və gənclərə xas olan çəldliklə yerə tullandı. İti addımlarla otağa daxil oldu. İsmayılla görüşdü. Onu ali məktəbə daxil olması münasibətilə təbrik etdi. Söhbət əsnasında otaqdakı iş yoldaşlarına bildirdi ki, İsmayıl ali təhsilini başa vurduqdan sonra onun yanına gələrək birlikdə yaşayacaqlarına inanır. İsmayıl isə qəti etirazını bildirdi:

– Mənim anam və atam Ünzülədir. Onun əməyi, qayğısı nəticəsində mən bu günə gəlib çatmışam. Mən Anama heç vaxt xəyanət etmərəm! Mən nankor deyiləm! Ulu Tanrının yaratdığı incə bir varlığın qəlbini heç vaxt incitmərəm! Siz onun insanlığını, zəhmətini, qayğısını qiymətləndirə bilmədiniz, onun xöşbəxt həyatını məhv etdiniz. Mən bunu sizə heç vaxt bağışlamayacağam!

İsmayılın bu dik, sərt cavabı tikan kimi Yasəfin ürəyinə sancıldı. Onun sağ gözünün altı səyridi. Ətrafdakılar da bir qədər təşvişə düşdülər. Onlar bəlkə də belə düşünürdülər ki, ata-bala arasında elə indicə qan qurşağa çıxacaq. İsmayılın bu sözlərindən əlavə, ox kimi baxışları da Yasəfi silkələdi. Yasəf isə özünü o yerə qoymadı və o, nə qədər ağır, təmkinli idisə, bir o qədər də həssas və tədbirli idi. O, İsmayılın xasiyyətinə bələd olduğundan, onun danışığındakı və baxışlarındakı mənanı yaxşı duyurdu.



Sədrin kabinetinə bir qədər süqut çökdü. Ata-oğul arasındakı lal baxışlar toqquşanda elə bil ildırım çaxdı...

Bundan sonra İsmayıl sədrin otağından çıxaraq avtobusu gözləmədən piyada rayonun mərkəzinə yola düşdü. Təxminən 10 km-lik yolu bir neçə saata qət etdi. Yol boyu ötən günlərini bir daha xatırladı, kolxoz sədri işləyən Yasəfin onun arxasınca bir kimsəni belə göndərməməsinin şahidi oldu.

İsmayıl Təzəkənddən geri qayıdarkən yol boyu xəyallara dalmışdı. Girdiman çayının səsi bir qədər öləzimişdi. Deyəsən, suyu azalmışdı. İsmayıl nədənsə bu çayla Yasəfi müqayisə elədi. Vaxtaşırı bu çay selli, sulu olur, dağlara, dərələrə, meşələrə meydan oxuyur. Yasəfin də əlində səlahiyyəti var, bəlkə də o da bu kəndin camaatına meydan sulayır, burda mənəm, Bağdadda kor xəlifə, – deyir.

Girdiman çayı yurdumuzun əksər guşələrinə suvarma üçün yararlıdır və bu torpaqlara səadət, bərəkət paylayır. Yasəf isə ailəsinə, eyni zamanda gözü qarşısında duran və ehtiyac içərisində qovrulan övladına nəinki səadət bəxş etmir, heç mənəvi dayaq da durmaq istəmir. Düşünmür ki, bir gün gələr İsmayıl da həyat yollarını cırmaqlaya-cırmaqlaya, dırmana-dırmana fəth edə bilər və bu fəthin qarşısında o, nə cismən, nə də mənən tab gətirə bilməz. Necə ki, dəhşətli zəlzələlər nəticəsində Girdiman çayı məcrasını dəyişdiyi kimi...

## İsmayıl əmək fəaliyyətinə başlayır

Ali məktəbi bitirən İsmayılın təyinatını Hacıqabul rayonuna verdilər. Rayonun ucqar bir kəndində Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllim işləməyə başladı. Bir ildən sonra İsmayılı hərbi xidmətə apardılar. Uzaq Şərqdə, Vladivastokun yaxınlığındakı Ussuriysk şəhərində bir il hərbi xidmətdə oldu.

İsmayıl hərbi xidmətdə olarkən İsgəndəri azadlığa buraxdılar. Hərbi xidmətini başa vuran İsmayıl evə tələsirdi. Böyük planları var idi. Evdə əmin-amanlığın yaranmasına çalışacaq, anasının xoşbəxt günlər yaşamasına nail olacaq, atalığı ilə anası arasında uzun illər davam edən münaqişəyə son qoyacaq, evdəki dörd kiçik yaşlı uşağın sakit həyat sürməsini təmin edəcək.

Sevinə-sevinə qapını döydü. Qapını açdılar. Hamı boynuna sarıldı. Təkcə o yox idi. Məlum oldu ki, sərxoş vəziyyətdə evə gələn İsgəndər dava salmış və səs-küyə gələn milis işçiləri onu həbs etmişlər. Səhəri günü rayon həbsxanasının təcridxanasında görüşdülər. Bu dəfə onu mühakimə edərək daha ağır cəzaya məhkum etdilər. Qırxızıstanın paytaxtında yerləşən həbs düşərgəsinə göndərdilər. İki ilə yaxın orada cəzasını çəkəndən sonra Bakıya gətirdilər.

İsmayılı yenidən əvvəl işlədiyi orta məktəbə göndərdilər. Ailənin bütün ağırlığı yenə də Ünzülənin çiynində idi. Məhsəti Xarici Dillər İnstitunun Fransız dili fakültəsinin ikinci kurs tələbəsi idi. Dörd övladı orta məktəbdə oxuyurdu. Ailənin bu vəziyyətini nəzərə almayan rayon



təhsil şöbəsi yenidən İsmayılı ucqarda yerləşən orta məktəbə müəllim göndərdi.

Ünzülə bundan sonra oğlu İsmayıl üçün narahat olur, ailəsindən uzaqda olmasından əzab çəkirdi. Onun yemək, geyim problemləri ananın əsas probleminə çevrilmişdi. Beş aydan sonra İsmayıl, nəhayət ki, rayon təhsil şöbəsində metodist vəzifəsinə gətirildi. Oğlu rayon təhsil şöbəsində işə girmişdi. Tezliklə İsmayılı şəhər orta məktəbinə müəllim göndərdilər.

## İsmayıl alim oldu

İndi Ünzülənin böyük bir arzusu var idi. İsmayıl mütləq aspiranturaya qəbul olunmalı, alimlik dərəcəsini müdafiə etməlidir. Anasının arzusunu, hər gün təkrarlanan xahiş və tələblərini nəzərə alan İsmayıl gərgin hazırlıqlardan sonra imtahan verib Azərbaycan SSR Elmlər Akademiyasında aspiranturanın əyani şəbəsinə qəbul olundu. Bir neçə ildən sonra yazdığı dissertasiyanı müdafiə edərək elmləri namizədi adına layiq görüldü. Ünzülənin sevinci yerə-göyə sığmırdı.

Hənifəni də ali təhsilli görmək Ünzülənin ən böyük arzularından biri idi. Tezliklə Hənifə də Xarici Dillər İnstitutunun Alman dili fakültəsinə qəbul olundu. İsgəndər həbsxanada idi. Tək bir qadın Baki şəhərində təhsil alan iki tələbə və bir aspirant oğlunun maddi ehtiyaclarını ödəməli, eyni zamanda evdəki üç məktəbli övladlarının problemlərini həll etməli idi. O, bu ağır və məsul işlərin öhdəsindən qürurla gələ bildi.



*Ünzülə ana*

Bir müddətdən sonra İsgəndər azadlığa buraxıldı. Yenə də əvvəlki həyat tərzini davam etdirməkdə idi. Hamı öz həyatını yaşayırdı. Tezliklə İsmayıl da, Məhsəti də ailə həyatı qurdular. Ali məktəbi bitirən Hənifə də ailə həyatı qurdu. Hərbi xidməni başa vuran Azad da ailə həyatı qurdu. Azad anası və iki bacısı ilə bir evdə yaşayırdı.

Tezliklə Mənzurə və Fidan da ailə həyatı qurdular. Ünzülə də qocalmış, taqətdən düşmüşdü. Ayaqlarından əlil olmuş, yerimək qabiliyyətini tamam itirmişdi.

Bütün əsəbləri pozulmuş, ağır xəstəlik keçirən Ünzülə ana 2012-ci il Novruz bayramı axşamı, mart ayının 21-də, gecə saat 21-15 də övladları Fidan, Mənzurə və İsmayılın yanında gözlərini əbədi yumdu. İki aya yaxın can verən Ünzülə əbədiyyət dünyasına qovuşdu. Bir aydan artıq idi ki, "İsmayıl, məni pəncərədən at, rahat ölüm" deyərək yalvarırdı. Üc qızı və İsmayıl son günlər onun yanında idilər.

Səksən üç illik ömrünün 60 ildən coxunu əzab və işgəncələrlə yaşamış bu mübariz qadın dünyadan getdi. Anası canını tapşıranda İsmayılın beynindən qarmaqarışıq fikirlər keçdi və düşündü ki:



– Bu cəfakeş ana ömrünün azını parlaq gündüzdə, çoxunu isə zülmət qaranlıqda keçirdi. Yasəf və İsgəndər kimi məxluqlar onun rahat və rəvan yolunu daşlı-kəsəkli etdilər. O, cavanlıq, gənclik nə olduğunu bilmədi. Elə gənclik və gəlinliyindən də batmaqda olan günəş kimi uzaq-uzaq üfüqlərdə saralıb solmağa başladı. Lakin övlad məhəbbəti onu batmağa qoymadı. Ta ki, övladlarının əlləri çörəyə çatana, ailə qurana kimi...

Bir də, deyirlər ki, insanın özü ilə başlanan ömrü özü ilə də bitir. Sovet dönəmində qəzetlərdən birində yazılmışdı ki, xarici ölkələrin birində qeyri-adi bir qəbirstanlıq var. Burada əbədi uyuyanların məzar daşlarına dirim-ölüm tarixləri yazılmır. Ancaq yaşam sürdükləri mənalı və yaxşı günlərin sayı yazılır: 1 gün, 10 gün, 100 gün, 1 il, 10 il, 20 il və s.

Bu nöqteyi-nəzərdən yanaşsaq, Ünzülənin baş daşına 21 il yazılmalı idi. Çünki o, nə gün gördüsə, ata evində, ata ocağında gördü və elə xoş günlərini, aylarını, illərini də burada yaşadı. Ailə qurandan sonra onun ömür yollarını daş-kəsək aldı, duman-çən bürüdü, tale onu məngənədə sıxdı, sıxdıqca da bərkitdi. Qəlbi taleyindən böyük oldu. Müxtəlif niyyətlərə, bəd rüzgarlara sipər oldu...

Ünzülə İsmayıldan dəfələrlə xahiş etmişdi ki, onu İsmayıllı rayonunda, anadan olduğu Maçaxı kəndində dəfn etsinlər. Onun bu arzusunun yerinə yetirilməsində Məhsətinin həyat yoldaşının da İsmayıla böyük köməyi oldu. Ünzülənin məzarı Macaxı kəndinin mərkəzindəki cox əsrlik tarixi olan məzarlıqda yerləşir. Həyatda ən çox sevdiyi meyvə armud idi. İsmayıl son illər rayonda bazara

gedəndə – Ana, sənə nə alım? – deyib soruşardı.

– İsmayıl, mənə armud al, – deyərdi.

Çox qəribədir. İsmayıl anasının vəfat etdiyini Maçaxı kədədində yaşayan xalasının həyat yoldaşı Rauf həkimə bildirərək anasının dəfn olunması üçün qəbir qazılmasını ondan xahiş etdi. Cənazəni kəndin mərkəzindəki Böyük qəbiristanlığa gətirərkən İsmayıl gözlərinə inan-madı. Məzar iki armud ağacının arasında qazılmışdı. Bu gün də həmin armud ağacları bol meyvə verir. Hər dəfə payız günlərində məzarlıqda olarkən İsmayıl anasının baş daşında olan əksi ilə söhbət edir:

– Ana, bir bax, nə gözəl armudların var. Nə baxırsan, armudlardan hər gün ye, tezliklə qış gələcək,heç nə qalmayacaq.

## Maçaxı qəbiristanlığı

Maçaxıda bir qəbiristanlıq Gürdiman cayının günbatan tərəfində – Dərəlaxın başında olub. Sürüşmə nəticəsində həmin qəbiristanlıq yox olub. Digər qəbiristanlıq isə Girdiman çayının sol sahilində, Kələmərcdə (Kələ böyük, mərc yer deməkdir) – Qaranohurun yaxınlığında olub. Hal-hazırda həmin ərazidə istirahət zonası salınıb. Bundan başqa, Maçaxı kəndinin Xocalı deyilən yerində də bir qəbiristanlıq olmuşdur. Köhnə Sərdahar kəndinə yaxın yerdə, dikin üstündəki qəbiristanlıq Maçaxı qəbirstanlığı adlanır. Kəndin mərkəzində isə Böyük qəbiristanlıq yerləşir.






*Maçaxı kəndinin qədim qəbirstanlığı*

## Yazarlar Maçaxı qəbirstanlığı haqqında

Filologiya elmləri doktoru Ədalət Tahirzadə yazır ki, 1979-cu ilin yayında Maçaxıya gedib qəbirlərlə tanış olarkən bizi heyrət bürüdü-təsvirəgəlməz ustalıqla yonulmuş uca başdaşları indi də çox yaxşı qalıb. Maraqlıdır ki, burada çoxlu sultanlar, böyük bəylər basdırılıb. Bizcə, sultanlar Hacı İsmayıl bəyin qohumlarıdır.

Bu faktı Hacı İsmayıl bəy Qutqaşınlı da təsdiq edir. O, "Səfərnamə" əsərində Tircan bölgəsində yerləşən Maçaxı

kəndini təsvir edərkən yazır: " Maçaxı qəryəsinə çatmamış, kənarında bibimizin və sair əqrəbalarımızın məqbərələrinə ziyarət edib, axşama iki saat qalmış Maçaxıda Zülfüqar bəyin evinə nüzul etdik . Zülfüqar bəy İsmayıl bəy Qutqaşınlının bibisi oğludur".

Ədalət Tahirzadə haqlı olaraq qeyd edir ki, Maçaxı qəbiristanlığında dərin elmi araşdırılmalar aparılarsa çox dəyərli bilgilər üzə çıxar. Həmin qəbirlər indi də qalmaqdadır. Zərif, nəfis naxışlarla bəzədilmiş nəhəng baş daşları əzəməti və gözəlliyi ilə insanı heyrətə salır. Onlar hələ də çox yaxşı qalıb. Maçaxı kəndinin qəbiristanlığında şəhidlərin qəbirləri də mövcuddur. Qəbirlər durur, onların hamısı yazılı abidələrdir.

Əfsuslar olsun ki, Ədalət Tahirzadənin 1979-cu ildə qaldırdığı yuxarıdakı məsələ – Maçaxı qəbiristanlığında elmi araşdırmaların aparılması məsələsi bu gün də öz həllini tapmayıb. Bu abidələri itirib axtaran yoxdur. Bu qəbirlər hansı dövrə aiddir, bu məzarlıqda əbədi uyuyanlar kimlərdir? Həmin məzar daşlarının qorunmasında, onların təmizlənməsində kəndin sakini, ağsaqqalı Rauf həkimin böyük əməyi var. İsmayıl da tez-tez Maçaxı kəndində olur, Rauf həkimlə birlikdə həmin məzar daşlarını təmizləyirlər.

2016-cı il avqust ayının 29-da İsmayıl yenə də Rauf həkimlə birlikdə məzarlıqda baş daşlarını təmizləyirdilər. İsmayıl bildirdi ki, bir neçə il bundan əvvəl tarix elmləri doktoru, professor Qafar Cəbiyevlə bu məzarlıqda olarkən Zülfüqar bəy Qutqaşınlının məzarını axtardıq. Bu zaman bir məzar diqqətimizi cəlb etdi.





*Maarif Xalıqov rəhmətlik Sufi və Şeyxlərin seçilmişi Kukayın məzarı yanında.*






Mümkünsə bir daha o məzarı ziyarət edək. Rauf həkimlə birlikdə həmin məzarın üstündə olan baş daşını təmizləyib şəklini çəkdilər. 2017-ci ildə Tarix İnstitunda olarkən İsmayıl həmin şəkli institutun əməkdaşı Babək müəllimə göstərdi. Babək müəllim ərəb qrafikası ilə işlənmiş həmin yazını oxuduqdan sonra İsmayılı Tarix İnstitutuna dəvət etdi. İsmayıl eşitdiyi xəbərə inanmadı. Baş daşının üzərində aşağıdakı yazı həkk olunmuşdur: "Bu məzar rəhmətlik Sufi və Şeyxlərin seçilmişi Kukay 1324 - hicri, 1903 - miladi".

Sultan ailəsindən olanlar Maçaxının mərkəzində olan qəbiristanlıqda dəfn olunmuşlar. Min illik tarixi olan Şıx nəslinin nümayəndəsi Şıx Baba burada dəfn olunmuşdur. Şıx babanım əsl adı Molla Nəsrulladır, XIX əsrin II yarısı - XX əsrin əvvəllərində yaşayıb. Şıx Babanın qəbri bir ziyarətgaha çevrilmişdi. Vaxtı ilə ağır xəstəliyə tutulanları əlac tapmaq üçün onun qəbrinin üstünə gətirərdilər. Gələnlərin çoxu da bundan sonra dərdlərinə şəfa tapardılar.

### Ünzülənin məzarı

Ünzülənin məzarı Maçaxının mərkəzində olan qəbiristanlıqdadır. Qəbiristanlığın girəcəyində tikilmiş "sarayında" əbədi yuxuya gedən Ünzülə irəli baxır. İrəlidə, Ünzülənin məzarından təxminən 8 metr aralıda xalası Dursunun məzarı yerləşir. Bir-birlərinə dayaq, arxadırlar. Darıxmırlar, keçən günlərini xatırlayır, gecələr ruhları söhbət edirlər...



*Ünzülə ananın məzarı*

Ünzülənin məzarı ana və atasının dəfn olunduğu qonşu qəbiristanlığa gedən işlək yolun bir neçə metrliyində yerləşir. Bir vaxtlar anası Naziləni və atası Abdulu bu



yolla apararaq dəfn etmişdilər. Ünzülə bir vaxtlar bu yolda ağlaya-ağlaya gedər, anasının qəbrini ziyarət edərdi. Ünzülənin baş daşında olan şəkli bu yola baxır. Gözlərində böyük məna var. Görəsən nə düşünür, hansı anları xatırlayır? Yəqin ki, qardaşı Əzizi gözləyir. Məhz buna görə də gecə və gündüz gözlərini yummadan yola baxır, qardaş həsrəti ilə əbədi uyuyur.

İsmayıl da bilir ki, dayısı Əziz heç vaxt bu yolla gəlib bacısı ilə görüşməyəcək. Onun da ruhu uca göylərdədir. Amma özünü inandırmağa çalışır ki, dayısı mütləq gələcək, bacısını sevindirəcək, əl-ələ tutaraq kəndin aşağı yamacında olan evlərinə birlikdə gedəcəklər... İsmayıl hər dəfə bu yolla babası Abdulun evi olmuş yerə gedərkən bu daş yolda əl-ələ tutaraq məktəbə gedən bacı-qardaşı "görür", daxilən ağlayır və kövrəlir.

İsmayıl Maçaxı məzarıstanında tez-tez olur. Burada olduğu və olmadığı anlarda da anasının baxışları heç vaxt onun gözünün önündən çəkilmir. İndi onun həyatı İsmayıl üçün əfsanəvi, əsrarəngiz bir dona bürünmüş şəkildədir. Çox vaxt onu qəribə hisslər bürüyür. Bu hisslərin burulğanında sanki boğulur. Bu hissləri heç kəsə bildirmədən öz ürəyində yaşatmaq istəyir. Lakin ürək də daşdan deyil, ətdəndir. Anasının övladları üçün çəkdiyi əzab-əziyyətlərlə fəxr etmək arzusu yaşa dolduqca ürəyində daha da güclənir, daha qüvvətli, daha əzəmətli səslənir.

## İsmayılın Anasız qaldığı ilk ili

13 rəqəminin ağır olduğunu deyirlər. İsmayıl isə bu rəqəmi "özünün rəqəmi" hesab edib. 13 balla ali məktəbə, daha sonra isə yenə də həmin balla aspiranturaya qəbul olunub. Bu rəqəmin nəhs olmasına inanmayıb. Amma indi, sanki hər şey dəyişib, alt-üst olub. Bu sətirləri yazarkən 2012-ci ilin son saatlarını yaşayır, 13 rəqəmini gözləyir, Anasız qarşılayacağı ilk ilini, 2013-cü ili gözləyir. 62 dəfə yeni ili birlikdə qarşılamış, birlikdə sevinmiş, gülmüş, şənlənmişlər. İsmayıl 60 ilə yaxın anasının hazırladığı bayram süfrəsinin nemətlərini yeyib. Aşını, dolmasını yeyib. Bəs indi necə olacaq? Bunu özü də bilmir.

Artıq gecə saat doqquzun yarısıdır. Üç saatdan sonra yeni il, 2013-cü il gələcək. İsmayıl isə 2013-cü ili anasız qarşılamalı olacaq, bir yetim kimi!

Çox qəribədir. Evlərində elə bir bayram əhval-ruhiyyəsi də yoxdur. Həyat yoldaşı bayram üçün nə lazımdırsa, hamısını hazırlayıb. Lakin həmin nemətləri stola gətirib bayram süfrəsini bəzəməyə o da o qədər həvəs göstərmir. Mənzildə ikisi qalıb. Həkim qızları bu axşam qospitalda işdədir. Oğlanları Murad tələbə yoldaşları ilə birlikdədir. Kiçik övladları Ayxan da yoldaşları ilə bayramı qarşılayır. İsmayıl və həyat yoldaşı isə ikilikdə 2012-ci ili yola salır, 2013-cü ili qarşılayırlar. Onlar bu anların boşluğunu heç vaxt bu cür yaşamayıblar. Sanki adi günlərdən birini yaşayırlar. Bayram əhval-ruhiyyəsi qəlblərindən, ruhlarından çox uzaqdır. Səhərin açılmasını səbirsizliklə gözləyirlər. İsmayıl 2013-cü ilin 1 yanvarını anası ilə olacaq. Məzarlıqda ruhları görüşəcək, söhbət edəcək, dərdləşəcəklər.



2013-cü ilin sentyabr ayında Maçaxı kəndində, Anasının məzarı üzərində olarkən İsmayıl xəyalən onunla dərdləşməyə başladı. Bu zaman qəlbinin ən dərin güşəsindən aşağıdakı iniltilər gəldi:

*Gözləri yollarda qalıb Anamın,*
*Deyir, bax, indicə balam gələcək!*
*Öpüb baş daşımdan, gül yanağımdan,*
*Məzarım üstünə çiçək düzəcək!*

## Epiloq

Bu sətirlərdən Ünzülənin, bütün analar kimi nə qədər cəfa çəkdiyini, əzab-əziyyətlərə qatlaşdığını, övladlarına nə qədər mehriban və qayğıkeş olduğunu görmək çətin deyil.

O, nə Yasəfdən, nə də İsgəndərdən öz xoşuna aralanmamışdı. Onu özləri özlərindən aralamışdılar. İsmayıl bu gün düşünür ki, Ünzülə kimi anaların yeri seyrəlməkdədir. İnformasiya kanallarında tez-tez məlumat verilir ki, filan ər filan arvadını boşadı. Və yaxud , filan ər arvadını öldürdü, filan arvad da ərini. Uşaqlarını küçələrə atanlar da öz yerində. Bunları eşitdikcə adamın əsəbləri tarıma çəkilir və düşünürsən ki, Ünzülə kimilər yox olduqca qərar tutduğumuz torpağın, daşın, başımızın üzərindəki ulu göylərin əndişəsi də artır. Körpələr evində böyüyən və ata-ana deyib fəryad qoparan zavallıların ah-naləsi dünyamızı cılızlaşdırır.

Yazı masamın arxasında tək oturanda xəyallar aləminə baş vurub Allaha yalvarıram ki, Ulu Yaradan, hifz et bu möcüzəli dünyamızı qeyrətsiz atalardan, nankor, övladına laqeyd olan analardan. Qurtar pulu övladından üstün tutan atalardan. Hifz et hisslərinin əsiri olan valideynlərdən və nələrdən, nələrdən...

Bütün analar, o cümlədən Ünzülə ana haqqında da mənim sinəm sözlərlə doludur. Bütün bu yazdıqlarımı təkcə sözlə də ifadə etmək olar:

– İlahi Ana! Bu iki sözün mənası nədir, bu iki sözdən nə xülasə çıxarmaq olar?



Mənası budur, xülasəsi budur ki, Ulu Tanrının köməkliyi ilə Ünzülə böyüklük, müqəddəslik etalonu qazanıb. Onun həyatının əsası altı övladı olub. Övladları onun əzab-əziyyətlərinin, məşəqqətlərinin məhsuludur.

İsmayıl özü ilə, öz xasiyyəti ilə, öz elmi və mədəni səviyyəsi ilə heç vaxt öyünməyib, qürrələnməyib. Daima hərəkətlərinə, fikir və düşüncələrinə çox tənqidi yanaşıb, özündəki çatışmayan cəhətləri, eyib və nöqsanları dəf etmək üçün yollar arayıb. Keçirdiyi ruhi və psixoloji sarsıntılar məqamında da göydə Allaha və yenə də göydə Anasının müqəddəs ruhuna tapınıb. Xasiyyəti, tərbiyəsi, təbiəti üçün bütün varlığı ilə Anasına minnətdardır! Allah ona rəhmət eləsin! Məzarı nurla dolsun!

2012-ci ilin avqust ayının əvvəllərində İsmayıl Ərdəbilin Sərein şəhərində olarkən yaxın dostu Rəhim ağa onun üzündəki qüssəni görərək səbəbini soruşur, böyük itkisi haqqında məlumat verir. Bir neçə gündən sonra Savalan Qartalı kimi tanınan Rəhim ağa aşağıdakı şeirini İsmayıla thaf edir.

### A N A

İbtidadən bilirik xilqətə illət anadır
Əmbiyalar da deyib "illəri xilqət anadır".

Ana bir güldür, təbiətdə gülər gül dodağı,
Aləmi-zərridə dəryayi-məhəbbət anadır.

Ananın izzətinə göydə məlaik baş əyir,
Kəhkəşanlarda qaçan nuri-həqiqət anadır.

Yüz balası ola, bir gözdə görüb dərdin alar,
Mülki-eşq içrə əzəl xaliqi-vəhdət anadır.

Əllərindən tutub hər dəm sənə can eylər əta,
Yetirə vəslə səni, piri-təriqət anadır.

Ana sənsiz ayağın cənnətə qoymaz, yəqin ol,
Bağı-rizvanə verən zivəri-zinət anadır.

Göz yaşıyan becəribdir səni bağban sayağı,
Bunu dərk eyləmişəm, ruhi-təbiət anadır.

Anadan sonra bala dərdini bir kimsə yeməz,
El sədaqətlə deyir: "Eşqi-dəyanət anadır".

Əlli yaşın da ola *can bala, can* yağdıracaq,
Edən eşq ayəsini dəmdə təlavət anadır.

Ruzi-məşhərdə də fikrin çəkib hicrində yanar,
Sənə tufani-qiyamətdə himayət anadır.

Ananın ərzişini Ümmi-Əbihadən eşit,
Dəm qənimət sananan dəmdə qənimət anadır.

İstəsən, Dərviş, əgər badeyi-Tohid içəsən,
Əql əndişənə daruye-səlamət anadır.



Düz bir ildən sonra, 2013-cü il iyul ayının 31-də Sərein şəhərində, Rəhim ağanın mənzilində olarkən o, İsmayıla ithaf etdiyi "Mənim ağbirçək anam!" adlı digər bir şeirini də təqdim edir.

**Mənim ağbirçək anam!**



Boynuma eşq ilə saldın saçını sil-silə sən,
Gətiribsən məni qoynunda bu son mənzilə sən.
Silən olmur gözümün yaşını, qan ağlayıram,
Dən səpib indi gətirdin məni quş tək dilə sən.

Qələm oldun əlimə, sözləri qoydun dilimə,
Qonaq etdin məni də, naz ilə bu məhfilə sən.
Ol qabar əllər ilə nazımı çəkdin bir ömür,
Kəştiyi eşqimi çatdırdın, ana, sahilə sən.

İnana bilməyirəm sən gedəsən qürbət elə,
Bürüdün ayrılığınla ürəyim nisgilə sən.
Mənim ağbirçək anam, yox sənə könlümdə ölüm,
Öyrədibsən, ana, laylalarını bülbülə sən.

Hara baxsam görürəm evdə əlindən əsəri,
Ürəyimdən hələ də tutmamısan fasilə sən.
Ürəyin qanın içirtdin, mənim oldun dayağım,
Dözdün haqqımda, ana, dəhridən min müşkülə sən.

Dilimin əzbərisən, ta nəfəsim vardır, ana,
Gercə qoynunda namazımda düşən nafiləsən.
Günü-gündən əsər eylir mənə ayrılmağını,
Ucalırsan ürəyimdə, Ana, ildən-ilə sən.
Sənin eşqinlə, oğulun, gecə-gündüz yaşayır,
Mənə göylərdən, Ana, nazil olan Ünzüləsən!

Bu gün Maçaxı qəbiristanlığında, Ünzülənin məzarının yanında bir məzar yeri də var və İsmayıl çox sevdiyi övladlarına vəsiyyət edib ki, bu fani dünyadan haqq dünyasına köçəndə onun məzarının baş daşına aşağıdakı sözləri həkk etdirsinlər:

"Məni dünyaya gətirən və əbədi sevən Anam Ünzülənin yanında yatmağım ən böyük qazancımdır. İnanıram ki, bu məzarda tək olmayacaq, anamın mənə oxuduğu laylalarını, "can balam" kəlmələrini hər an, hər gün eşidəcəyəm."



**Əsərdən doğan təəssüratlarım...**

Əziz qardaşım!

Yazdığın əsəri ürək çırpıntıları ilə, demək olar ki, bir nəfəsə oxudum. Dilin axıcı, düşündürücü, rəvan və ağrılıdır. Əsərin təhkiyəçisi İsmayılın keçirdiyi iztirablara, sıxıntılara, çarəsizliklərə, Ünzülə ananın amansız, bitib tükənməyən acılarına mən də bir oxucu kimi ağrıdım. Belə ağrı və acıları bu və ya digər formada mən də yaşamalı olmuşam. Ola bilsin ki, belə taleli insanlar saysız-hesabsızdır. Onların həyat və yaşam olaylarını qələmə almaq söz sahibindən istedad tələb edir. Səmiyyətimə nə qədər inanarsan, bilmirəm.

Hərdən mənə elə gəlir ki, biz insanlar Allah tərəfindən yer üzünə atılmışıq. Yer üzündəki həyatımız – başımıza gələnlər, qarşılaşdığımız problemlər. əzab-əziyyətlər, məhrumiyyətlər, göz yaşları, ğrı çəkmək, ağrıları yaşamaq bizim üçün bir imtahan, bir sınaqdır. Biz insanlar bəzən öz bədbəxtliyimizdə taleyi, allahı və özümüzdən başqa istənilən hər şeyi günahlandırmağa meyl edirik. Həqiqətin yolu isə çətin və ağrılıdır. Odur ki, çox az adam bu yola qədəm qoyur, amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl mənzərə açılır. Bu mənzərə xoşbəxtlik, dinclik, rahatlıq və səadət mənzərəsidir! Bu ağrılar və acılar, məhrumiyyətlər və alçalmalar, rəzilliklərin və haqsızlıqların üzərində qələbə mənzərəsidir! Bu sənin həyat mübarizənin kulminasiya nöqtəsi, təntənəsi, qələbə simfoniyasıdır!

Bizi dünyaya gətirənlər bizə taxt versələr də bəxtimi-

zi ulu Tanrı verir. Və gözəgörünməz bir qüvvə bizi idarə edir. Alın yazımızda yazılan başımıza gəlir. Sözümü əsaslandırmaq üçün bir əhvalat danışacağam.

XVIII əsrin sonu – XIX əsrin birinci yarısında Dağıstanda yerli xalqların çar işğalına qarşı apardıqları azadlıq mübarizəsi bu məğrur xalqın məğlubiyyəti ilə bitdi. Əvvəlcə onların mübarizəsinə rəhbərlik edən cəsur və qoçaq Qazi Məhəmməd qəhrəmancasına həlak olandan sonar bu mübarizəyə 1832-1834-cü illərdə İmam Həmzət rəhbərlik edir. Onun yanlış, amansız, yersiz və haqsız hərəkətlərindən bezən xalq onu aradan götürmək üçün gizli plan hazırlayır. Onların arasında olan bir satqın (onlarsız həyat yoxdur) İmam Həmzətə xəbər verir ki, sabah səni məsciddə namaz vaxtı öldürəcəklər. O isə halını pozmadan deyir:

– Əgər Əzrayıl sənin canını almağa gəlibsə, sən onu saxlaya bilərsənmi?

– Yox, deyə xəbərçi cavab verir.

Həmzət ona:

– Get onda evə, rahatca yat. Allah nə istəyirsə o da olacaq. Əgər sabah mənim ölümüm müəyyən olunubsa, elə də olacaq.

Ertəsi gün İmam Həmzət məsciddə namaz vaxtı Hacı Murad, qardaşı Osman və onların tərəfdarları tərəfindən qətlə yetirilir.

Deməli, kimin alnına nə yazılıbsa, taleyi də, həyatı da eləcə olacaq. Olacaqlardan qaçmaq olmur. Onları yaşamalıyıq. Həyatda hərə öz ömrünü yaşayır: kimi kef içində, kimi də əzab-əziyyət içində. Təəssüf edirəm ki, əzab



çəkənlər çoxdur. Rus yazıçısı Lev Nikolayeviç Tolstoy "Anna Karenina" romanında yazır:

– Bütün xöşbəxt ailələr bir-birinə bənzəyir, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir. Bədbəxtlərin biri atasından, biri anasından, biri onu əhatə edən mühitdən, işindən, qohum-əqrəbasından, sevdiyindən, ailəsindən və sairdən yararlana bilmir. Bu problemlərin içində bəxti, taleyi, allahı, özündən başqa ağlına gələcək hər şeydən şikayətlənir, özünü bədbəxt sayır.

Rus yazıçısı N.Ostrovski "Polad necə bərkidi" romanında yazır:

– İnsan üçün ən qiymətli şey həyatdır. Həyat insana bir dəfə verilir. O həyatı elə yaşamalısan ki, səmərəsiz gedən günlər üçün sonra əzab çəkib heyfsilənməyəsən, gedən günlərin rəzaləti və alçaqlığı üçün utanmayasan. İnsan elə yaşamalıdır ki, ölərkən: mən bütün həyatımı, bütün qüvvəmi dünyada ən gözəl bir şeyə – bəşəriyyətin azadlığı uğrunda mübarizəyə sərf etdim deyə bilsin. Yaşamağa tələsmək lazımdır. Mənasız bir xəstəlik və yaxud faciənə bir təsadüf bu həyatı qıra bilər.

Qardaşım! N.Ostrovskinin qələmindən çıxan əsərin qəhrəmanı, başı bəlalar çəkən, ömrünü gənc ikən inqilabi mübarizələrə həsr edən, yataq xəstəsinə çevrilib ayaqları, əlləri, gözləri tutulan, şüurlu həyatını azadlıq uğrunda döyüşlərə, gərgin mübarizələrə qurban verən Pavel Korçagin son nəfəsinədək mübarizliyini və ümidini itirmir, ruhdan düşmür, yorulmur. Bütün çətinliklərə, əzab və iztirablara qalib gəlir. Yataqda ikən bütün gənclərə, insanlara örnək olası əsərlər yazır. "Polad necə bərkidi"

və "Fırtınadan doğulmuşlar" romanları insanı həyatda mübarizəyə, mərdliyə, igidliyə, vətənpərvərliyə çağırır, yaşamaq uğrunda bütün çətinlikləri dəf etməyin yollarını öyrədir. Sənin həyat yolun, çalışqanlığın, hər cür əzab və rəzalətlərə kişi kimi dözüb dayanmağın, sınaqlardan qalib və coşqu ilə çıxmağın, mübarizən mənə Korçaginin həyatını xatırladır. Sən bu günümüzün gənclərinin real Korçaginisən. Özünü təsdiq edən, heç bir yerdən, kimsədən kömək, əlac ummadan istəyinin ardıyla sona qədər gedib zəfər çalan ziyalısan!

Sənin yaratdığın Ünzülə obrazının qələbəsi xeyirin şər üzərindəki qələbəsidir. Ünzülənin həyatını çözələyəndə bir daha əmin oluram ki, onun keçdiyi həyat yolu, mübarizəsi müasir gəncliyimiz üçün tərbiyə məktəbidir, örnəkdir.

***Xalıq Xalıqov***

*Azərbaycan Jurnalistlər Birliyinin üzvi,*
*"Qızıl Qələm" Media mükafatı laureatı*



**MÜNDƏRİCAT**


Güllələnmiş gülüşlər......3
Proloq yerinə və yaxud ritorik sualların məngənəsində......10
Qış günündə dünyaya gələn bir körpə......11
O da qış günündə dünyaya göz açmışdı......13
Kukay məhəlləsi......15
Maçaxı kəndinin tarixi......17
Maçaxı bəyləri......21
Onlar Macaxıda olmuşlar......22
Maçaxının təsərrüfat həyatı......24
Meyvə bağları......25
Maçaxı bulaqları......26
Maçaxının su dəyirmanları......27
Maçaxı karvansarası......28
Bazar meydanı......29
Maçaxı kəndində poçt yeri......29
Ermənilərin Maçaxı kəndində törətdikləri vəhşiliklər......30
Məktəb......31
Maçaxı kənd əhalisi......32
Girdiman faciəsi......35

Tircan kənd orta məktəbinin əlaçı şagirdi............37
Ünzüləni izləyən kölgə............39
Tələbə Yasəf............41
İlk məhəbbətin sonu............46
Ünzülə və İsgəndər............49
Talıstan kəndində İsmayılın əyləncə yerləri ........
Ünzülənin ağır günləri............56
Rauf həkimin dediklərindən... ............
İsmayıllı bazarında keçən günləri xatırlarkən... ..
Ailə yeni mənzildə............68
İsmayılın naşılığı............68
İsmayıl çıxış yolu axtarır............71
Nadirin xatirə yazısı............74
İsmayılın qayıdışı............78
Göyçay rayonuna köç............80
İnternat məktəbində............83
Qeybdən gələn səs............90
Əlibayramlıya köç............92
Ailə Hacıqabula köçür............96
Xatirələr sahilində............98
İsmayıl əmək fəaliyyətinə başlayır............102
İsmayıl alim oldu............103
Maçaxı qəbiristanlığı............106



Yazarlar Maçaxı qəbirstanlığı haqqında............107
Ünzülənin məzarı............110
İsmayılın Anasız qaldığı ilk ili............113
Epiloq............115
Ana............117
Mənim ağbirçək anam!............118
Əsərdən doğan təəssüratlarım............120

~~~~~~~~~~~~~~~~~~~~~~

*Çapa imzalanmışdır: 27.09.2018.*
*Formatı: 60x84 $^{1}/_{16}$. Həcmi: 8 ç. v.*
*Sifariş 12. Tiraj 1000.*
*«Təknur» MMC-nin mətbəəsində*
*hazır elektron variantdan çap olunmuşdur.*

~~~~~~~~~~~~~~~~~~~~~~

*Qiyməti müqavilə ilə*

~~~~~~~~~~~~~~~~~~~~~
~~~~~~~~~~~~~~~~~~~~~